Üçüncü strategiya informasiya texnologiyalarına və rəqəmsallaşmaya sərmayə qoyulmasıdır. Şəxsi muzeylər VR/AR texnologiyaları, virtual sərgilər, onlayn kataloqlar vasitəsilə eksponatlarını geniş auditoriyaya təqdim edə bilər. Bu, xüsusilə regionlarda yerləşən muzeylərin coğrafi məhdudiyyətlərini aradan qaldırmaqla turizm potensialını da artırır. Belə yanaşma muzey fondu ilə bağlı məlumatların sistemli toplanmasına, inventarizasiya və monitorinq mexanizmlərinin inkişafına gətirib çıxara bilər.

Dördüncü olaraq, şəffaflıq və ictimai iştirakçılığı gücləndirmək mühüm strategiyadır. Şəxsi muzeylər ziyarətçiləri, kolleksiyaçılarla və yerli icmalarla dialoqa açıq olmalı, sərgilərin hazırlanmasında və proqramların tərtibatında ictimai rəy formalaşdırmalıdır. Məsələn, məktəblilərlə mütəmadi interaktiv tədbirlər, "muzey həftəsi" layihələri təşkil etməklə istedadlı gənclərin mədəniyyətə marağını artırmaq mümkündür. Bu, mədəni təhsilin inkişafına əlavə stimul verə bilər. Azərbaycanda Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyi birlikdə belə proqramları artıq həyata keçirir-"Muzeylər və İslam Həmrəyliyi" çərçivəsində uşaqların muzeylərə cəlb olunması təcrübəsi var.

Beşinci strategiya- beynəlxalq əməkdaşlıq və resurs mübadiləsidir. Şəxsi muzeylər xarici muzeylərlə (xüsusilə diaspora muzeyləri və ya mədəni fondlar) əməkdaşlıq edərək mübadilə proqramlarını genişləndirə, sərgilərin beynəlxalq konteksdə təqdim olunmasını təmin edə bilər. Bu növ əməkdaşlıq eksponatların təqdimatında yeni auditoriya cəlb etmək, mədəni diplomatiya alətinin inkişafını dəstəkləmək üçün effektiv mexanizmdir.

Məsələn, ölkədə fərdi kolleksiya əsaslı muzey nümunəsi kimi "Rinay" muzeyi (ilk özəl muzeylərdən biri) diqqətə layiqdir. Onun kolleksiyasında dəniz qabıqları və fosil mollusklar var, bu isə yalnız mədəni irsin qorunması baxımından deyil, elmi tədqiqatlar üçün də qiymətli baza yaradır. Bu cür nümunələrə əsaslanaraq, digər şəxsi muzeylərin inkişafı üçün model strategiyalar hazırlamaq mümkündür.

## ƏDƏBİYYAT

1. Ələsgərov N. "Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar", Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Mədəniyyət Dünyası VI, 2003, s. 271–273.
2. Əliyeva G. Azərbaycanın bədii parça və tikmələri. Bakı, 1990.
3. Əliyeva H. "Azərbaycanın orta əsr silahları üzərində kitabələr", Azərbaycan Xalçaları, cild 6, № 19, 2016, s. 94–101.
4. Əmirxanov S. "Azərbaycan sənətkarlığı dünya muzeylərində", Mədəni Həyat, № 6, 2013, s. 56–58.
5. Əsədova X. "Rusiya Etnoqrafiya Muzeyində və Dövlət Ermitajında qorunan Azərbaycan xalçaları", Azərbaycan Xalçaları, cild 6, № 19, 2016, s. 112–119.
6. Hüseynov İ., Əmirxanov S. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. Bakı, 2023.
7. Mehparə. "Azərbaycan xalçaları dünya muzeylərində amma "Qafqaz"-"İran" adı ilə", Mədəniyyət Qəzeti, 12 aprel 2018, s. 7.
8. Azərbaycan Milli Elmlər Akademiyası. "Azərbaycanda muzey sektorunun durumu", Mədəniyyət məcmuəsi, 2008, № 5, s. 348–355.
9. Cəbrayılova Ə. "Mədəni sərvətlərimizin keşiyində: muzeylərimizin inkişaf yolu", 525-ci qəzet, 2023.

10. "Azərbaycanda muzey mədəniyyətinin inkişaf dinamikası: kolleksiyalardan arxeoloji muzeylərə", İcma.az, 2025.

## MÜASİR AZƏRBAYCAN ŞƏXSİ MUZEYLƏRİNİN FORMALAŞMASI: ÇAĞIRIŞLAR VƏ İNKİŞAF STRATEGİYALARI

*Kərimova Nərgiz*

### XÜLASƏ

Yekun olaraq, şəxsi muzeylərin inkişafı Azərbaycan mədəniyyət sisteminin gələcəyi üçün strateji əhəmiyyət daşıyır. Onlar yalnız mədəni irsin daşınmaz və daşınan nümunələrini saxlamır, həm də cəmiyyətin geniş təbəqələri üçün mədəni təhsil meydanları, turizm obyektləri və sosial mədəni dialoq platformalarıdır. Rəqəmsallaşma, peşəkar inkişaf, dövlət-özəl əməkdaşlığı və beynəlxalq əlaqələr strategiyaları vasitəsilə şəxsi muzeylər daha dayanıqlı, elmi və ictimai cəhətdən aktiv institutlara çevrilə bilər. Bununla, Azərbaycan mədəniyyəti yalnız milli sərvət kimi deyil, həm də qlobal mədəniyyət kontekstində dəyərli bir paydaş kimi möhkəmlənə bilər.

## ФОРМИРОВАНИЕ СОВРЕМЕННЫХ ЧАСТНЫХ МУЗЕЕВ АЗЕРБАЙДЖАНА: ВЫЗОВЫ И СТРАТЕГИИ РАЗВИТИЯ

*Каримова Наргиз*

### АННОТАЦИЯ

В заключение, развитие частных музеев имеет стратегическое значение для будущего культурной системы Азербайджана. Они сохраняют не только недвижимые и подвижные образцы культурного наследия, но и являются площадками культурного образования для широких слоев общества, туристическими объектами и платформами для социального культурного диалога. Через стратегии цифровизации, профессионального развития, государственно-частного сотрудничества и международных связей частные музеи могут превратиться в более устойчивые, научно и общественно активные институты. Таким образом, азербайджанская культура может укрепиться не только как национальное достояние, но и как ценный участник в глобальном культурном контексте.

## THE FORMATION OF MODERN PRIVATE MUSEUMS IN AZERBAIJAN: CHALLENGES AND DEVELOPMENT STRATEGIES

*Nargiz Karimova*

### SUMMARY

In conclusion, the development of private museums holds strategic importance for the future of Azerbaijan's cultural system. They not only preserve tangible and intangible examples of cultural heritage but also serve as cultural education spaces, tourist attractions, and platforms for social and cultural dialogue for broad segments of society. Through strategies such as digitalization, professional development, public-private partnership, and international relations, private museums can become more sustainable, scientifically and socially active institutions. In this way, Azerbaijani culture can be strengthened not only as a national treasure but also as a valuable participant in the global cultural context.

## PSİXOLOGİYA, PEDAQOGİKA

# YENİYETMƏLƏRDƏ BULLİNQİN PSİXOLOJİ NƏTİCƏLƏRİ VƏ MÜDAFİƏ MEXANİZMLƏRİ

***Eyvazlı Aynur Nəsimi qızı***
***BDU-nun II kurs magistrantı***
***aynureyvazli2003@gmail.com***

***Açar sözlər:*** Bullinq, yeniyetmələr, psixoloji nəticələr, müdafiə mexanizmləri, kiberbullinq, stress, depressiya, sosial münasibətlər, emosional adaptasiya
***Ключевые слова:*** Буллинг, подростки, психологические последствия, механизмы защиты, kибербуллинг, стресс, депрессия, социальные отношения, эмоциональная адаптация
***Keywords:*** Bullying, teenagers, psychological consequences, defense mechanisms, c**yberbullying,** stress, depression, social relationships, emotional adaptation.

Müasir dövrdə yeniyetmələr arasında bullinq həm məktəb, həm də onlayn mühitdə ciddi bir sosial problem olaraq diqqət çəkir [6, 5]. Bullinq yalnız fiziki zorakılığı deyil, həm də psixoloji, emosional və sosial problemləri əhatə edir [1, 2]. Xüsusilə internet və sosial şəbəkələrin artan rolu, yeniyetmələr üçün virtual məkanda təcavüz riskini artırır. Bu vəziyyət kiberbullinq adlanan fenomeni meydana gətirir ki, bu da yeniyetmələrin psixoloji sağlamlığına mənfi təsir göstərir [3, 6].

Bullinq ingilis sözü olub "bullying " sözündən götürülüb və manası zorakılıq, təhqir etmək, alçaltmaq deməkdir. Bullinq bir qrup şəxsin digər bir qrupu və ya bir şəxsi məqsədi və təkrar şəkildə təhqir etməsi, zorakılıq göstərməsi və ya alçaldılması ilə xarakterizə olunan təcavüzkar davranış hesab olunur. Bu davranış məktəblərdə , iş yerlərində, internetdə və ya digər sosial mühitdə geniş şəkildə rast gəlinir. Bullinqdə iki tərəf mövcuddur: 1) bullinqi törədən şəxs-buller ; 2) bullinqə məruz qalan tərəf- qurban . Müasir tədqiqatlar göstərir ki, qurbanlar tam təsadüfü seçilir. Həta təhsil və idman sahəsində uğur qazanan şəxslər də sırf paxıllıq üzündən bullinqə məruz qala bilirlər. Adətən zorakılığa məruz qalan şəxs qorxur, ağlayır, gizlənməyə çalışırlar. Qurbanların nümayiş etdirdikləri zəiflik məhz bullinqi törədənlərin arzuladıqları davranışdır. Bununla belə bullinq yalnız qurbanlara deyil, həm də təqibçilər və şahidlərə təsir edir. Qurbanlarda depressiya, qorxu, özünəinamsızlıq kimi psixoloji pozuntular baş verir [7]. Təqibçilərdə isə aqressivlik, sosial uyğunsuzluq və gələcəkdə deviant davranışlar müşahidə oluna bilər [4]. Şahidlər isə emosional stress, narahatlıq və qorxu hissi yaşayırlar.

Bullinqin bir sıra növləri və xüsusiyyətləri vardır və hər birində bullinq müxtəlif formalarda özünü göstərir:

1. Fiziki bullinq – zərərçəkənə fiziki zərər verməklə bağlı olan zorakılıq növüdür. Buraya döymə, təpik vurma, itələmə əşyaların məhv edilməsi və ya digər fiziki hücumlar daxildir. Fiziki bullinq zərərçəkən üçün birbaşa fiziki zərər və ağrıya səbəb olur[1].

2. Şifahi bullinq – təhqir, lağ etmə, qorxutma, yalan məlumat yaymaq və digər mənfi ifadələrlə bağlıdır. Bu növ bullinq zərərçəkənin özünə inamına və psixoloji sağlamlığına ciddi şəkildə təsir edə bilər [3].

3. Sosial bullinq – qrupdan izolyasiya, dost münasibətlərinin məhdudlaşdırılması , qrupdan kənarlaşdırılma şayiələr yaymaq ilə baş verə bilər. Sosial bullinq zərərçəkənin sosial əlaqələrini və özünə inamını zəiflədir [6].

4. Kiberbullinq – sosial şəbəkələr, onlayn oyunlar, mesajlaşma tətbiqləri vasitəsilə törədilən zorakılıq növüdür. [2, 5, 6]. Kiberbullinqin anonimliyi və davamlılığı, qurbanın müdafiə mexanizmlərini zəiflədir və psixoloji təsirlərin daha dərin olmasına səbəb olur [6, 7].

Yeniyetmələr arasında ən çox rast gəlinən bullinq forması kiberbullinq sayılır. Nəzərə alsaq ki, müasir dövrdə 90-95% yeniyetmə internetdən istifadə edir. Və bu hal onlar arasında üzbəüz ünsiyyətdən online ünsiyyətə keçmək üçün sosial münasibətlərdə zərərli bir dinamika yaratmış olur.

Kiberbullinqin yayılma dərəcəsi isə qeyri-müəyyənlik təşkil edir.Bəzi tədqiqatçılar kiberbulling araşdırmalarını son bir ildə, bəziləri son 9 ayda, bəziləri isə son bir neçə ayda baş verən hallara əsasən keçiriblər. Bu tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kiberbullinq qurbanlarının sayı 4%-dən 72%-ə qədər dəyişir, orta hesabla isə yeniyetmələrin 20%-40%-i kiberbullinqin qurbanları olduğunu məlum olmuşdur. Kiberbullinq həyata keçirən şəxslərin sayı isə 3%-dən 36%-ə qədər dəyişir. Bu rəqəmlərdə böyük dəyişiklik olsa da kiberbullinqin yeniyetmələr arasında daha çox yayıldığı görülür

Bullinqin səbəbləri

Bullinqin yaranmasına təsir edən müxtəlif faktorlar vardır. Bullinqin əsas səbəbi sosial, iqtisadi, mədəni və ya fiziki güc balanssızlığıdır. Bu gücə malik olan şəxsin öz gücsüz hesab etdiyi başqalarına qarşı davamlı təhqiredici, zorakı və ya təzyiqedici davranışlarını ehtiva edir [5, 6]:

Şəxsi faktorlar – yeniyetmənin aqressivliyi, özünəinamsızlığı, sosial bacarıqların zəifliyi.

Sosial faktorlar – qrup təzyiqləri, dost münasibətlərində problemlər, ailədə münasibət çatışmazlıqları.

Mədəni faktorlar – mədəni stereotiplər, gender rol gözləntiləri, şiddətin normal hesab edilməsi.

Texnoloji faktorlar – internetin anonimliyi, sosial şəbəkələrin geniş yayılması, texnologiyadan istifadənin həddindən artıq olması.

Kiberbullinq üçün xüsusi səbəblər:

1. Konformizm – qrup təsiri altında davranışların dəyişməsi [3].
2. Əyləncə – başqalarına zərər verməkdən zövq almaq [5].
3. Üstünlüyə can atmaq – özünü təstiq etmək və başqalarından üstün olmaq [6].
4. Subyektiv əksiklik hissi – zəiflik və aşağılıq hissi [4].
5. Həsəd – başqalarının rifahına qarşı narazılıq [2].
6. Empatiyanın aşağı olması – başqalarının hisslərinə önəm verməmək [6].
7. Ailəvi münasibət problemləri [3].
8. İntiqam – zərərin əvəzini almaq istəyi [7].

Bullinqin psixoloji nəticələri və bullinqin qurbanlarda yaratdığı psixoloji təsirlər aşağıdakılardır [6, 7]:

- Qorxu və narahatlıq
- Özünəinamsızlıq və güvənsizlik
- İştaha və yuxu problemləri
- Depressiya və üzüntü
- Aqressiv davranış və əhval-ruhiyyədə dəyişkənlik
- İntihar fikirləri və sosial və emosional təcrid
- Dərs və iş performansında azalma

Ümumiyyətlə qurbanlar emosional, psixoloji və sosial baxımdan ən həssas qruplardır [6]. Təqibçilərdə deviant davranışlar, gələcəkdə narsizm, kin və sosial uyğunsuzluq müşahidə oluna bilər [4]. Şahidlər isə əsəbilik, özünəgüvənsizlik və emosional pozuntular yaşayırlar [5].

Müdafiə mexanizmləri və tövsiyələr

Yeniyetmələrdə bullinqə qarşı müdafiə mexanizmləri aşağıdakı kimi təsnif edilə bilər [1, 2, 3, 5]:

1. Emosional dəstək göstərməklə- valideyn, müəllim və psixoloqdan dəstək almaq.
2. Sosial bacarıqların inkişafı – empatiya, tolerantlıq, konflikt idarəetmə bacarıqları.
3. Onlayn təhlükəsizlik qaydaları – şəxsi məlumatların qorunması, sosial şəbəkələrdə davranış qaydaları.
4. Təhsil və maarifləndirmə – bullinqin nəticələri barədə yeniyetmələrin və valideynlərin məlumatlandırılması.
5. Psixoloji intervensiyalar – stress və depressiya əlamətlərini vaxtında müəyyən etmək və müdaxilə etmək.

## ƏDƏBİYYAT

1. Baranov, A. A., & Rozhina, S. V. (2015). Kiberbulling – Novaya forma ugrozy bezopasnosti lichnosti podrostka. Vestnik Baltiyskogo Federal'nogo Universiteta im. I. Kanta, 11, 62–66.
2. Baranov, A. A., & Rozhina, S. V. (2016). Koping-strategii podrostka v situatsii kiberbullinga. Seriya Filosofiya. Psikhologiya. Pedagogika, 26(2), 10.
3. Benqina, E. A., & Grishaeva, S. A. (2018). Kiberbulling kak novaya forma ugrozy psikhologicheskomu zdorov'yu lichnosti podrostka. Vestnik Universiteta, 2, 5.
4. Bocharov, A. A., & Khlomov, K. D. (2014). Kiberbulling: travlya v prostranstve sovremennykh tekhnologiy. Psikhologiya, Zhurnal Vysshey Shkoly Ekonomiki, 11(3), 177–191.
5. Rafsel Tas'adi, Mudjiran, Nurhizrah Gistituati, & Azwar Ananda. (2020). Cyberbullying in the Digital Age: A Common Social Phenomenon. Advances in Social Science, Education and Humanities Research, ICoIE, 5.
6. Nixon, C. L. (2014). Current perspectives: the impact of cyberbullying on adolescent health. Adolescent Health, Medicine and Therapeutics, 16.
7. Maurya, C., Muhammad, T., Dhillon, P., & Maurya, P. (2022). The effects of cyberbullying victimization on depression and suicidal ideation among adolescents and young adults: a three year cohort study from India. BMC Psychiatry, 14.
8. Shariff, S. (2008). Cyberbullying: issues and challenges for schools. Canadian Journal of Educational Administration and Policy, 1–37.
9. Beckman, et al. (2018). Cyberbullying and psychosomatic difficulties among adolescents.

# YENİYETMƏLƏRDƏ BULLİNQİN PSİXOLOJİ NƏTİCƏLƏRİ VƏ MÜDAFİƏ MEXANİZMLƏRİ

*Eyvazlı Aynur*

## XÜLASƏ

Yeniyetmələr arasında bullinq, xüsusilə kiberbullinq, onların psixoloji sağlamlığına ciddi və davamlı təsir göstərir. Qurbanlarda depressiya, stress, qorxu, özünəinamsızlıq və sosial təcrid kimi əlamətlər daha çox müşahidə olunur; həmçinin aqressiv davranışlar və emosional dəyişkənlik ortaya çıxa bilər. Təqibçilər (bullies) və şahidlər (bystanders) də prosesi emosional olaraq yaşayır və uzunmüddətli nəticələrə məruz qala bilirlər. Kiberbullinqin anonim və daim onlayn olması, qurbanın müdafiə imkanlarını azaldır və emosional gərginliyi artırır. Bu riskləri azaltmaq üçün müdafiə mexanizmlərinin inkişaf etdirilməsi, eləcə də valideynlərin, müəllimlərin və psixoloqların koordinasiyalı fəaliyyəti həyati əhəmiyyət daşıyır. Məqsəd, yeniyetmələrin həm real, həm də virtual mühitdə təhlükəsizliyini təmin etmək və psixoloji sağlamlıqlarını qorumaqdır.

# ПСИХОЛОГИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ БУЛЛИНГА У ПОДРОСТКОВ И МЕХАНИЗМЫ ЗАЩИТЫ

***Eyvazlı Aynur***

## АННОТАЦИЯ

Буллинг среди подростков, особенно кибербуллинг, оказывает серьёзное и продолжительное влияние на их психическое здоровье. У жертв чаще наблюдаются депрессия, стресс, страх, неуверенность в себе и социальная изоляция; также могут проявляться агрессивное поведение и эмоциональная нестабильность. Преследователи (булли) и свидетели (bystanders) также эмоционально вовлечены и могут столкнуться с долгосрочными последствиями. Анонимный и постоянный характер кибербуллинга снижает возможности защиты жертвы и увеличивает эмоциональное напряжение. Для снижения этих рисков важно развивать механизмы защиты, а также обеспечивать координированную работу родителей, учителей и психологов. Цель состоит в том, чтобы обеспечить безопасность подростков как в реальной, так и в виртуальной среде и защитить их психическое здоровье.

# PSYCHOLOGICAL CONSEQUENCES OF BULLYING IN ADOLESCENTS AND DEFENSE MECHANISMS

***Eyvazlı Aynur***

## SUMMARY

Bullying among adolescents, especially cyberbullying, has a significant and lasting impact on their mental health. Victims are more likely to experience depression, stress, fear, low self-esteem, and social isolation; aggression and emotional instability may also occur. Perpetrators (bullies) and bystanders are also emotionally involved and may face long-term consequences. The anonymous and constant nature of cyberbullying reduces the victim’s ability to defend themselves and increases emotional tension. To mitigate these risks, it is essential to develop defense mechanisms and ensure coordinated efforts by parents, teachers, and psychologists. The goal is to ensure the safety of adolescents in both real and virtual environments and to protect their mental health.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏRBİYƏ VƏ SOSİAL MÜHİTİN QARŞILIQLI ƏLAQƏSİ

***Əsgərova Nigar***
***ADPU-nun II kurs magistrantı***
***nigarrva855@gmail.com***

***Açar sözlər:*** Şəxsiyyət, tərbiyə, təhsil, sosiallaşma, ailə, məktəb, ünsiyyət, dəyərlər
***Ключевые слова:*** Личность, воспитание, образование, социализация, семья, школа, общение, ценности.
***Keywords:*** Personality, upbringing,education, socialization, family, school, communication, values.

Şəxsiyyətin formalaşması insan həyatının ən mürəkkəb və eyni zamanda ən incə psixoloji-pedaqoji proseslərindən biridir. Bu prosesin əsas mahiyyətini anlamaq üçün sadəcə fərdin daxili xüsusiyyətlərinə deyil, onun ətraf mühitinin, ailənin, məktəbin, qohumların, dostların, sosial institutların təsirinə də diqqət yetirmək zəruridir. Müasir dövrdə sosial dinamikanın sürətlənməsi, rəqəmsal informasiya axınının güclənməsi və cəmiyyətin dəyərlərindəki dəyişikliklər şəxsiyyətin formalaşmasını daha da çətin və çoxşaxəli bir hadisəyə çevirir. Bu səbəbdən tərbiyə və sosial mühitin qarşılıqlı əlaqəsini elmi şəkildə anlamaq, onların şəxsiyyətə təsir mexanizmlərini təhlil etmək böyük əhəmiyyət daşıyır.

Tərbiyə insanın həyatında şüurlu, məqsədyönlü, sistemli təsir kimi çıxış edir. Sosial mühit isə hər bir fərdin gündəlik yaşantısının daxilində formalaşan, davranışına bilavasitə və dolayı təsir göstərən geniş sosial sistemdir. Bu iki amil bir-birindən ayrılmazdır. Çünki, mühit tərbiyəni tamamlayır, tərbiyə isə mühitin təsirini yönləndirir. Onların harmoniyası insanın mənəvi, emosional, intellektual və sosial inkişafının sabitliyini təmin edir.

Şəxsiyyət insanın sosial varlıq kimi cəmiyyətdə qəbul edilən dəyərlərə uyğun davranma bacarığına, özünüifadə imkanlarına, dünyagörüşünə və sosial münasibətlər sisteminə malik olması deməkdir. Psixoloqlar şəxsiyyəti həm sabit xarakter xüsusiyyətləri kimi, həm də həyat boyu dəyişilən, inkişaf edən bir struktur sistemi kimi izah edirlər. Fərdin şəxsiyyət kimi formalaşması mərhələli şəkildə baş verir. Hər mərhələ özünəməxsus psixoloji xüsusiyyətlərə malikdir. Bu mərhələlərdə ailə münasibətləri, ünsiyyət, oyun, model davranış nümunələri,sosial rollar, kollektiv münasibətlər, dəyərlər sistemi özünəməxsus rol oynayır. Şəxsiyyətin inkişafı boyunca tərbiyə və sosial mühit bir-birini tamamlayır və fərdin psixoloji inkişaf trayektoriyasını müəyyən edir. Psixologiya tarixində bu məsələnin həllində şəxsiyyətin inkişafını sosiogenetik və biogenetik konsepsiyası adlanan iki mövqe izah edir. Biogenetik konsepsiya insan şəxsiyyətinin formalaşması, şəxsi fəallıqdan məhrum şəkildə, bioloji amillərin məhsulu kimi təqdim edilir. Sosiogenetik konsepsiyada isə şəxsiyyətin inkişafına, onun formalaşmasına ətraf sosial mühitin təsirlərinin nəticəsi kimi baxılır.

Tərbiyə insanın mənəvi dünyasının inkişafına istiqamətlənmiş sistemli və məqsədyönlü prosesdir. O, yalnız davranışı deyil, həm də dünya haqqında təsəvvürləri, dəyərləri, mənəviyyatı və emosional mədəniyyəti formalaşdırır. Pedaqogikanın əsas prinsiplərinə görə tərbiyə: məqsədyönlü olmalıdır, sistemli şəkildə həyata keçirilməlidir, uşağın yaş və psixoloji xüsusiyyətlərinə uyğun seçilməlidir. praktik davranışa təsir etməlidir. Tərbiyə yalnız verbal izahlarla məhdudlaşmır. Belə ki o uşağın davranışını formalaşdırmaq üçün nümunə, müsbət möhkəmləndirmə, tələblər, psixoloji dəstək, emosional ünsiyyət və kommunikativ mühit kimi amillər ilə inteqrasiya olunmuş formada özünü göstərir.

XXI əsr insan həyatının bütün sahələrində ciddi dəyişikliklər yaratdı: rəqəmsallaşma, informasiya bolluğu, sosial şəbəkələrin dominantlığı, ailə modelində modern çevrilmələr və

emosional-intellektual tələbatların yüksəlməsi buna nümunədir. Bu dəyişikliklərin fonunda tərbiyə məsələsi həm nəzəri, həm də praktiki baxımdan daha mürəkkəb və daha çoxşaxəli bir xarakter aldı. Əgər əvvəlki dövrlərdə tərbiyə daha çox ailə və məktəbin çərçivəsində formal normativlər əsasında həyata keçirilirdisə, müasir cəmiyyət uşağın şəxsiyyətini formalaşdıran çoxsaylı sosial, texnoloji və mədəni təsirlərin içərisindədir.

*Müasir tərbiyənin əsas məqsədi "ideal insan yetişdirmək" deyil, adaptiv, emosional baxımdan sağlam, sosial bacarıqlara malik, kritik düşünən və şəxsi potensialını reallaşdırmaq iqtidarında olan fərdlər formalaşdırmaqdır*. Bu fikirdən çıxış edərək qeyd etmək olar ki, tərbiyə yalnız davranışları "standartlaşdırmaq" funksiyasını daşımır. Əksinə, fərdin psixoloji rifahını təmin etmək, onun çevik uyğunlaşma qabiliyyətini gücləndirmək, qərarvermə bacarıqlarını inkişaf etdirmək və həyatın müxtəlif sahələrində məsuliyyətli seçim etməsinə dəstək olmaq kimi daha geniş məqsədləri əhatə edir.

Tərbiyə prosesinin məqsədi uşağa hazır cavablar vermək deyil, onun sual vermə, araşdırma, təhlil etmə və mövcud bilikləri yenidən qiymətləndirmə bacarıqlarını inkişaf etdirməkdir. Bu isə fərdin yalnız sosial adaptasiyasını deyil, həm də şəxsiyyət kimi öz potensialını reallaşdırmasını təmin edir. Beləliklə, tərbiyə konsepsiyası insanı müəyyən "ideal qəlibə" salmaqdan daha çox, müxtəlif həyat şəraitlərində özünü idarə edə bilən, sağlam münasibətlər qura bilən və cəmiyyətə müsbət töhfə verən çoxşaxəli şəxsiyyət yetişdirməyi qarşıya məqsəd qoyur. Bu yanaşma həm psixoloji rifahı, həm sosial çevikliyi, həm də fərdi inkişafı tərbiyənin əsas prioritetinə çevirir. Bəs tərbiyə və sosial mühit bir-birinə hansı yolla təsir edir?

İlk öncə mühit anlayışının izahına diqqət yetirək. "Mühit" anlayışı insanın həyatı boyunca qarşılaşdığı bütün sosial, psixoloji, fiziki və mədəni təsirləri özündə birləşdirən geniş məzmuna malik kateqoriyadır. O, insanın davranışına, dünyagörüşünə, dəyərlər sisteminə və psixoloji inkişafına birbaşa təsir göstərən amillər toplusudur. İnsan doğulduğu andan başlayaraq müxtəlif mühitlərlə qarşılaşır və bu mühitlər onun şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Mühit insanın inkişaf prosesinin ayrılmaz hissəsidir. Fərdin davranışı və şəxsiyyət xüsusiyyətləri yalnız bioloji amillərlə izah edilə bilməz, bu inkişaf mühitdən gələn təsirlərlə birgə formalaşır. Tədqiqatlar sübut edir ki:

•Uşaq ailədə aldığı münasibətə uyğun emosional model yaradır.

•Məktəb mühiti sosial bacarıqları formalaşdırır.

•Mədəni mühit dəyərlər sistemini müəyyənləşdirir

•Psixoloji mühit fərdin özünəinam və motivasiya səviyyəsini gücləndirir və ya zəiflədir.

Mühit adətən bir neçə istiqamət üzrə öyrənilir:

***1.Təbii mühit*** - insanın yaşadığı coğrafi şərait, iqlim, bitki örtüyü, su ehtiyatları və ümumilikdə ətraf aləmi əhatə edir. Təbii mühit insanın fizioloji inkişafına, sağlamlığına, həyat şəraitinə və fəaliyyət imkanlarına təsir edən baza mühit hesab olunur. İqlim dəyişiklikləri, hava keyfiyyəti və ekoloji durum insan davranışına və gündəlik fəaliyyətlərinə də bilavasitə təsir göstərir.

***2.Mədəni mühit*** - cəmiyyətin adət-ənənələri, mədəni dəyərləri, dil, incəsənət, davranış qaydaları və mədəni irs elementlərindən ibarətdir. Bu mühit insanın kimliyinin, mənsubiyyət hissinin və dəyərlər sisteminin formalaşmasında mühüm rol oynayır. Mədəni mühit fərdin davranışını yönləndirən gözləntilər və qəbul edilən normalar yaradır.

***3.Psixoloji mühit*** - insanın emosional vəziyyətinə təsir edən faktorları : stress səviyyəsini, ailə münasibətlərini, iş mühitini, sosial dəstəyi, psixoloji təhlükəsizliyi əhatə edir. Bu mühit insanın psixoloji inkişafı, özünüifadə imkanları və emosional rifahı üçün əhəmiyyətlidir.

***4.Sosial mühit*** - Yaşadığımız cəmiyyətin quruluşu, sosial münasibətlər, ailə, məktəb, dost çevrəsi, ictimai institutlar və sosial dəyərlərdən ibarətdir. Bu mühit insanın sosiallaşmasını təmin edir, ona sosial rollar, davranış normaları və ünsiyyət bacarıqları

qazandırır. Sosial mühit tərbiyənin əsas təməlidir və insan şəxsiyyətinin formalaşmasında ən güclü təsirə malik sahələrdən biri sayılır.

Ailə münasibətləri, valideyn davranışı, gündəlik ünsiyyət tərzi uşağın ilkin sosial təcrübəsini yaradır. Bu təcrübə daha sonra məktəb mühiti ilə zənginləşir. Məktəb yalnız akademik bilik verən qurum deyil, həm də sosiallaşma, sosial qaydaları öyrənmə, ünsiyyət bacarıqlarının formalaşdırıldığı mühüm sosial institutdur. Uşaq burada kollektivdə davranmağın, əməkdaşlıq etməyin və məsuliyyət daşımağın sosial modelini mənimsəyir.

Tərbiyə və sosial mühitin qarşılıqlı təsir mexanizmi şəxsiyyətin formalaşmasında xüsusi rol oynayır. Bu qarşılıqlı əlaqə bir neçə səviyyədə özünü göstərir:

***1.Normativ səviyyə*** - Sosial mühit mövcud dəyərlər, qaydalar və adətlər vasitəsilə tərbiyəyə istiqamət verir. Tərbiyə isə həmin normaları qəbul edir, dəyişir və ya yenidən formalaşdırır. Normativ səviyyə təkcə sosial mühitdən tərbiyəyə yönələn təsirlə məhdudlaşmır. Tərbiyə, eyni zamanda: mövcud normativ dəyərləri qoruyur,yeni nəslə ötürür. Bəzən isə cəmiyyətdəki dəyərlərin yenilənməsinə və dəyişməsinə səbəb olur. Məsələn, gender bərabərliyi, inklüzivlik və insan hüquqları kimi dəyərlərin dəyişməsi tərbiyə sistemində də yenilənmələr yaradır.

***2.Ünsiyyət səviyyəsi*** - İnsan sosial mühitlə ünsiyyətə girdikcə davranış modellərini mənimsəyir. Bu proses həm formal (məktəb, təlim), həm də qeyri-formal (ailə, dost çevrəsi) şəkildə davam edir. İnsan sosial ünsiyyət zamanı davranış nümunələrini müşahidə edir,sosial rolları təcrübədən keçirir, qəbul edilməyən davranışlara görə sosial reaksiya ilə qarşılaşır, tədricən öz sosial kimliyini formalaşdırır.

***3.Psixoloji səviyyə*** - Sosial dəstək, sosial gözləntilər, motivasiya və sosial rollar tərbiyənin nəticəsinə təsir edir. Fərd isə öz davranışı ilə həmin rolların dəyişməsinə səbəb ola bilir. Sosial mühitdən gələn dəstək (ailə, dostlar, müəllimlər) fərdin özünə inamının, təhlükəsizlik hissinin, emosional sabitliyinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Sosial dəstəyin yüksək olduğu mühitlərdə uşaqda daha sağlam psixoloji şəxsiyyət inkişaf edir.

Aparılan təhlil göstərir ki, tərbiyə insanın davranışını, dəyərlər sistemini və psixoloji rifahını formalaşdıran əsas təsir mexanizmlərindən biridir və sosial mühitlə daima qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Sosial mühit tərbiyəni istiqamətləndirən norma və dəyərlər yaradır, tərbiyə isə həmin dəyərlərin möhkəmlənməsinə, dəyişməsinə və yeni nəslə ötürülməsinə xidmət edir. Beləliklə, tərbiyə və sosial mühitin qarşılıqlı təsir mexanizmi şəxsiyyətin formalaşmasında əsas həlledici amillərdən biri kimi çıxış edir. Bu iki komponentin harmonik şəkildə qarşılıqlı fəaliyyəti fərdin mənəvi, emosional, intellektual və sosial inkişafını təmin edir və cəmiyyətin gələcək inkişafı üçün sağlam, sosial məsuliyyətli və balanslı şəxsiyyətlərin yetişdirilməsinə zəmin yaradır.

## ƏDƏBİYYAT

1. Ağayev.M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı : Azərb. Müəllimlər İns, 2011. - 178 s.
2. Bədəlova.Ə. Təlim-tərbiyə. Bakı : ADPU nəşriyyatı, - 2015. - 291 s.
3. Əlizadə.Ə. Pedaqoji psixologiya : I cild. - Bakı: ADPU, - 2010. - 319 s.
4. Əliyev P.B. Tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodikası. Dərs vəsaiti - Bakı: CN poligrafiya, - 2023. - 460 s.
5. Erikson,E.H. Childhood and Dociety. New York: W.W.Norton & Company. – 1950, - 440 pg.
6. Bandura.A. Social Learning Theory. Englewood Cliffs, NJ: Prentice-Hall - 1977,- 233 pg.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏRBİYƏ VƏ SOSİAL MÜHİTİN QARŞILIQLI ƏLAQƏSİ

***Əsgərova Nigar***

## XÜLASƏ

Bu məqalədə şəxsiyyətin formalaşmasında tərbiyənin rolu və sosial mühitin təsir mexanizmləri geniş şəkildə təhlil olunur. Araşdırma nəticələri göstərir ki, uşağın sosial-emosional inkişafına təsir edən əsas amillər ailənin münasibət sistemi, məktəb mühiti, ünsiyyət təcrübələri və cəmiyyətin mənəvi-mədəni normalarıdır. Ailədaxili qarşıdurmalar, qeyri-sabit tərbiyə üslubu, məktəbdəki sosial uyğunlaşma çətinlikləri və psixoloji gərginlik şəxsiyyətin formalaşma prosesində müxtəlif çətinliklər yarada bilir. Məqalədə vurğulanır ki, uşağın harmonik inkişafı üçün emosional dəstəyin göstərilməsi, müsbət davranış nümunələrinin yaradılması, demokratik və empatik tərbiyə yanaşmalarının tətbiqi mühüm əhəmiyyət daşıyır. Valideyn–müəllim əməkdaşlığının gücləndirilməsi, sosial bacarıqların inkişaf etdirilməsi və psixoloji maarifləndirmə proqramlarının həyata keçirilməsi uşaqlarda sağlam şəxsiyyət keyfiyyətlərinin formalaşmasına kömək edir.

# ВЗАИМОСВЯЗЬ ВОСПИТАНИЯ И СОЦИАЛЬНОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

***Аскерова Нигяр***

## АННОТАЦИЯ

В данной статье всесторонне анализируется роль воспитания и механизмы влияния социальной среды на формирование личности. Результаты исследования показывают, что основными факторами, воздействующими на социально-эмоциональное развитие ребёнка, являются система семейных отношений, школьная среда, коммуникативный опыт и нравственно-культурные нормы общества. Внутрисемейные конфликты, нестабильный стиль воспитания, трудности социальной адаптации в школе и психологическое напряжение могут создавать различные препятствия в процессе формирования личности. В статье подчёркивается, что для гармоничного развития ребёнка особую важность имеют эмоциональная поддержка, формирование позитивных моделей поведения, применение демократичных и эмпатичных подходов к воспитанию. Укрепление сотрудничества между родителями и учителями, развитие социальных навыков и реализация психологических просветительских программ способствуют формированию у детей здоровых личностных качеств.

# THE İNTERACTİON OF UPBRİNGİNG AND SOCİAL ENVİRONMENT İN PERSONALİTY FORMATİON

***Asgarova Nigar***


## SUMMARY

This article provides an extensive analysis of the role of upbringing and the influence mechanisms of the social environment in the formation of personality. Research findings indicate that the main factors affecting a child's social and emotional development include the family's relational system, the school environment, communication experiences, and the moral-cultural norms of society. Intra-family conflicts, inconsistent parenting styles, difficulties in social adjustment at school, and psychological tension can create various challenges in the process of personality formation. The article emphasizes that providing emotional support, creating positive behavioral models, and applying democratic and empathetic educational approaches are essential for the child's harmonious development. Strengthening parent–teacher cooperation, developing social skills, and implementing psychological awareness programs contribute to the formation of healthy personality traits in children.

# YALANIN ŞÜURALTINDA TƏZAHÜRÜ: NİYƏ YALAN DANIŞIRIQ

***Həsənova Nigar***
***BDU-nun II kurs magistrantı***
***nigar.hesenova20@mail.ru***

***Açar sözlər:*** Yalan, şüuraltı, psixoloji mexanizmlər, sosial adaptasiya, emosional tarazlıq, müdafiə instinkti.
***Ключевые слова:*** Ложь, подсознание, психологические механизмы, социальная адаптация, эмоциональное равновесие, защитный инстинкт.
***Keywords:*** Lying, subconscious, psychological mechanisms, social adaptation, emotional balance, protective instinct.

**Giriş.** Yalan insan davranışının ən qədim və mürəkkəb formalarından biridir. Tarixi mənbələrdən və müxtəlif mədəniyyətlərdən məlum olur ki, həqiqətin təhrif olunması yalnız fərdi deyil, həm də ictimai münasibətlərin ayrılmaz tərkib hissəsi olmuşdur. İnsanların yalan danışmasının səbəbləri və nəticələri psixologiya, fəlsəfə, sosiologiya və hətta hüquq elmlərinin tədqiqat obyektinə çevrilmişdir. Lakin müasir psixologiya bu məsələyə daha dərindən yanaşaraq, yalanın yalnız şüurlu seçim olmadığını, bəzən də şüuraltının diktə etdiyi davranış forması olduğunu göstərir. Yalan danışmaq, bir tərəfdən, sosial münasibətlərin qorunmasına, müəyyən hallarda isə şəxsi mənfəətin təmin edilməsinə xidmət edir. Digər tərəfdən isə, bu davranış daxili ziddiyyətlər, psixoloji gərginlik və etimadın itirilməsi ilə nəticələnə bilər. Burada əsas məqam ondan ibarətdir ki, insan bəzən yalan danışarkən bunu qəsdən etmir; əksinə, şüuraltı mexanizmlər, öyrənilmiş davranış modelləri və müdafiə instinktləri onu bu istiqamətə yönəldir. Psixoloji baxımdan yalanın kökləri uşaqlıqdan başlayır. Uşaqlar valideynlərini və ətraf mühitdəki digər insanları müşahidə edərək, həqiqəti gizlətməyi və ya dəyişdirməyi öyrənirlər. Bu davranış sonradan şüuraltında sabitləşir və yetkinlik dövründə fərdin sosial adaptasiya mexanizmlərinin bir hissəsinə çevrilir. Şüuraltı insanın qorunma ehtiyacını, cəza və utancdan qaçmaq istəyini, sosial imic yaratmaq tələbatını gücləndirərək yalanı avtomatik müdafiə vasitəsinə çevirir.

Mövzunun aktuallığı ondan ibarətdir ki, müasir cəmiyyətlərdə yalanın müxtəlif formaları – sosial mediada özünü təqdim etmədən tutmuş gündəlik ünsiyyətdəki kiçik “ağ yalanlar”a qədər – insanların qarşılıqlı münasibətlərində mühüm rol oynayır. Bu isə yalanın mahiyyətinin, psixoloji köklərinin və şüuraltı təzahürlərinin araşdırılmasını zəruri edir. Yalanın şüuraltında təzahürünü izah edərkən, ilk növbədə onun psixoloji mexanizmlərinə diqqət yetirmək vacibdir. Psixoloqların araşdırmalarına görə, yalan danışmaq insan beynində yalnız şüurlu qərar deyil, həm də emosional vəziyyətin, stressin və qorxu hissinin yaratdığı avtomatik reaksiya ola bilər. Bu reaksiya çox vaxt fərdin sosial münasibətlərdə özünü müdafiə etməsinə, mənfi nəticələrdən yayınmasına xidmət edir.

Freydin psixoanalitik nəzəriyyəsində şüuraltı mexanizmlərdən biri olaraq “müdafiə mexanizmləri” xüsusi yer tutur. İnsan bəzən günahkarlıq və ya cəza qorxusundan qaçmaq üçün həqiqəti dəyişdirir. Bu zaman yalan, fərdin psixoloji sabitliyini qorumağa xidmət edir. Məsələn, uşaq pis qiymət aldıqda bunu valideynlərindən gizlətməsi onun şüuraltı qorunma ehtiyacının nəticəsidir.

Yalanın digər mühüm funksiyası sosial münasibətlərin tənzimlənməsi ilə bağlıdır. İnsanlar bəzən münasibətləri qorumaq, qarşı tərəfi incitməmək və ya daha yaxşı sosial imic formalaşdırmaq məqsədilə “ağ yalanlara” müraciət edirlər. Bu davranışın şüuraltı təməli isə uşaqlıqdan öyrənilmiş ünsiyyət qaydaları və mədəni dəyərlərlə əlaqədardır.

Yalan danışmaq bəzən fərdin emosional vəziyyətini qorumağa da yönəlir. Araşdırmalar göstərir ki, insan həqiqəti gizlətməklə həm özünü narahatlıqdan qoruyur, həm də

digərlərinin mənfi reaksiyasından yayınır. Bu, xüsusilə güclü stress, qorxu və ya sosial təzyiq altında daha aydın müşahidə olunur.

Şüuraltı davranışların əsas xüsusiyyəti onların avtomatikliyidir. İnsan bəzən yalan danışdığının fərqinə varmadan bunu edir. Belə hallarda yalan artıq şüuraltı vərdişə çevrilmiş olur. Bu isə fərdin davranışında psixoloji uyğunlaşma ilə yanaşı, daxili ziddiyyətlərin də yaranmasına səbəb olur. Çünki insan bir tərəfdən özünü müdafiə edir, digər tərəfdən isə vicdan narahatlığı yaşayır.

Nevropsixoloji tədqiqatlar göstərir ki, yalan danışarkən beynin ön payları, xüsusilə də prefrontal korteks aktivləşir. Bu hissə qərar qəbuletmə, planlaşdırma və risklərin qiymətləndirilməsindən cavabdehdir. Bu da sübut edir ki, yalan danışmaq yalnız sosial davranış deyil, həm də mürəkkəb idrak prosesidir.

Yalanın şüuraltında təzahürü çoxqatlı psixoloji proseslərin nəticəsi kimi meydana çıxır. İnsan davranışında yalanın meydana gəlməsini yalnız şüurlu seçim kimi qiymətləndirmək düzgün olmazdı, çünki bir çox hallarda bu, fərdin şüuraltında formalaşmış müdafiə mexanizmlərinin təzahürüdür. Belə ki, insan qarşısına çıxan sosial və ya şəxsi təhlükə hissini azaldaraq özünü psixoloji cəhətdən qorumağa çalışır. Bu qorunma instinkti, xüsusilə uşaqlıq dövründə öyrənilən davranış modelləri ilə möhkəmlənərək, yetkinlikdə avtomatik reaksiya formasına çevrilir.

Yalanın ən mühüm funksiyalarından biri onun müdafiə vasitəsi rolunu oynamasıdır. İnsan cəza qorxusundan, mənfi nəticələrdən yayınmaq və ya sosial imicini qorumaq üçün həqiqəti təhrif edə bilər. Bu zaman yalan, fərdin daxili emosional tarazlığını qorumağa xidmət edir. Araşdırmalar göstərir ki, şüuraltı bu hallarda insanın verdiyi qərarları idarə edir və o, çox vaxt fərqində olmadan həqiqəti dəyişdirir. Bu, xüsusilə qorxu, stress və sosial təzyiq altında daha qabarıq görünür. Yalan danışmağın digər tərəfi sosial adaptasiya ilə bağlıdır. İnsanlar münasibətləri qorumaq, qarşı tərəfi incitməmək və ya ictimai qınaqdan yayınmaq məqsədilə “ağ yalanlara” müraciət edirlər. Belə davranışın şüuraltı təməli mədəniyyət və cəmiyyətin qəbul etdiyi davranış normaları ilə bağlıdır. Əslində, fərd bu yolla həm sosial mühitdə öz yerini qoruyur, həm də özünə qarşı yönələn potensial riskləri azaldır. Yalan danışma anında beynin fəaliyyətinə nəzər yetirildikdə, prefrontal korteksin – qərar qəbuletmə, planlaşdırma və risk qiymətləndirməsindən cavabdeh sahənin – aktivləşdiyi müşahidə olunur. Bu da göstərir ki, yalan sadə və təsadüfi davranış deyil, mürəkkəb idrak və emosional proseslərin sintezindən ibarətdir. Şüuraltı bu prosesdə mühüm rol oynayaraq, fərdin verdiyi qərarları emosional yük və qorunma ehtiyacları ilə uzlaşdırır. Beləliklə, yalan şüuraltında həm fərdin psixoloji sabitliyini qoruyan müdafiə vasitəsi, həm də sosial münasibətləri tənzimləyən uyğunlaşma mexanizmi kimi fəaliyyət göstərir. Lakin eyni zamanda bu davranış insanın daxili aləmində ziddiyyətlər yaradır, çünki həqiqətin təhrif olunması vicdan narahatlığı və etimadın sarsılması ilə müşayiət olunur.

Yalanın şüuraltında təzahürünü dərk etmək üçün həm fərdi, həm də sosial müstəvidə onun təsirlərinə nəzər salmaq lazımdır. Fərdi müstəvidə yalan insanın daxili psixoloji sabitliyini qorumaq məqsədi daşıyır. İnsan bəzən öz zəifliklərini gizlətmək, güclü görünmək və ya mənfi emosional vəziyyətdən yayınmaq üçün həqiqəti təhrif edir. Bu halda yalan, psixikanın özünüqoruma instinkti ilə bağlıdır və şüuraltı bunu avtomatik olaraq müdafiə mexanizmi kimi işə salır. Sosial müstəvidə isə yalan adaptasiya funksiyası daşıyır. Cəmiyyət içində insanlar müəyyən sosial rollar ifa edir və bu rolların gözləntilərinə uyğun davranmaq üçün bəzən həqiqəti dəyişməyə məcbur olurlar. Məsələn, iş mühitində əməkdaşların rəhbərlərinə həqiqətin yumşaldılmış formasını təqdim etməsi və ya gündəlik həyatda “ağ yalanların” işlədilməsi münasibətlərin sabitliyini qorumağa xidmət edir. Bu zaman fərd özünə qarşı yaranacaq qınaqdan və ya sosial təzyiqdən yayınaraq balansı qoruyur.

Yalanın psixoloji yükü isə ikili xarakter daşıyır. Bir tərəfdən, o, insanı daxili gərginlikdən qoruya bilər, digər tərəfdən isə uzunmüddətli perspektivdə güclü daxili ziddiyyətlərə səbəb ola bilər. Çünki şüuraltında formalaşmış vərdişlər insanın vicdan hissi ilə toqquşduqda psixoloji gərginlik yaranır. Bu gərginlik etimadın itirilməsinə, sosial münasibətlərin zəifləməsinə və fərdin özünəinamında sarsıntılara gətirib çıxarır. Yalanın beynin idrak prosesləri ilə bağlılığı da diqqət çəkir. Araşdırmalar göstərir ki, yalan danışmaq üçün insan həqiqəti xatırlamalı, onu dəyişdirməli, alternativ versiya yaratmalı və bu versiyanı təqdim edərkən emosiyalarını idarə etməlidir. Bu proseslər kompleks idrak fəaliyyətini tələb edir və şüuraltının köməyi ilə daha avtomatik hala gətirilir. Beləliklə, yalan danışmaq təkcə etik problem deyil, həm də insan beyninin mürəkkəb fəaliyyətinin göstəricisidir.

**Təhlil.** Yalanın şüuraltında təzahürü təkcə fərdi davranış səviyyəsində deyil, həm də kollektiv münasibətlərdə mühüm rol oynayır. İnsanların gündəlik həyatında işlədilən yalanlar bəzən zərərsiz görünsə də, onların altında dərin psixoloji səbəblər dayanır. Bu səbəblərdən biri də insanın **özünüideallaşdırma ehtiyacı**dır. Şüuraltı səviyyədə fərd özünü daha uğurlu, hörmətli və ya güclü göstərməyə çalışır. Bu isə sosial müqayisə prosesləri ilə əlaqəlidir, çünki insan daim özünü başqaları ilə müqayisə edir və zəif görünmək istəmir.

Digər mühüm aspekt yalanın **emosional idarəetmə** vasitəsi kimi çıxış etməsidir. Çox zaman insanlar qarşı tərəfin hisslərini incitməmək və ya münasibətləri zədələməmək üçün "ağ yalanlara" müraciət edirlər. Şüuraltı bu davranışı münasibətlərin sabitliyini qorumaq üçün faydalı hesab edir. Beləliklə, yalan bəzən sosial harmoniyanı qoruyan alət kimi də qiymətləndirilə bilər. Lakin uzunmüddətli perspektivdə bu harmoniyanın süni şəkildə saxlanılması etimadın zəifləməsinə səbəb ola bilər.

Yalan danışma aktının beyin mexanizmləri ilə bağlı aparılan neyropsixoloji tədqiqatlar göstərir ki, yalan söyləmək sadəcə söz seçimi deyil, eyni zamanda **planlaşdırma, yaddaş və emosiyaların tənzimlənməsi** kimi mürəkkəb idrak proseslərini işə salır. Bu da onu sübut edir ki, yalan danışmaq insanın kognitiv imkanlarından yüksək dərəcədə istifadəni tələb edir. Şüuraltı isə bu prosesi asanlaşdıraraq onu müəyyən hallarda vərdişə çevirir.

Analitik yanaşma ilə baxdıqda, yalan həm **müsbət, həm də mənfi funksiyalara** malikdir. Bir tərəfdən, o, fərdi qorumaq, sosial münasibətləri sabit saxlamaq və emosional tarazlığı təmin etmək üçün istifadə olunur. Digər tərəfdən, həqiqətin təhrif olunması daxili psixoloji ziddiyyətlər, vicdan narahatlığı və etimad böhranı yaradır. Bu ikili xarakter yalanı insan davranışında ən ziddiyyətli fenomenlərdən birinə çevirir.

Beləliklə, yalanın şüuraltında təzahürü insan psixikasının mürəkkəbliyini, davranışların isə təkcə şüurlu qərarlarla deyil, həm də dərin psixoloji mexanizmlərlə formalaşdığını göstərir. Bu səbəbdən yalanın təhlili həm fərdi psixologiya, həm də sosial münasibətlər sisteminin öyrənilməsi üçün vacibdir.

Yalanın şüuraltında təzahürünün daha dərindən analizi göstərir ki, bu fenomenin kökləri insanın bioloji və sosial inkişaf mexanizmlərindədir. Bioloji baxımdan yalan, həyatda qalmaq və təhlükələrdən yayınmaq üçün formalaşmış instinktiv davranış formasıdır. Tarixən insanlar özlərini qorumaq və üstünlük qazanmaq məqsədilə həqiqəti gizlətmiş, bu davranış isə tədricən şüuraltında möhkəmlənmişdir. Beləliklə, yalan yalnız sosial mühitin məhsulu deyil, həm də insan beyninin təkamül prosesi nəticəsində yaranmış müdafiə mexanizmlərindən biridir. Sosial kontekstdə isə yalan daha mürəkkəb xarakter daşıyır. İnsan fərqli sosial qruplarda – ailədə, işdə, dost çevrəsində – müxtəlif rollar ifa edir. Hər bir rol müəyyən gözləntilər və qaydalarla müşayiət olunduğu üçün fərd bu gözləntilərə uyğunlaşmaq üçün bəzən həqiqəti dəyişdirməyə məcbur qalır. Burada şüuraltı xüsusi rol oynayır: o, fərdi təzyiqdən, utancdan və ya rədd edilmə qorxusundan qorumaq üçün yalanı aktivləşdirir.

Eyni zamanda, yalanın şüuraltı təzahürü **kognitiv dissonans** anlayışı ilə də əlaqəlidir. İnsan davranışları və inancları arasında uyğunsuzluq yarandıqda, şüuraltı bu ziddiyyəti

azaltmaq üçün yalanı "uyğunlaşdırıcı mexanizm" kimi işə salır. Məsələn, bir şəxs özünü dürüst hesab etdiyi halda müəyyən situasiyada yalan danışırsa, şüuraltı bu davranışı rasional izahlarla əsaslandıraraq daxili gərginliyi azaldır. Bu proses isə həm fərdin vicdan hissini yumşaldır, həm də sosial münasibətləri qorumağa xidmət edir. Bununla yanaşı, yalanın davamlı olaraq işlədilməsi şüuraltında mənfi təsirlər də yaradır. Uzunmüddətli perspektivdə fərd öz davranışlarını idarə etməkdə çətinlik çəkə, real və saxta informasiyanı ayırd etməkdə daxili qarışıqlıq yaşayır. Bu isə psixoloji gərginliyin artmasına, özünəinamın azalmasına və sosial münasibətlərdə etimad böhranına səbəb ola bilər.

Analitik yanaşma nəticəsində aydın olur ki, yalanın şüuraltında təzahürü həm fərdin müdafiəsinə, həm də sosial uyğunlaşmaya xidmət edən funksional bir mexanizmdir. Lakin bu mexanizmin həddindən artıq istifadəsi psixoloji sabitliyi poza, sosial münasibətlərdə etimadın dağılmasına gətirib çıxara bilər. Ona görə də yalan fenomeninə yanaşarkən onun yalnız neqativ tərəfləri deyil, eyni zamanda insan psixikasında oynadığı qoruyucu və adaptiv rol da nəzərə alınmalıdır. Yalanın şüuraltında təzahürünün analizi göstərir ki, bu fenomen həm fərdi, həm də ictimai həyatın müxtəlif qatlarında özünü göstərir və müxtəlif funksiyalara malikdir. Bir tərəfdən, o, fərdi psixoloji təhlükələrdən qoruyan müdafiə vasitəsidir, digər tərəfdən isə sosial münasibətlərin sabitliyini təmin etmək üçün işlədilən uyğunlaşma alətidir. Bu ikili xarakter yalanı həm zəruri, həm də təhlükəli edən əsas səbəblərdən biridir.

İlk növbədə, yalanın qoruyucu funksiyasını nəzərdən keçirmək vacibdir. İnsan qarşılaşdığı təhlükə, cəza və ya utanc hissindən yayınmaq üçün həqiqəti gizlətməyə meyil göstərir. Bu davranış fərdin daxili psixoloji tarazlığını qorumaqla yanaşı, onun sosial mühitdə mövqeyini saxlamağa da xidmət edir. Beləliklə, şüuraltı bu məqamda yalanı bir növ "emosional qalxan" kimi işə salır. Digər mühüm aspekt yalanın sosial münasibətlərdə oynadığı roldur. İnsan bəzən qarşı tərəfin emosiyalarını nəzərə alaraq, həqiqəti dəyişdirməklə münasibətləri qorumağa çalışır. Bu, xüsusilə "ağ yalanlar" adlanan hallarda müşahidə olunur. Məsələn, bir şəxsin hisslərini incitməmək üçün həqiqətin daha yumşaldılmış formada ifadə olunması sosial adaptasiyanın nümunəsidir. Şüuraltı burada fərdin ictimai qınaqdan və konflikt vəziyyətindən yayınmasına xidmət edir. Yalan fenomeninin daha bir mühüm tərəfi onun insanın idrak fəaliyyətinə təsiridir. Həqiqəti gizlətmək üçün insan yalnız alternativ məlumat təqdim etmir, eyni zamanda yaddaşını idarə edir, emosiyalarını tənzimləyir və strategiya qurur. Bu isə yalanın mürəkkəb kognitiv fəaliyyət tələb etdiyini göstərir. Şüuraltı isə bu prosesi daha avtomatik hala gətirərək fərdi qərar qəbuletmədə dəstəkləyir. Lakin yalanın davamlı şəkildə işlədilməsi mənfi nəticələr doğura bilər. Şüuraltında yalanın normaya çevrilməsi daxili psixoloji ziddiyyətlərə səbəb olur, çünki insanın vicdanı ilə davranışları arasında uçurum yaranır. Uzunmüddətli perspektivdə bu, həm fərdin özünəinamını zəiflədir, həm də sosial münasibətlərdə etimad böhranı yaradır. Əgər yalan şüuraltında davranış modelinə çevrilərsə, fərdin gerçəkliyi düzgün qavrama qabiliyyəti də təhrif oluna bilər.

**Nəticə.** Yalan fenomeninin şüuraltında təzahürünü araşdırmaq göstərir ki, bu davranış sadəcə etik pozuntu və ya sosial norma ilə bağlı deyil, insanın psixikasında dərin köklərə malik olan çoxqatlı bir mexanizmdir. Yalan, bir tərəfdən fərdin özünü qoruma instinktinin təzahürü kimi çıxış edir. İnsan cəza qorxusundan, utancdan və ya sosial qınaqdan yayınmaq üçün həqiqəti təhrif edə bilər. Bu zaman şüuraltı yalanı bir növ emosional qalxan kimi işə salır və fərdin daxili sabitliyini qorumağa çalışır. Digər tərəfdən isə yalan sosial münasibətlərin tənzimlənməsinə xidmət edir. İnsanlar qarşı tərəfi incitməmək, münasibətləri qorumaq və ya daha müsbət sosial imic formalaşdırmaq məqsədilə çox vaxt "ağ yalanlar"a müraciət edirlər. Bu davranış sosial adaptasiya mexanizmi olaraq şüuraltında sabitləşir və gündəlik ünsiyyətin ayrılmaz hissəsinə çevrilir.

Ona görə də şəxsiyyəti pozulmuş qadın məhkumların reabilitasiyası penitensiar sistemdən xüsusi diqqət və xüsusi psixoloji proqramların həyata keçirilməsini tələb edir. Bu, həbsxanalardakı münaqişələri azaltmaqla yanaşı, azadlığa çıxdıqdan sonra cəmiyyətə səmərəli reinteqrasiya üçün şərait yaradacaq.

Şəxsiyyət pozuntusu olan qadınlar digərlərinə nisbətən daha çox nümayiş etdirirlər [2, səh.12]:

• kəskin emosional böhranlar və psixopatik reaksiyalar;

• aqressiv və ya özünə aqressiv davranış;

• həbsxana rejiminin pozulması və intizam pozuntuları;

• psevdo-adaptiv strategiyaların inkişafı - həbsxana iyerarxiyasına daxil edilməsi, həqiqi sosiallaşma əvəzinə cinayət normalarının qəbul edilməsi;

• intihar və özünə zərər vermə riskinin artması.

Uzunmüddətli nəticələrə xroniki adaptasiya, şəxsiyyət pozuntularının pisləşməsi və azad edildikdən sonra uğurlu sosiallaşma imkanlarının azalması daxildir.

Şəxsiyyət pozuntusu olan qadınlarda dezadaptiv simptomları azaltmaq üçün bir sıra tədbirlər lazımdır:

• Şəxsiyyət pozuntularını və uyğunlaşma riskini müəyyən etmək üçün qəbul zamanı psixoloji qiymətləndirmə.

• Fərdi psixoterapiya (sərhəd şəxsiyyət pozuntusu olan şəxslər üçün koqnitiv-davranışçı və dialektik terapiya).

• Emosiyaların idarə edilməsi və ünsiyyət bacarıqlarının inkişafı üzrə qrup təlimi.

• Psixotərbiyə və özünütənzimləmə bacarıqlarının inkişafı.

• İntihar davranışının sistemli qarşısının alınması.

Kompleks psixokorreksiya işi münaqişəni azaltmağa, adaptasiyanı asanlaşdırmağa və cəza çəkdikdən sonra uğurlu sosiallaşma şansını artırmağa kömək edir.

Beləliklə, qadın məhkumların həbsxanaya adaptasiyası təcrid stressi, tanış sosial rolların pozulması və həbsxana mühitinin travmatik təsiri ilə mürəkkəbləşən son dərəcə mürəkkəb prosesdir. Şəxsiyyət pozuntularının olması adaptasiya çətinliklərini xeyli artırır: qadınlarda emosional qeyri-sabitlik, münaqişə, aqressivlik və özünü məhv edən davranışa meyl var.

Şəxsiyyət pozuntuları qadınların həbsxanaya adaptasiyasında əsas rol oynayır. Emosional qeyri-sabitlik, şəxsiyyətlərarası çətinliklər və koqnitiv təhriflər stresli həbsxana mühiti ilə daha da ağırlaşan kompleks problemlər toplusunu təşkil edir. Nəticədə uyğunlaşma patoloji xarakter alır, deviant davranış formalarını gücləndirir və yenidən sosiallaşmaya mane olur.

Bu çətinlikləri uğurla aradan qaldırmaq üçün diaqnostika, psixoterapiya və destruktiv davranışın qarşısının alınması daxil olmaqla, hərtərəfli psixoloji dəstək lazımdır. Yalnız bu halda şəxsiyyət pozuntusundan əziyyət çəkən qadınların konstruktiv adaptasiyası və sonradan sosial reinteqrasiyası mümkün hesab edilə bilər.

## ƏDƏBİYYAT

1. Григорьев, В. П. Криминальная психология и женская адаптация. – СПб.: Питер, 2016. – 140 с.
2. Иванов, А. В. Психология адаптации осуждённых женщин. – М.: Психологический центр, 2018. – 120 с.
3. Кузнецова, Т. В. Личностные расстройства и тюремная среда. – М.: Психология и общество, 2020. – 88 с.
4. Петрова, Н. С. Социально-психологическая адаптация в условиях лишения свободы. – СПб.: Наука, 2017. – 135 с.
5. Романов, С. А. Психологические особенности женщин в пенитенциарной системе. – М.: Изд-во МГУ, 2015. – 110 с.
6. Сидорова, Е. Ю. Пенитенциарная психология: теория и практика. – М.: Юристъ, 2019. – 102 с.

# ŞƏXSİYYƏT POZUNTUSU OLAN QADIN MƏHKUMLARIN CƏZAÇƏKMƏ ŞƏRAİTİNƏ ADAPTASİYASINA TƏSİR EDƏN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Ağazadə Nəzrin***

## XÜLASƏ

Məqalədə azadlıqdan məhrum edilmiş qadın məhkumların şəxsiyyət pozuntuları ilə bağlı adaptasiya prosesinin psixoloji xüsusiyyətləri nəzərdən keçirilir. Emosional qeyri-sabitliyin, qarşılıqlı münasibət problemlərinin, kognitiv təhriflərin və həbs mühitinin adaptasiya prosesinə təsiri təhlil olunur. Dərindən disadapativ və psevdoadaptiv strategiyaların, aqressiya və avtoaqressiya əlamətlərinin, eləcə də sui-qəsd riski artıran faktorların formalaşması diqqət mərkəzindədir. Risk faktorları arasında analıq rolunun itkisi, travmatik təcrübə, asılılıq keçmişi və həbs subkulturasının təsiri xüsusi vurğulanır. Məqalədə psixodiagnostika, fərdi və qrup psixokorreksiyası, destruktiv davranışın profilaktikası metodları təqdim olunur və qadın məhkumların adaptasiyasının effektivliyinin artırılması və sonrakı resosializasiyasının təmin olunması məqsədilə tövsiyələr verilir.

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЛИЯЮЩИЕ НА АДАПТАЦИЮ ЖЕНЩИН-ЗАКЛЮЧЕННЫХ С РАССТРОЙСТВАМИ ЛИЧНОСТИ К УСЛОВИЯМ ОТБЫВАНИЯ НАКАЗАНИЯ

***Агазада Назрин***

## АННОТАЦИЯ

В статье рассматриваются психологические особенности адаптации женщин-осуждённых с личностными расстройствами в условиях лишения свободы. Анализируются влияние эмоциональной нестабильности, межличностных трудностей, когнитивных искажений и факторов тюремной среды на процесс адаптации. Особое внимание уделяется формированию дезадаптивных и псевдоадаптивных стратегий, проявлениям агрессии, аутоагрессии и повышенному риску суицидального поведения. Представлены основные факторы риска, включая материнскую депривацию, травматический опыт, аддиктивное прошлое и влияние тюремной субкультуры. Рассматриваются методы психодиагностики, индивидуальной и групповой психокоррекции, а также профилактики деструктивного поведения с целью повышения эффективности адаптации и последующей ресоциализации женщин-осуждённых.

# PSYCHOLOGICAL CHARACTERISTICS AFFECTING THE ADAPTATION OF FEMALE PRISONERS WITH PERSONALITY DISORDERS TO THE CONDITIONS OF SERVING THEIR SENTENCE

***Agazada Nazrin***

**SUMMARY**

The article examines the psychological features of adaptation of female inmates with personality disorders in conditions of imprisonment. It analyzes the impact of emotional instability, interpersonal difficulties, cognitive distortions, and prison environment factors on the adaptation process. Special attention is given to the formation of maladaptive and pseudo-adaptive strategies, manifestations of aggression, self-harm, and the increased risk of suicidal behavior. Key risk factors, including maternal deprivation, traumatic experiences, addictive history, and the influence of prison subculture, are highlighted. The article also discusses methods of psychological assessment, individual and group psychocorrection, and prevention of destructive behavior to enhance adaptation effectiveness and support the subsequent resocialization of female inmates.

# AQRESSİV DAVRANIŞIN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

***Əliyeva Rübabə Namik qızı***
***OYU-nun II kurs magistrantı***
***liyeva1999@mail.ru***

***Açar sözlər:*** Ətraf mühit təsiri, qıcıqlandırıcı amillər, duyğu və davranış əlaqəsi, aqressiyanın genetik əsasları, psixopatologiya və aqressiya
***Ключевые слова:*** Влияние окружающей среды, раздражители, связь между эмоциями и поведением, генетические основы агрессии, психопатология и агрессия
***Keywords:*** Environmental influences, irritants, the relationship between emotion and behavior, genetic bases of aggression, psychopathology and aggression

İnsan aqressivliyi elmi ardıcıl paradiqmanın tələb olunduğu mərhələyə çatmışdır. İdrak neyron assosiasiyası, sosial təhsil, sosial ünsiyyət, povest və həyəcan qəbul etmə hipotezləri zorakılığın əsas sahə ilə məhdudlaşmış izahlarından bəziləridir. Bu təhlil, zorakılığa təsir edən sosial və şəxsi amillərin zehni proseslər, təsir və həyəcanla vasitəçilik etdiyini irəli sürmək üçün ümumi zorakılıq nəzəriyyəsindən (həmçinin GAM kimi tanınır) istifadə edir. Bundan əlavə, araşdırma zorakı meyllərin yaranması və sabitliyi ilə bağlı mövcud hipotezləri təşkil edir. İnsanın xarakteri, ictimai vəziyyətləri təhlil etmək və hərəkətlərini istiqamətləndirmək üçün istifadə etdikləri sabit öyrənmə konstruksiyalarının toplusu kimi düşünülür [1,səh.29].

Mühüm bir tədqiqat sahəsi genetik və nevroloji dəyişənlərin zorakı temperamentin inkişafına necə töhfə verməsidir. Bioloji meyl çox ətraflı araşdırılmışdır, çünki bəzi insanlar genetik olaraq zorakılığa meylli ola bilərlər. Metabolik ritmlər və neyronlar da aqressivliyin idarə olunmasında vacibdir. Məsələn, yüksək reaktiv və zorakı reaksiyalar zəif serotonin miqdarı və ya dopamin problemləri səbəbindən yarana bilər. Zorakı davranışın ölçüsü bioloji parametrlərlə, xüsusən də yüksək testosteron dəyərləri ilə əlaqələndirilmişdir. Bundan əlavə, emosional reaksiyaların təhlili və aqressiv meyllərin idarə olunması prefrontal beyin qabığı, hipotalamus və amigdala kimi müəyyən beyin bölgələrindən çox asılıdır.

Psixologiya baxışı zorakı davranışa səbəb olan unikal fizioloji və davranış elementlərinə diqqət yetirir. Qəzəb əsasən şəxsiyyət üslubları, impuls nəzarəti və hormonal reaksiya kimi fərdi fizioloji xüsusiyyətlərlə müəyyən edilir. Məsələn, yüksək impulsiv olanlar nəticələri barədə düşünmədən hərəkət edə bilərlər ki, bu da tez-tez düşmən reaksiyalara səbəb olur. Bununla yanaşı, yüksək psixoloji həssaslığa malik insanlar kiçik stimullara qarşı sərt davranırlar. Zorakılığa formalaşdırıcı hadisələr və emosional sağlamlıq da böyük təsir göstərir. Kiçik uşaqların zorakılıqla təması, etinasızlıq və ya qeyri-müntəzəm qayğı yetkinlərə qədər davam edən sağlam olmayan sağ qalma strategiyalarına səbəb ola bilər. Aqressiv davranışlar tez-tez sabit əlaqələr və faydalı qayğı kimi əla erkən vəziyyətlərlə qarşısı alınır.

Dağıdıcı davranış narahatlıq və psixoloji nəzarət sistemləri ilə güclü şəkildə əlaqələndirilir. Fərdlərin aqressivliyini düzgün tənzimləmək qabiliyyəti uzunmüddətli stress səbəbindən azala bilər. Təsəvvür edilən təhlükələrə və ya qıcıqlanmalara qarşı dramatik reaksiyalar affektiv turbulentlikdən yarana bilər. Zərərli davranışlar, balanslı fəaliyyətlərin təhlükəli kimi qəbul edilməsinə səbəb olan dostcasına olmayan bağlılıq mühakiməsi də daxil olmaqla davranış təhrifləri səbəbindən daha çox ehtimal olunur. Bundan əlavə, psixiatrik tədqiqatlar nəzarətli davranışın, yaradıcı düşüncə qabiliyyətlərinin və qazanılmış rahatlıq mexanizmlərinin aqressivliyi necə azalda biləcəyini vurğulayır. Ümumiyyətlə, psixologiya modeli zorakılığın yalnız ətraf mühit stressorlarının nəticəsi olmaqdansa, daxili

hisslər, düşüncə və nevroloji amillərlə sıx bağlı olduğunu vurğulayır. Zorakı hərəkətləri azaltmaq üçün uğurlu müalicə yaratmaq üçün bu elementlərin qavranılması tələb olunur [2,səh.45].

Sosial və mədəni yanaşma zorakı davranışın xarici təsirlər tərəfindən necə formalaşdığını vurğulayır. Bir insanın zorakılığa meyli əsasən ailə münasibətləri və idarəetmə təcrübələri ilə müəyyən edilir. Şəfqətli və sevgi dolu mühitlər profilaktik aspektlər kimi fəaliyyət göstərsə də, qəddar, səmərəsiz və ya diqqətsiz idarəetmə tez-tez düşmən reaksiyalarının ehtimalını artırır. Uşaqlar və yeniyetmələr tez-tez sinif yoldaşlarının və ya digər uşaqların hərəkətlərini təqlid etdikləri üçün qrup qarşılıqlı əlaqələri zorakılığa əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Zorakılıq xüsusiyyətləri istismar, narazılıq və ya mənfi şəxslərarası mübadilələrə məruz qalma ilə əhəmiyyətli dərəcədə gücləndirilə bilər.

Tədris idarəetmə üsulları, müəllim-tələbə münasibətləri və ictimai standartlar vasitəsilə təhsil mühiti zorakılığın yaranmasına təsir göstərir. Zorakı hərəkətlər hakimiyyəti qorumaq və ya təsdiq qazanmaq üçün ictimai strukturlar və ya itaət tələbləri kimi təşkilati şərtlərlə təşviq edilə bilər. Mədəni və ətraf mühit də təcavüzə təsir göstərir, çünki zərər, oğurluq və ya siyasi iğtişaşlara yaxınlıq müdafiə hərəkətlərini artıra bilər. İnsanların düşmənçilik təzahürləri hansı fəaliyyətlərin ədalətli və ya qeyri-düzgün hesab edildiyini diktə edən mədəni və iqtisadi standartlarla formalaşır. Xüsusilə uşaqlar və yeniyetmələr arasında zorakılıq televiziya şouları, filmlər və onlayn oyunlar kimi multimedia təsirləri antaqonist münasibətin artması ilə əlaqələndirilir [3,səh.29].

Zorakılığın yüksək səviyyələri yoxsulluq və şəxslərarası balanssızlıq kimi iqtisadi dəyişənlərdən qaynaqlana bilər ki, bu da gərginliyi və narazılığı artırır. Nümunəvi davranış təşviq edilə və bu təhlükələr ailənin köməyi, ictimai təşəbbüslər və sağlam mövqe fiqurlarının köməyi ilə azaldıla bilər. Şəxslərarası təlim konsepsiyalarına görə, insanlar tez-tez ətraflarında başqalarını görərək və təqlid edərək zorakılığa əl atırlar. Zorakı davranışın güclənməsinin qarşısını almaq üçün valideynlik qarşılıqlı əlaqəsi və nəzarəti də vacibdir. Psixoloji nəzarət və fikir ayrılıqlarının idarə olunması təhsildə və təşkilatlarda erkən idarəetmə layihələri vasitəsilə tədris edilə bilər. Alimlər düşmənçiliyə səbəb olan sosial və ekoloji amilləri anlayaraq hərtərəfli profilaktik metodlar yarada bilərlər.

Bu elementlər zehni və genetik meyllərlə əlaqəlidir və zorakılığın mürəkkəbliyini vurğulayır. Uzunmüddətli tədqiqatlara görə, əlverişsiz sosial mühitlərdə uzun müddət iştirak təkrarlanan davakar davranışlar riskini artırır. Aqressivliyin aradan qaldırılması ədaləti təşviq edən və icma münaqişələrini azaldan sosial-iqtisadi strategiyalarla da asanlaşdırıla bilər. Ümumiyyətlə, bu baxış bucağı zorakı davranışın yaranması və idarə olunması üçün şəxslərarası əlaqələrin, ətraf mühitin və şəxslərarası standartların nə qədər vacib olduğunu vurğulayır.

Koqnitiv və təhsil baxış bucağı təcrübənin zorakı davranışı formalaşdırdığını və dəstəklədiyini vurğulayır. Şəxslərarası təhsil hipotezi, insanların tez-tez başqalarını, xüsusən də qohumları, dostları və ya ictimai personajları kimi nümunələri olanları izləmək və təqlid etməklə zorakılığı mənimsədiklərini bildirir. Ətraflarında zorakı davranışın şahidi olan gənclər bunu mübahisələrin həlli üçün qanuni bir vasitə kimi qəbul edə bilərlər. Zorakılıq əhəmiyyətli dərəcədə təşviq prosesləri tərəfindən formalaşır. Zorakı davranış, bəlkə də şəxsən və ya ümumi şəkildə qəbul edilərkən, sonradan təkrarlanmağa çox meyllidir.

Digər tərəfdən, cəzalandırılan və ya nəzərə alınmayan hərəkətlər adətən zamanla azalır. Yaddaşın müşahidəsi göstərir ki, zorakı davranışa şahid olmaq, açıq cəza olmadığı halda təqlidçi riskini necə artıra bilər. Bu günlərdə insanlar, xüsusən də uşaqlar, kompüter oyunları, kino və sosial mənbələr vasitəsilə zorakı münasibətlər inkişaf etdirə bilərlər. Bundan əlavə, davranış tədqiqatları hərəkət etməyi və təqlidi həm zorakılığı öyrətmək, həm də aradan qaldırmaq üçün strategiya kimi nəzərdən keçirir. Zorakılıq adi vəziyyətlərdə

həyata keçirildikdə, o, avtomatik sosial xüsusiyyətə çevrilə bilər. Nifrət, təhlükə hissi və ya fayda gözləmək kimi yaddaş texnikaları ilə işləyən zehni funksiyalardan təsirlənir. Zorakı davranışların yaddaşda saxlanması və təqlidi müşahidə edilə bilən təlim vasitəsilə psixoloji stimullaşdırma ilə yaxşılaşdırıla bilər [3,səh.53].

Qazanılmış düşmənçiliyi azaltmaq üçün alternativ rahatlıq mexanizmləri və problemlərin həlli üsulları haqqında maarifləndirmə vacibdir. Emosional müalicədə tez-tez müsbət hərəkətlər gücləndirilir, zorakı reaksiyalar isə rədd edilir. Vauçer büdcələri və yüksək mükafat sistemləri yeniyetmələrin antaqonist davranışlarını azaltmaqda uğurlu olan iş yerində nəzarət strategiyalarına nümunədir. Həmyaşıdlar tərəfindən idarə olunan sistemlər tolerantlığı və əməkdaşlığı inkişaf etdirmək üçün insan təsirindən istifadə edir. Uzunmüddətli sorğulara görə, həyat boyu zorakılıq gənclərin zorakı davranışı təqlid etməsinə məruz qalması ilə güclü şəkildə proqnozlaşdırılır. Həm qazanılmış hərəkətlərin, həm də təməl zehni sistemlərin əhəmiyyəti emosional və psixoloji texnikaların birləşməsi ilə vurğulanır. Tədqiqatçılar zorakılığın nəyin öyrədildiyini öyrənməklə müəyyən kontekstual girişlərə və mükafatlandırıcı kontekstlərə yönəlmiş mütəşəkkil terapiyalar yarada bilərlər. Ümumiyyətlə, psixoloji və təhsil yanaşması fon, vizual mükafat və təqlidçiliyin zorakı davranışları yaratmaq və davam etdirmək üçün necə dinamik şəkildə qarşılıqlı təsir göstərdiyini göstərir.

Profilaktik və müalicə tədbirlərinin məqsədi zorakı münasibətin nəzarətdən çıxmasından əvvəl onu nəzarətdə saxlamaq və ya azaltmaqdır. Həll yolunun uğurlu olması üçün xəbərdarlıq xüsusiyyətləri dərhal müəyyən edilməlidir. Münaqişələrin həlli, rəğbət və zehni nəzarət təklif edən kursların əsas auditoriyası uşaqlar və yeniyetmələrdir. Koqnitiv-Davranış psixoterapiyası (KDP), həmçinin KDP kimi də tanınır, insanlara aqressiv səbəbləri müəyyən etməkdə və əvəzedici reaksiyalar yaratmaqda kömək etmək üçün tez-tez istifadə olunur. Qəzəbin idarə olunması proqramları tələsik və zorakı reaksiyaların tənzimlənməsi üçün mütəşəkkil metodlar təklif edir. Ailə yönümlü terapiyaların əsas məqsədi valideyn nəzarətini, qarşılıqlı əlaqəni və valideynlik üçün əməkdaşlıq texnikalarını gücləndirməkdir.

Zorakılığı və aqressivliyi azaltmaq üçün təhsil təşəbbüslərinə tez-tez həmyaşıdlar arasında sosial münasibətlər və şəxsi lütfkarlıq təlimləri daxildir. Zorakı davranışların qarşısını alan dəstəkləyici mühit repetitorluq və günortadan sonra verilişləri kimi vətəndaş hərəkətləri ilə yaradılır. Televiziyada savadlılıq təlimi alan insanlar aqressiv materiallara baxmağın onların davranışlarına necə təsir edə biləcəyini daha yaxşı qiymətləndirə bilirlər. Davamlı narahatlıq zorakı davranışın əsas səbəbi olduğundan, müalicələr həmçinin bufer mexanizmlərinə və narahatlığın azaldılmasına yönələ bilər. Risk altında olan qruplar üçün yaradılan proqramlar tez-tez mədəni nevroloji və idrak elementlərini birləşdirir. Rəqabətli münasibətlərdən müvafiq əlaqəni və təhlükəsiz əlaqəni dəstəkləyən erkən uşaqlıq təşəbbüsləri ilə qaçınmaq olar.

Sahibkarın çətin vəziyyətlərə uyğunlaşma qabiliyyəti problemlərin həlli və seçim təlimatları ilə artır. Profilaktik təşəbbüslər ailələr, müəllimlər və əqli səhiyyə xidməti göstərənlər birlikdə işlədikdə daha uğurlu olur. Davamlı tədqiqatlara görə, yeniyetməlik illərində sistematik terapiya sonrakı zorakılığı əhəmiyyətli dərəcədə azalda bilər. Zorakılığın qarşısının alınması qanunvericiliyi və sosial təminat proqramları zorakı hadisələrin azaldılması üçün institusional yardım təklif edən qanunvericilik və tənzimləyici yanaşmalara nümunədir [4,səh.18]. Həllərin effektivliyini qiymətləndirmək üçün elmi tədqiqatlardan istifadə etməklə sübutlara əsaslanan müalicə təmin edilir. Profilaktik tədbirlər hər bir şəxsin tələblərinə, iqtisadi vəziyyətinə və sosial-mədəni mühitinə uyğunlaşdırıldıqda daha uğurlu olur.

Profilaktik və terapiya proqramları həm fərdi genetik xüsusiyyətlərin, həm də kontekstual təsirlərin idarə olunmasının zəruriliyini vurğulayır. Hər şeyi nəzərə alsaq, bu

metodlar düşmənçiliyin dəyişkən olduğunu və diqqət mərkəzində olan, çoxsəviyyəli hərəkətlərin konstruktiv davranışı necə təşviq edə və dağıdıcı nəticələri necə azalda biləcəyini göstərir.

## ƏDƏBİYYAT

1. Huesmann, L. R. (2017). An integrative theoretical understanding of aggression: A brief exposition. *Current Opinion in Psychology, 15*, 1–6.
2. Coccaro, E. F., Fanning, J. R., Phan, K. L., & Lee, R. (2021). The neurobiology of human aggressive behavior: Neuroimaging, genetic, and neurochemical aspects.
3. Huesmann, L. R. (2017). An integrative theoretical understanding of aggression: A brief exposition. *Current Opinion in Psychology, 15*, 1–6.
4. Tremblay, R. E., Nagin, D. S., Séguin, J. R., Zoccolillo, M., Zelazo, P. D., Boivin, M.Japel, C. (2018). Childhood aggression: A synthesis of reviews and meta-analyses to reveal patterns and opportunities for prevention and intervention strategies. *Neuroscience & Biobehavioral Reviews, 91*, 225–245.

## AQRESSİV DAVRANIŞIN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

***Əliyeva Rübabə***

## XÜLASƏ

Aqressiv davranışın tədqiqi multidimensional yanaşma tələb edir və əsasən bioloji, psixoloji, sosial və öyrənmə yönümlü istiqamətləri əhatə edir. Bioloji və neyrobioloji tədqiqatlar genetik predispozisiya, neyrotransmitterlərin və hormonal balansın rolunu, həmçinin beyin strukturlarının funksiyasını araşdırır. Psixoloji istiqamət fərdi xüsusiyyətlər, uşaqlıq təcrübələri və emosional tənzimləmə mexanizmlərini nəzərdən keçirir. Sosial və ətraf mühit yönümlü araşdırmalar ailə, məktəb, dost mühiti, mədəni və sosial normaların aqressiyaya təsirini vurğulayır. Davranış və öyrənmə istiqamətləri aqressiyanın sosial öyrənmə, modelləşmə və mükafat-cəza mexanizmləri ilə formalaşmasını izah edir. Nəhayət, qarşısının alınması və müdaxilə istiqamətləri effektiv strategiyaların, o cümlədən psixoloji terapiya və sosial proqramların aqressiv davranışın idarə edilməsində əhəmiyyətini göstərir.

## НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ АГРЕССИВНОГО ПОВЕДЕНИЯ

***Алиева Рубаба***

## АННОТАЦИЯ

Изучение агрессивного поведения требует многомерного подхода и включает в себя, главным образом, биологические, психологические, социальные и образовательные направления. Биологические и нейробиологические исследования изучают генетическую предрасположенность, роль нейротрансмиттеров и гормонального баланса, а также функции структур мозга. Психологическое направление рассматривает индивидуальные особенности, детский опыт и механизмы регуляции эмоций. Социологические и экологические исследования подчеркивают влияние семьи, школы, среды сверстников, культурных и социальных норм на агрессию. Поведенческое и образовательное направления объясняют формирование агрессии посредством социального обучения, моделирования и

механизмов вознаграждения-наказания. Наконец, профилактические и интервенционные направления показывают важность эффективных стратегий, включая психологическую терапию и социальные программы, в управлении агрессивным поведением.

## RESEARCH DIRECTIONS OF AGGRESSIVE BEHAVIOR

***Aliyeva Rubaba***

**SUMMARY**

The study of aggressive behavior requires a multidimensional approach and primarily involves biological, psychological, social, and educational approaches. Biological and neurobiological research examines genetic predisposition, the role of neurotransmitters and hormonal balance, and the function of brain structures. Psychological approaches examine individual characteristics, childhood experiences, and emotion regulation mechanisms. Sociological and ecological studies emphasize the influence of family, school, peer group, and cultural and social norms on aggression. Behavioral and educational approaches explain the development of aggression through social learning, modeling, and reward-punishment mechanisms. Finally, preventive and intervention approaches demonstrate the importance of effective strategies, including psychological therapy and social programs, in managing aggressive behavior..

# HƏRBİ HAZIRLIQ SİSTEMİNDƏ GƏNCLƏRDƏ ŞƏRƏF VƏ LƏYAQƏT HİSLƏRİNİN FORMALAŞDIRILMASI

***p.ü.f.d. S.M.İskəndərova,***
***Allahverdiyev Ramin Taleh oğlu***
***BDU-nun II kurs magistrantı***
***raminallahverdiyevinfo@gmail.com***

***Açar sözlər:*** Hərbi hazırlıq, pedaqoji proses, mənəvi-əxlaq tərbiyəsi, yeniyetmələrin vətənpərvərlik hissi, hərbi təlimə öyrənmə
***Ключевые слова:*** военная подготовка, педагогический процесс, нравственно-этическое воспитание, чувство патриотизма у подростков, приобщение к военной
***Keywords:*** military training, pedagogical process, moral and ethical education, sense of patriotism among adolescents, learning military drills

***Giriş.*** Hərbi hazırlıq adətən silah, ordu və döyüşlə bağlı anlayışlarla əlaqələndirilir, amma əslində daha geniş məna daşıyır. Hərbi hazırlıq vətəni qorumağa hər an hazır olmaq deməkdir. Bu, yalnız fiziki gücün artırılmasını deyil, həm də baş verə biləcək təhlükələrə və fövqəladə hallara qarşı mənəvi, psixoloji və praktik hazırlığı əhatə edir.

**Məktəblərdə keçirilən hərbi hazırlıq dərsləri** bizə sadəcə bir fənn kimi deyil, həyatda faydalı olacaq biliklər qazandırır. Bu dərslərdə fövqəladə vəziyyətlərdə necə davranmaq, ilkin tibbi yardım göstərmək kimi vacib bacarıqları öyrənirik. Belə biliklər, hətta hərbi xidmətə getmədən əvvəl də gündəlik həyatda işimizə yaraya bilər.

Hərbi hazırlıq dərsləri bizi daha intizamlı və qaydalara hörmət edən insanlar kimi formalaşdırır. Çünki orduda təkcə fiziki güc deyil, həm də intizam əsas şərtlərdəndir. İnsan burada qaydalara riayət etməyin, məsuliyyətli və nizam-intizamlı olmağın vacibliyini dərk edir. Eyni zamanda, bu dərslər vətənə sevgi və bağlılıq hissini gücləndirir, gənclərdə vətənpərvərlik ruhunun formalaşmasına kömək edir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra suverenlik və ərazi bütövlüyünün qorunması dövlətimizin qarşısında duran ən mühüm vəzifəyə çevrilmişdir. Müstəqillik illərində ölkəmiz müasir döyüş texnikası ilə təchiz olunmuş, ideoloji-siyasi cəhətdən hazırlıqlı şəxsi heyətə malik güclü Silahlı Qüvvələr yaratmağa nail olmuşdur.

Nəzərə alınmalıdır ki, ordunun şəxsi heyəti əsasən çağırış əsasında komplektləşdirilir. Müasir Silahlı Qüvvələrdə xidmət edən əsgərdən yüksək döyüş və mənəvi keyfiyyətlər, vətənpərvərlik, vətənə və xalqa sədaqət tələb olunur. “Çağırışaqədər hazırlıq” fənninin tədrisi zamanı gənclər Respublikanın müdafiə qüdrətini, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarından irəli gələn vəzifələri, Silahlı Qüvvələrin funksiyalarını və nizamnamələrin tələblərini öyrənir, gənc əsgər səviyyəsində zəruri bilik və bacarıqlara yiyələnirlər.

“Çağırışaqədər hazırlıq” fənninin əsas məqsədi gəncləri ölkənin müdafiəsinə hazırlamaqdır. Dərslikdə aşağıdakı mövzulara yer verilir: Silahlı Qüvvələrin yaranma və inkişaf tarixi; hərbi qulluqçuların vəzifələri; hərbi nizamnamələr; Hərbi And, hərbi himn və döyüş bayrağına dair əsasnamələr; atəş hazırlığı və taktiki hazırlıq; hərbi topoqrafiya; fövqəladə hallar və onların təsnifatı; sağlam həyat tərzi və ilkin tibbi yardım qaydaları. Məqsəd gənclərə bu sahələr üzrə zəruri bilik, bacarıq və vərdişlər qazandırmaqdır.

Hərbi hazırlıq gənclərin şəxsiyyətinin və mənəvi tərbiyəsinin formalaşmasına, onlarda vətənpərvərlik, şərəf və ləyaqət hisslərinin aşılanmasına xidmət edir. Xalqına, vətəninə, tarixinə və adət-ənənələrinə dərin məhəbbət bəsləmək, hər an Vətənin müdafiəsinə hazır olmaq gənc nəslin ən yüksək mənəvi keyfiyyətlərindən biri sayılır.

"Çağırışaqədərki hazırlıq" fənninin tədrisi prosesində bu keyfiyyətlərin formalaşması üçün geniş imkanlar mövcuddur. Sülh dövründə mürəkkəb və çətin hərbi xidmətin qüsursuz yerinə yetirilməsi, müharibə zamanı isə döyüş tapşırıqlarının müvəffəqiyyətlə icrası üçün vacib olan bir sıra sosial-psixoloji və intellektual xüsusiyyətlərin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. İlk növbədə cəsurluq, düşmənə qarşı mübarizədə dözümlülük, qələbə naminə iradə və təmkinlilik, eləcə də mürəkkəb şəraitdə düzgün qərar qəbul etmək bacarığı yüksək psixoloji keyfiyyətlər hesab olunur.

Bu keyfiyyətlərin formalaşmasında "Çağırışaqədərki hazırlıq" fənninin rolu böyükdür [1]. Əldə edilən bilik və bacarıqlar, hər şeydən əvvəl, hərbi xidmətə gedəcək gənclərin çağırışaqədərki hazırlıq mərhələsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu, gənclərə qısa müddətdə ümumi hazırlıq səviyyəsinə yiyələnməyə, ixtisas üzrə hazırlığa isə daha çox vaxt ayırmağa imkan yaradır. Fənnin məzmun xətti istər müharibə, istərsə də sülh şəraitində baş verə biləcək fövqəladə hadisələr zamanı xəsarət alanlara və zərərçəkmişlərə göstəriləcək ilk tibbi yardımın təşkili kimi dəyərləndirilir. Bununla yanaşı, şagirdlərin sağlam həyat tərzi haqqında bilik və bacarıqlar qazanmasına, onların əqli və fiziki cəhətdən inkişafına geniş imkanlar yaradır.

Bu fənn şagirdlərdə xəstələrə və yaralılara humanistcəsinə yanaşmaq, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək təmənnasız tibbi yardım göstərmək kimi keyfiyyətləri formalaşdırır. Digər tərəfdən, hərbi xidmət keçməyən insanlar üçün də bu bilik və bacarıqlar müharibə və ya terrorizm şəraitində özünü mühafizə etmək baxımından olduqca faydalıdır. Şagirdlər tədqiqat aparmaq, mühakimə yürütmək və qərar qəbul etməklə yanaşı, ünsiyyət qurmaq, öyrəndiklərini əlaqələndirmək və real şəraitdə tətbiq etmək bacarıqlarına yiyələnirlər [2].

Müxtəlif xarakterli fövqəladə halların baş verməsi insanların həyatına, sağlamlığına və genetik fonduna ciddi təhlükə yaradır. Belə vəziyyətlərdə insanlar öz həyatlarını və yaxınlarını qorumaq məcburiyyətində qalırlar. Bu məzmun xətti üzrə formalaşan bacarıqlar təbii fəlakətlər və texnogen qəzalar zamanı insanların təhlükəsiz davranış vərdişlərinə yiyələnməsinə, tam orta təhsil səviyyəsində praktiki hazırlığın təmin olunmasına şərait yaradır.

"Çağırışaqədərki hazırlıq" fənni həm də mühüm təcrübi əhəmiyyətə malikdir. Belə ki, bu fənnin tədrisi gələcəyin əsgərlərinin Vətənin keşiyində qürurla dayanmasına, torpaqlarımızın düşmənlərdən qorunmasına mənəvi zəmin yaradır. Bu baxımdan, 44 günlük Vətən müharibəsi bu fənnin əhəmiyyətini və praktiki dəyərini bir daha təsdiqləyən parlaq nümunə kimi qeyd edilə bilər [6].

44 gün davam edən Vətən müharibəsi zamanı işğal altında olan torpaqlarımız düşməndən azad edildi. Ordumuzun erməni təxribatlarına cavab olaraq başladığı bu müharibə xalqımızın 30 illik həsrətinə cəmi 44 gün ərzində son qoydu. Vətənpərvər oğullarımızın qəhrəmanlıqla döyüşərək düşmənə sarsıdıcı zərbələr endirməsi, torpaqlarımızın azadlığı uğrunda canından keçməsi xalqımızın əzm və iradəsinin, həmrəyliyinin bariz təzahürünə çevrildi. Bu günlər ərzində ordumuzun işğalçı qüvvələrə qarşı apardığı mübarizə milli şüurun, xalq və ordu birliyinin, Vətən sevgisinin ən yüksək ifadəsi oldu [8].

Gənclər Azərbaycan Silahlı Qüvvələrinin tarixini öyrənməklə vətənpərvərlik ruhunda tərbiyə alır, onlarda Vətənə sədaqət, Azərbaycan Ordusunda xidmətin müqəddəs borc və şərəfli vəzifə olması barədə inam formalaşır. Bu proses gənclərdə əqidəlilik, cəsurluq və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişafına zəmin yaradır. Onlar Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunvericilik aktlarının ölkənin müdafiəsinə dair tələbləri ilə tanış olur, Vətənin müdafiəsini öz vətəndaşlıq borcu və məsuliyyəti kimi dərk edirlər. Gənclər ordu həyatı ilə yaxından tanış olur, əsgərin vəzifə, hüquq və məsuliyyətlərini anlayırlar. Xüsusilə, Vətən uğrunda canından keçmiş şəhidlərimizin qəhrəmanlığı, onların Vətənə olan sonsuz sevgisi və düşmən üzərində

qazandıqları parlaq qələbələr gənclər üçün əsl nümunədir. Ona görə də Azərbaycan Respublikasında gənclərə "Çağırışaqədərki hazırlıq" fənninin tədris olunması mühüm əhəmiyyət kəsb edir. Bu fənnin əsas məqsədi yeniyetmələrin hərbi təlimə hazırlanması ilə yanaşı, onların vətənpərvər və məsuliyyətli vətəndaş kimi formalaşmasına xidmət etməkdir [7].

Danılmaz faktdır ki, gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, onların cəmiyyətə yararlı vətəndaş kimi yetişdirilməsində, həmçinin mənəvi keyfiyyətlərin aşılanmasında hərbi xidmətin rolu böyükdür. Hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunur, gələcəyin nümunəvi vətəndaşları kimi formalaşırlar. Hərbi xidmətə daxil olan gənclərin bacarıqlı və vətənpərvər əsgərlər kimi yetişməsinin əsası isə gənc əsgər hazırlığı mərhələsindən qoyulur. Buna görə də ordumuzda gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir və bu istiqamətdə sistemli iş aparılır [3].

Təhlükəsizlik baxımından milli dəyərlərimizin qorunması, xalqımız arasında qarşılıqlı qayğı, birlik və yardımsevərliyin formalaşmasına səbəb olmuşdur. Vətən müharibəsi təkcə ordumuzun gücünü nümayiş etdirmədi, həm də xalqın birliyinin və iradəsinin ifadəsinə çevrildi. Qazanılan zəfər illərlə davam edən zəhmətin bəhrəsi kimi qiymətləndirildi. Bu zəhmətdə gənclərin milli ruh və vətənpərvərlik ideologiyası əsasında düzgün yetişdirilməsi mühüm rol oynayıb.

Gənclərin hərbi peşəyə marağının artması həm mövcud vəziyyətdən — yəni torpaqlarımızın işğal altında olmasından, həm də hərbi təhsil müəssisələrinin yaradılması və ordu quruculuğu istiqamətində görülən ardıcıl tədbirlərin nəticəsi kimi özünü göstərir.

Əsas qeyd etmək lazımdır ki, hərbi hazırlıq orduda yalnız silah və texnikanın öyrədilməsi ilə kifayətlənmir, həm də döyüşçü ruhunun psixoloji cəhətdən formalaşdırılmasına yönəlir.

Müasir dövrdə baş verən müharibələr nəticəsində hər bir ölkənin hərbi biliyə olan ehtiyacı artır. Məhz buna görə də hərbi hazırlıq ilkin tibbi yardım bacarıqlarını və əsasən ölkəmizin tarixini öyrətmək funksiyasını daşıyır [5, s.217]. Bu aspekt hərbi əməliyyatlarda və gündəlik fəaliyyətlərdə uğurun əsas şərtlərindən biri kimi qəbul edilir. Gələcək nəsillərin fiziki və taktiki biliklərlə yetişdirilməsi, onların döyüş meydanında lazım olan bilik və bacarıqlara yiyələnməsi ölkənin ərazi bütövlüyünün qorunmasında mühüm rol oynayır.

Artıq ölkəmizdə ordu quruculuğu yüksək səviyyədədir və ən əsası, vətənpərvərlik ruhu möhkəmlənmişdir. Müstəqilliyimizi bərpa etməklə, bütün dünyaya Azərbaycanın məğlubedilməz olduğunu sübut etdik. Vətən müharibəsində Azərbaycan əsgərinin nümayiş etdirdiyi sarsılmaz iradə və yenilməzlik bu gün gənclərimiz üçün parlaq nümunədir. Əsgərlərimizin yüksək döyüş ruhu və əzmkarlığı bizə qələbə qazandırdı. Vətən müharibəsində yaralanıb qazi olan hər bir əsgərimizin yarası təkcə onun ailəsinin deyil, bütün Azərbaycan xalqının yarasıdır. Dövlət isə hər zaman öz əsgərinin yanındadır.

Qarabağ qazilərinə dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri müntəzəm olaraq həll olunur. Bu, onların halal haqqıdır. Çünki Azərbaycan əsgəri böyük qəhrəmanlıq və şücaət göstərərək Vətən uğrunda şərəflə döyüşmüş, öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırmışdır.

Vətən savaşı həm də onu göstərdi ki, tarixi ədalət və haqq uğrunda aparılan müharibədə xalq iqtidar və müxalifət cəbhələrinə bölünə bilməz. Buna cəhd edən qüvvələr isə xalqımız tərəfindən birmənalı şəkildə düşmənin dəyirmanına su tökənlər kimi qiymətləndirilir. Vətən müharibəsi bir daha təsdiqlədi ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət xalqı birləşdirən siyasətdir. Azərbaycanın haqlı və ədalətli mövqeyi şəxsi ambisiyalardan imtina etməyi və milli maraqlar naminə vahid qüvvəyə çevrilməyi tələb edir. Bu gün qürur duyuruq ki, xalq olaraq gücümüzün mənbəyi olan milli birlik dövlətimizin siyasi dəyəridir. İkinci Qarabağ müharibəsi dövründə daxildəki həmrəylik, milli birlik və vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi və bəzi mənfur xarici dairələrin Azərbaycanda öz çirkin planlarını həyata keçirməsinə imkan vermədi.

Dünyanın inkişaf etmiş orduları ilə eyni səviyyədə dayanan qüdrətli ordumuzun zabitləri gənc nəslin ordu həyatına hazırlanmasında böyük rol oynayaraq xalqımızın tarix boyu necə yenilməz olduğunu bir daha göstərdilər [4].

Bu gün Azərbaycan Ordusu dünyanın ən mükəmməl döyüş qabiliyyətinə malik ordularından biri kimi tanınır. Beynəlxalq qurumların ölkələrin hərbi potensialını qiymətləndirən reytinqlərinə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Eyni zamanda beynəlxalq aləmdə də qəbul edilir ki, Azərbaycan Ordusu istənilən vəzifəni uğurla yerinə yetirməyə qadirdir.

Xüsusilə qürurvericidir ki, aparıcı Qərb mətbuatı, ABŞ-ın Milli Müharibə Kolleci və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikasının təhlili zamanı belə qənaətə gəlinib ki, 44 günlük müharibə dövründə bu Silahlı Qüvvələrin qarşısında hətta dünyanın aparıcı ordularından biri dayansaydı, onun qalib gəlmək şansı çox az olardı.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun tətbiq etdiyi döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə daxil edilərək tədris edilir. Hətta ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyat təcrübəsinin öyrənilməsinin zəruriliyini vurğulayırlar [8].

Beləliklə, gənclərin vətən sevgisi və vətənpərvərlik ruhu məhz vətənin müdafiəsi vasitəsilə formalaşır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün çağırışaqədərki hazırlıq fənni üzrə təhsil proqramı (kurikulumu) (x-xı siniflər). Bakı,2013.
2. Осьмачко С.Г. Военно-патриотическое воспитание допризывной и призывной молодежи в годы ВОВ. Автореферат дисс. на соискание ученой степени канд.ист.наук./С.Г. Осьмачко. - Ярославль, 1990.
3. Радионов Е.Г. Педагогические основы воспитания готовности молодёжи к защите Отечества / Е.Г. Радионов: Автореф. дис. д-ра пед. наук. М., 2002. 32 с.
4. Суздалева А.М., Кошкина М.В., Санжеренко И.А. Подготовка учащейся молодежи к военной службе в общеобразовательном учреждении // Научный электронный архив.
5.Танюхин В.П. Педагогические основы подготовки юношей-старшеклассников к военной службе. Дисс.на соискание ученой степени д-ра пед.наук. /В.П. Танюхин. - М.: РГБ, 2003.
6.https://qebulol.az/gencleirn-cagirisagederki-hazirligi/
7.https://ikisahil.az/post/262020-ali-bash-komandan-ilham-eliyev-qarabag-azerbaycandir-realligini-reshadetli-ordumuzun-gucu-ile-butun-dunyaya-subut-etdi
8. https://mod.gov.az/az/pre/28739.html

# HƏRBİ HAZIRLIQ SİSTEMİNDƏ GƏNCLƏRDƏ ŞƏRƏF VƏ LƏYAQƏT HİSLƏRİNİN FORMALAŞDIRILMASI

***Sevda İskəndərova, Allahverdiyev Ramin***

## XÜLASƏ

Əsərdə hərbi hazırlıq sistemində gənclərin şəxsiyyətinin və mənəvi tərbiyəsinin formalaşdırılmasından, onların vətənpərvər, cəmiyyətə yararlı vətəndaş kimi yetişdirilməsindən, yüksək mənəvi keyfiyyətlərə yiyələnməsindən, eləcə də şərəf və ləyaqət hisslərinin aşılanmasından bəhs edilir.

# ФОРМИРОВАНИЕ ЧЕСТИ И ДОСТОИНСТВА У МОЛОДЕЖИ В СИСТЕМЕ ВОЕННОЙ ПОДГОТОВКИ

***С.Искендерова, Аллахвердиев Рамин***

## АННОТАЦИЯ

В работе рассматриваются вопросы формирования личности и нравственного воспитания молодежи в системе военной подготовки, воспитания ее как патриотически настроенных и общественно полезных граждан, приобретения ею высоких нравственных качеств, а также привития чувства чести и достоинства.

# FORMATION OF HONOR AND DIGNITY IN YOUTH IN THE MILITARY TRAINING SYSTEM

***S. Iskenderova, Allahverdiyev Ramin***

## SUMMARY

The paper examines the issues of personality development and moral education of young people in the military training system, educating them as patriotic and socially useful citizens, acquiring high moral qualities, and instilling a sense of honor and dignity.

# MÜƏLLİMLƏRİN PEŞEKAR İNKİŞAFİNDA MÜASİR TENDENSİYALAR

***Eminov Nəcəf İntiqam oğlu***
***ADPU-nun II kurs magistrantı***
***necefeminov@gmail.com***

***Açar sözlər:*** təhsil, peşəkar inkişaf, səriştəlilik, müasir təlim, təcrübəli müəllim.
***Keywords:*** education, professional development, competence, modern training, experienced teacher.
***Ключевые слова:*** образование, профессиональное развитие, компетентность, современное обучение, опытный преподаватель.

Təhsil cəmiyyətin inkişaf dinamikasına təsir edən dövri prosesdir. Təhsilin keyfiyyətinə təsir edən faktorlar içərisində müəllim fəaliyyəti önəmli yer tutur. Odur ki, təhsilverənlərin inkişaf etdirilməsinin təmin edilməsi bu sistemin keyfiyyətinin yüksəldilməsində mühüm amillərdən biridir. Elm və texnologiyanın dinamik inkişaf etdiyi, informasiya-kommunikasiya texnologiyalarının təhsil mühitinə intensiv şəkildə nüfuz etdiyi müasir mərhələdə müəllim peşəsinin qarşısında yeni funksional tələblər formalaşmaqdadır. Bu kontekstdə təhsilverənlərin peşəkarlıq səviyyəsinin müasir çağırışlara uyğunlaşdırılması və müəllim hazırlığı sisteminə strateji diqqətin artırılması zəruriət yaranır. Azərbaycan təhsilinin inkişafında qarşıya çıxan strateji vəzifələrin həyata keçirilməsində təhsilverənlərin rolu olduqca mühümdür. Onların əsas missiyası təhsil alanlara tədris proqramlarını mənimsətmək, vətəndaşlıq dəyərlərinə sadiq mövqe formalaşdırmaq, şəxsiyyət kimi yetişmələrinə və həyati bacarıqlara yiyələnmələrinə şərait yaratmaq, gənc nəslin fəal sosial mövqeyini inkişaf etdirmək, öz davranışı və fəaliyyəti ilə onlara mənəvi nümunə göstərmək, ziyalılıq örnəyi olmaq, həmçinin ixtisas, bilik və pedaqoji səriştəlilik səviyyəsini davamlı şəkildə yüksəltməkdən ibarətdir [2].

Məktəbəqədər təhsil pilləsindən başlayaraq ali təhsil səviyyəsinə qədər bütün fəaliyyət sahələrini əhatə edən bu vəzifələr hər bir müəllimdən və tərbiyəçidən peşəsinə və ixtisasına məsuliyyətlə yanaşmağı, peşəkarlıq və səriştəlilik səviyyəsini yüksəltməyi tələb edir. Müasir cəmiyyət təhsilverənlərdən böyük gözləntilər irəli sürür, gənc nəsil onlara güvənir və etibar edir, uşaqların gələcəyinin etibarlı əllərdə olduğuna inanır. Bu inamı doğrultmaq və bu etibara layiq olmaq, üzərinə düşən vacib vəzifələri şərəflə yerinə yetirmək təhsilverənlərin hazırlıq səviyyəsindən, peşəsinə yanaşmasından və səriştəliliyindən birbaşa asılıdır. Nəticədə, müəllimlərin peşəkarlığı və səriştəliliyi təhsilalanların həm öyrənmə qabiliyyətini, həm də öyrənməyə maraq və motivasiyasını artırır ki, bu da müasir təhsilin qarşısında duran əsas məqsəd və vəzifələrin uğurla həyata keçirilməsinə gətirib çıxarır. Müəllimlərin peşəkarlığı bir sıra amillərlə müəyyən olunur. Təhsilin məqsəd və vəzifələrini dərindən anlamaq, onları həyata keçirmək üçün öz peşəsinə və ixtisasına hərtərəfli bələd olmaq və bu bilikləri səriştəli şəkildə öyrədə bilmək təhsilverənlərin peşəkarlığının əsas göstəriciləridir.

Bir çox mənbələrdə qeyd edildiyi kimi, müasir dünyada pedaqoji təhsil üzrə bir sıra sosial yanaşmalar vardır. Bunlar, əsasən, aşağıdakıları aid etmək olar:

1. Şəxsiyyətə orientasiya;
2. Təhsilin keyfiyyəti;
3. Müəllimin peşə hazırlığı kompetensiyaları paradiqmalarının inkişafı;
4. Pedaqoji təhsilin standartlaşdırılması;
5. Ali pedaqoji təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması;
6. Müəllimin statusunun yüksəldilməsi;
7. Təhsilin dövlət-ictimai idarəsi;

8. Müəllim hazırlığında varislik və fasiləsizlik;
9. Pedaqoji təhsilin fundamentallaşdırılması [5].

Müasir dövrdə məktəbin əsas vəzifələrindən biri şagird şəxsiyyətinin inkişafına kömək edə biləcək bir təhsil mühiti yaratmaqdır. Bu məsələnin həllində isə təhsilverənlərin peşə səriştəliliyi və peşə bacarıqları əhəmiyyətli rol oynayır. Peşə və şəxsi keyfiyyətlərin toplusu olan peşə səriştəliliyi pedaqoji fəaliyyətini yerinə yetirmək üçün müəllimin nəzəri və praktiki hazırlığıdır və pedaqoji ustalığını müəyyən edir. Səriştəlivə peşəkar müəllim pedaqoji fəaliyyətini yüksək səviyyədə qurur və şagirdlərinin təlim-tərbiyəsində mühüm nəticələr əldə edir. Müəllimin peşə səriştəliliyinin inkişaf etdirilməsi onun pedaqoji innovasiyaları qəbul edə bilməsi, dəyişən pedaqoji mühitə uyğunlaşa bilməsi qabiliyyətlərinin formalaşdırılmasıdır. Şagirdlərin savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə şagird nailiyyətləri arasında sıx əlaqələr mövcuddur [1].

Müasir təhsil sistemində baş verən dəyişikliklər müəllimin daha da inkişaf etməsini, peşəkarlığının yüksəlməsini tələb edir. Çünki yalnız müstəqil düşünən, öz fəaliyyətinin nəticələrini əvvəlcədən görə bilən, təhsil prosesini modelləşdirən müəllim qarşıya qoyulmuş məqsədə daha yaxşı nail oila bilər. Bunun üçün ilk növbədə müəllimdə öz peşə bacarıqlarını və səriştələrini artırmaq istəyi olmalıdır.Eyni zamanda pedaqoji inkişaf üçün əlverişli təhsil şəraiti və motivasiya yaradılmalıdır. Elə şərait ki, müəllim özünün pedaqoji keyfiyyətlərinin səviyyəsinin yüksəldilməsi zərurətini hiss etsin.

Müəllim özünün pedaqoji təcrübəsini müxtəlif istiqamətlərdə təkmilləşdirə bilər:

- Peşə sahəsində (öz fənnini bilməsi).
- Tədrisin metodikası sahəsində (müasir texnologiyaları, təlimin yeni metod və formalarını mənimsəməsi).
- Pedaqoji psixologiya sahəsində [3].

Müəllim hazırlığında pedaqoji səriştəlilik müəllimin peşə fəaliyyətində uğur qazanması, təlim-tərbiyə prosesini səmərəli və məqsədyönlü şəkildə təşkil etməsi üçün zəruri olan bilik, bacarıq, vərdiş və şəxsi keyfiyyətlərin vəhdətini əhatə edir. Bu səriştəlilik müəllimdən qarşıya aydın məqsədlər qoymaq və onlara çatmaq üçün nəzəri biliklərə, praktik vərdişlərə yiyələnməyi, psixoloji hazırlığa malik olmağı, pedaqoji prosesi nəzarətdə saxlamağı, onu obyektiv şəkildə analiz və qiymətləndirməyi tələb edir. Müasir müəllim öz üzərində fasiləsiz işləməli, yerli və xarici elmi- pedaqoji ədəbiyyatlarla tanış olmalı, yeni texnologiyaları mənimsəməli və qabaqcıl təcrübələrə istinad etməlidir.

Pedaqoji səriştəliliyin əsas göstəricilərindən biri müəllimin təlim prosesində şagirdlərin maraq və fəallığını təmin etməsi, ənənəvi və müasir metodları qarşılıqlı şəkildə tətbiq etməsi, həmçinin təlimdə əks-əlaqəni düzgün qurmasıdır. O, şagirdlərdə tənqidi mühakimə, problemli vəziyyətlərdə obyektiv qərarvermə, sağlam rəqabətə girmək, fikirlərini əsaslandırmaq, fikir müxtəlifliyinə hörmətlə yanaşmaq, fərdi və kollektiv əmək mühitinə uyğunlaşmaq kimi bacarıqları formalaşdırmalıdır. Müəllim eyni zamanda yarana biləcək çətin və mübahisəli situasiyalarda çevik qərar qəbul etməyi bacarmalı, innovasiyalardan səmərəli istifadə etməli, öz nüfuzunu və peşə etikasını qoruyub saxlamalıdır.

Müəllimin malik olmalı olduğu peşə keyfiyyətlərinin aşağıdakılardan ibarət olduğunu söyləmək olar:

**Müəllim bilməlidir:** 1)dövlətin və hökumətin məktəb, müəllim və təhsil haqqında olan rəhbər qərar və göstərişlərini; 2)yiyələndiyi elm sahəsini və öz ixtisasını; 3)uşaqların yaş və fərdi xüsusiyyətlərini; 4)pedaqogika və psixologiya elmini; 5)müasir pedaqoji texnologiyalarının əsaslarını; 6)fəndaxili və fənlərarası inteqrasiyanı; 7)uşaq ədəbiyyatını.

**Müəllim bacarmalıdır:** 1)öyrədə bilməyi və düşündüklərini aydın şərh etməyi; 2)sinfi idarə etməyi; 3) uşaq şəxsiyyətinə hörmət etməyi; 4) təlimin tərbiyələndirici funksiyasından

məharətlə istifadə etməyi; 5)sözdə doğruçuluğu və davranışda düzgünlüyü; 6) tərbiyə etməyi; 7)uşaqların maraq və fəallığını inkişaf etdirməyi; 8)öz peşəsini və uşaqları sevməyi.

**Müəllim yiyələnməlidir**: 1)təsirli, ifadəli nitqə və yaradıcı düşüncə tərzinə; 2)ixtisasına və pedaqoji elmlərə dair nəzəri və praktik hazırlığa; 3)müasir təlim texnologiyalarına dair bilik və bacarıqlara; 4)milli və ümumbəşəri dəyərlərə; 5)pedaqoji takta və texnikaya; 6)təşkilatçılıq və digər bir sıra pedaqoji bacarıqlara və s. [4].

Bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, müəllimlərin peşəkar inkişafına sistemli yanaşma, fasiləsiz təlim və ixtisasartırma kurslarının təşkil olunması, innovativ pedaqoji texnologiyaların tətbiqi və təcrübə mübadiləsinin gücləndirilməsi təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə mühüm töhfə verir.

Beləliklə bu nəticəyə gəlirik ki, müasir dövrdə təhsil sisteminin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsində müəllim amili həlledici rol oynayır. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyi yalnız onun fərdi keyfiyyətlərinin deyil, həm də təhsilalanların nailiyyətlərinin, öyrənməyə motivasiyasının və ümumilikdə cəmiyyətin intellektual inkişaf səviyyəsinin əsas göstəricisidir.

Müəllim peşəkarlığının artırılması, ilk növbədə, onun pedaqoji, metodik, psixoloji və texnoloji biliklərinin sistemli şəkildə təkmilləşdirilməsi, fasiləsiz inkişaf imkanlarının yaradılması və müasir təhsil çağırışlarına adaptasiya olunması ilə mümkündür. Müasir müəllim yalnız bilik ötürən deyil, həm də öyrənmə prosesinin təşkilatçısı, tənqidi düşünmənin, yaradıcılığın və vətəndaşlıq dəyərlərinin formalaşmasına şərait yaradan şəxsiyyət olmalıdır. Bu baxımdan, müəllim hazırlığı sisteminə strateji yanaşmanın gücləndirilməsi, ixtisasartırma və peşəkar inkişaf mexanizmlərinin müasir tələblərə uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Təhsilverənlərin peşəkar inkişafına sistemli və məqsədyönlü yanaşma, innovativ pedaqoji texnologiyaların tətbiqi və qabaqcıl təcrübələrin paylaşılması müəllim fəaliyyətinin səmərəliliyini artırır, nəticədə təhsilin keyfiyyətinin yüksəlməsinə, insan kapitalının və cəmiyyətin intellektual potensialının inkişafına xidmət edir. Müəllimlərin peşəkarlığı və səriştəliliyi təhsilin dayanıqlı inkişafının, milli təhsil strategiyasının həyata keçirilməsinin və gələcək nəsillərin formalaşmasının əsas təminatçısıdır.

## ƏDƏBİYYAT

1. Abbasov, A.N., Hacıyev, A.X. və b. (2012). Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 324 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
3. Həsənova, İ. (2018). Müəllimin peşəkarlığının artırılmasında metodiki işin rolu. Azərbaycan müəllimi. 2 noyabr. s.7.)
4. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 208 s.)
5. İlyasov, M.İ. (2021). Müasir təhsil: ənənədən innovasiyaya. Monoqrafiya. Bakı: "Elm və təhsil", 376 s.

# MÜƏLLİMLƏRİN PEŞEKAR İNKİŞAFİNDA MÜASİR TENDENSİYALAR

***Eminov Nəcəf***

## XÜLASƏ

Təhsil cəmiyyətin inkişaf dinamikasına təsir edən dövri prosesdir. Təhsilin keyfiyyətinə təsir edən faktorlar içərisində müəllim fəaliyyəti önəmli yer tutur. Təhsilverənlərin peşəkarlıq səviyyəsinin müəyyən olunmuş tələblərə uyğunlaşdırılması müasir təhsil sisteminin əsas istiqamətlərindən biridir. Bu baxımdan, müəllim hazırlığına göstərilən diqqətin artırılması, təlim prosesinin keyfiyyətinin yüksəldilməsində və təhsilin məqsəd və vəzifələrinin reallaşdırılmasında mühüm rol oynayır. Müəllim hazırlığı yalnız pedaqoji bilik və bacarıqların formalaşdırılması ilə məhdudlaşmır, həm də müəllimin şəxsi inkişafı, innovativ düşünmə qabiliyyəti, müasir təlim metodlarına bələdliyi və texnoloji yeniliklərdən səmərəli istifadə bacarığını da əhatə edir.Məqalədə müəllimlərin peşəkarlığı və səriştəlilik səviyyəsinin artırılması ilə bağlı əsas istiqamətlər təhlil olunur. Burada müəllimlərin peşəkar fəaliyyətində önəmli olan əsas komponentlər – pedaqoji ustalıq, metodik hazırlıq, ünsiyyət mədəniyyəti, tədqiqatçılıq bacarığı və özünüinkişaf meyli kimi məsələlərə xüsusi diqqət yetirilir. Həmçinin, müəllimlərin nələri bilməli və hansı bacarıqlara yiyələnməli olduqları, onların peşəkar inkişafında qarşıya çıxan çətinliklər və bu istiqamətdə həyata keçirilməli olan tədbirlər də araşdırılır.

# СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ ПРОФЕССИОНАЛЬНОГО РАЗВИТИЯ УЧИТЕЛЕЙ

***Эминов Наджаф***

## АННОТАЦИЯ

Образование - циклический процесс, влияющий на динамику развития общества. Среди факторов, влияющих на качество образования, важное место занимает деятельность учителя. Обеспечение соответствия уровня профессионализма педагогов установленным требованиям является одним из основных направлений современной системы образования. В этой связи повышение внимания к подготовке учителей играет важную роль в повышении качества образовательного процесса и реализации целей и задач образования. Подготовка учителей не ограничивается только формированием педагогических знаний и навыков, но также включает в себя личностное развитие учителя, способность к инновационному мышлению, знание современных методов обучения и умение эффективно использовать технологические инновации. В статье анализируются основные направления, связанные с повышением уровня профессионализма и компетентности учителей. Здесь особое внимание уделяется таким вопросам, как основные компоненты, которые важны в профессиональной деятельности учителей - педагогическое мастерство, методическая подготовка, коммуникативная культура, исследовательские навыки и склонность к саморазвитию. В нем также рассматривается, что должны знать учителя и какие навыки им следует приобрести, с какими трудностями они сталкиваются в своем профессиональном развитии и какие меры следует предпринять в этом направлении.

# MODERN TRENDS IN TEACHER PROFESSIONAL DEVELOPMENT

***Eminov Najaf***

## SUMMARY

Education is a cyclical process that affects the dynamics of the development of society. Among the factors affecting the quality of education, teacher activity occupies an important place. Adjusting the level of professionalism of educators to the established requirements is one of the main directions of the modern education system. In this regard, increasing the attention paid to teacher training plays an important role in improving the quality of the educational process and realizing the goals and objectives of education. Teacher training is not limited only to the formation of pedagogical knowledge and skills, but also includes the teacher's personal development, innovative thinking ability, knowledge of modern teaching methods and the ability to effectively use technological innovations. The article analyzes the main directions related to increasing the level of professionalism and competence of teachers. Here, special attention is paid to such issues as the main components that are important in the professional activity of teachers - pedagogical mastery, methodological preparation, communication culture, research skills and a tendency to self-development. It also examines what teachers should know and what skills they should acquire, the difficulties encountered in their professional development, and the measures to be taken in this direction.

# VALİDEYN-MÜƏLLİM-ŞAGİRD ÜÇBUCAĞINDA KOMMUNİKASİYA: İBTİDAİ TƏHSİLDƏ EFFEKTİV ƏMƏKDAŞLIQ MODELLƏRİ

***Muradova Zəhra Rizvan qızı***
***BDU-nun II kurs magistrantı***
***zahramuradovva@gmail.com***

***Açar sözlər:*** valideyn–müəllim–şagird əməkdaşlığı, kommunikasiya, təhsildə sistemli yanaşma
***Ключевые слова:*** сотрудничество между родителями, учителями и учениками, коммуникация, системный подход в образовании
***Keywords:*** parent–teacher–student collaboration, communication, systematic approach to education.

Müasir təhsil sistemində şagirdin hərtərəfli inkişafını təmin edən əsas amillərdən biri məktəb, ailə və şagird arasında qurulan qarşılıqlı münasibətlərin keyfiyyətidir. Xüsusilə ibtidai təhsil pilləsində bu münasibətlərin düzgün qurulması, şagirdin psixoloji, sosial və akademik inkişafında mühüm rol oynayır. Valideyn–müəllim–şagird üçbucağında formalaşan kommunikasiya məktəb mühitinin sağlamlaşmasına, qarşılıqlı inam və əməkdaşlığa şərait yaradır. Bu isə öz növbəsində təhsilin keyfiyyətinə müsbət təsir edir. Valideyn, müəllim və şagird arasında formalaşan münasibətlər uşağın məktəbdəki uğuruna birbaşa təsir edir. Bu üç tərəf bir-birini tamamlayan və eyni məqsədə xidmət edən əsas sütunlar kimi çıxış edir. İbtidai təhsil mərhələsində bu əməkdaşlıq daha önəmli olur. Çünki bu dövrdə uşaqlar sadəcə oxumağı və yazmağı deyil, həm də sosial qaydaları, ünsiyyət bacarıqlarını və məsuliyyət hissini öyrənirlər. Burada hər bir tərəfin öz rolu və üzərinə düşən vəzifələri var. Xüsusilə valideynlər sistemdən kənarda qalmamalıdırlar. Çünki valideyn – müəllim münasibəti şagird nailiyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, valideynin övladının müəllimi haqqında mənfi rəyi uşağın müəllimi bəyənməməsinə səbəb ola bilər. Alternativ olaraq, müəllimin uşağa qarşı hər hansı mənfi münasibəti valideynin müəllim haqqında təsəvvürünə təsir edə bilər. Ona görə də bu üç tərəf – valideyn, müəllim və şagird – arasında düzgün və səmərəli ünsiyyət qurulmadan ibtidai təhsildə uğur əldə etmək çətinləşir.

Valideynin rolu: Uşaq dünyaya göz açdığı ilk gündən etibarən öyrənməyə başlayır və bu öyrənmənin ilk məkanı ev, ilk müəllimi isə onun valideynidir. Valideynin davranışı, həyat tərzi, danışıq tərzi və dünyaya baxışı – hamısı uşağın ilkin sosial və emosional təməllərinin formalaşmasına təsir edir. Əgər uşaq evdə kitablara hörmətlə yanaşıldığını, sualların maraqla cavablandırıldığını, öyrənməyin dəyərli bir fəaliyyət kimi qiymətləndirildiyini görürsə, bu onun gələcəkdə məktəbə və ümumilikdə təhsilə münasibətini müsbət yöndə formalaşdırır. Uşaq üçün məktəbə başlamaq, əslində yeni və bir qədər də naməlum dünyaya qədəm qoymaq deməkdir. Bu yolda valideynin rolu təkcə çantasını hazırlamaq və ya onu məktəbə aparmaqla bitmir. Əsas və dayanıqlı dəstək uşağın dərsə yanaşmasında, motivasiyasında və özünə inamında özünü göstərir. Valideynin "Sən bacararsan" deməsi, bəzən yüzlərlə təlimat və qaydadan daha təsirli ola bilir. Çünki uşaq ən çox sevdiyi və güvəndiyi insanlardan gələn mesajlara daha həssas yanaşır. Araşdırmalar da bu həqiqəti sübut edir. Müxtəlif tədqiqatlar göstərir ki, valideynlərin övladlarının təhsil həyatına aktiv şəkildə qoşulmaları – yəni müəllimlərlə sıx əlaqədə olmaları, evdə öyrənmə mühitini dəstəkləmələri və uşağın məktəblə bağlı fəaliyyətlərinə maraq göstərmələri – birbaşa şəkildə tədris nəticələrinin yaxşılaşmasına gətirib çıxarır. Belə uşaqlar yalnız daha yaxşı qiymətlər almaqla kifayətlənmir, həm də məktəbə qarşı daha müsbət münasibət bəsləyir, sosial baxımdan daha sağlam ünsiyyət bacarıqları inkişaf etdirirlər. Valideynlərin bu

prosesdə göstərdikləri dəstək fərqli formalarda özünü göstərə bilər. Lakin real həyatda bu ideal mənzərə hər zaman müşahidə olunmur. Bəzən valideynlər işlərinin çoxluğunu, yorğunluqlarını və ya təhsilin yalnız məktəbin öhdəsində olduğunu əsas gətirərək prosesdən kənarda qalırlar. Digər hallarda isə valideynlər həddindən artıq müdaxilə edərək müəllimin işinə qarışır və hər detallı məsələni öz nəzarətinə almağa çalışır. Bu isə təbii ki, müəllim-valideyn münasibətlərində gərginliyə səbəb ola bilər. Əgər tərəflər arasında qarşılıqlı inam və hörmət itərsə, bunun ən çox mənfi təsirini uşaq görür. Bu səbəbdən sağlam və balanslı bir əməkdaşlıq modeli formalaşdırmaq vacibdir. Nə müəllim özünü təkbaşına hər şeyə cavabdeh hiss etməlidir, nə də valideyn prosesi kənardan izləməklə kifayətlənməlidir. Uğurlu təhsil prosesi ancaq birgə əməkdaşlıq, qarşılıqlı anlayış və inamla mümkün ola bilər. Əgər uşaq həm evdə, həm də məktəbdə eyni mesajı – "Sənin inkişafın bizim üçün önəmlidir" – eşidirsə, o zaman özünü daha güvənli hiss edir və öyrənməkdən zövq almağa başlayır (Epstein, 2001).

Müəllimin rolu: İbtidai sinif müəllimi sadəcə bilik ötürən biri deyil. O, uşağın həyatında mühüm rol oynayan, onun düşüncə tərzini, davranış modelini və öyrənməyə münasibətini formalaşdıran ilk və ən təsirli fiqurlardan biridir. Bu yaş dövründə uşaqlar hələ öz şəxsiyyətlərini axtarış mərhələsində olur və müəllim onların baxış bucağına, dəyərlərinə və özlərinə olan inamına birbaşa təsir göstərir. Xüsusilə ibtidai mərhələdə müəllimin uşağa verdiyi diqqət, qayğı və dəstək, onun təhsilə qarşı münasibətində həlledici rol oynayır. Çox zaman bir müəllimin səmimi bir gülümsəməsi, səbirli izahı və kiçik uğurlar üçün verdiyi dəstək, uşağın uzun illər boyu öz içində daşıyacağı bir motivasiya qaynağına çevrilir. Uşaq məktəbi sevirsə, bu sevginin arxasında adətən onu anlayan və dəyər verən bir müəllim dayanır. Müəllimin bu prosesdə yalnız şagirdlə deyil, valideynlə də sağlam və güvənə əsaslanan bir əlaqə qurması olduqca vacibdir. Əgər müəllim və valideyn eyni məqsədə – yəni uşağın inkişafına – yönələrək birlikdə hərəkət edirlərsə, bu zaman nəticələr həm akademik, həm də sosial baxımdan daha uğurlu olur. Araşdırmalar göstərir ki, müəllim-valideyn əməkdaşlığı güclü olduqda, şagirdin məktəbə uyğunlaşması daha rahat keçir, dərs nailiyyətləri artır və məktəbə qarşı olan maraq daha uzunmüddətli olur (Hornby, Garry, 2011). İbtidai sinif müəlliminin əsas funksiyalarını aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

- Valideynlərlə açıq və səmimi ünsiyyət qurmaq: Müəllim yalnız problemləri dilə gətirən tərəf olmamalıdır. Eyni zamanda uşağın inkişafı, irəliləyişi, müsbət davranışları barədə də valideyni məlumatlandırmaq önəmlidir.
- Şagirdə fərdi yanaşmaq: Hər bir uşaq öz aləmində bir dünyadır. Kimisi daha çox dinləməklə öyrənir, kimisi yazmaqla, kimisi isə oyunla. Bəziləri sosial baxımdan aktivdirsə, digərləri daha sakit və daxilə qapanıq ola bilər. Müəllim bu fərqlilikləri diqqətlə müşahidə etməli və hər bir şagirdin təhsil ehtiyacına uyğun fərdi yanaşma formalaşdırmalıdır.
- Kommunikasiya vasitələrindən səmərəli istifadə: Müasir dövrdə texnologiyanın verdiyi imkanlardan düzgün istifadə etməklə müəllim-valideyn əlaqəsini daha dinamik saxlamaq mümkündür.

Unutmayaq ki, uşaqlar müəllimin sadəcə dediklərinə deyil, eyni zamanda necə davrandığına da baxırlar. Səs tonu, mimikası, göz kontaktı – hamısı uşaq üçün bir mesaj daşıyır. Empatiya göstərən, dinləyən, şagirdə zaman ayıran müəllim uşağın məktəblə bağlı təcrübəsini müsbət şəkildə formalaşdırır. Eyni zamanda müəllim, valideyn üçün də bir yol göstərən, istiqamət verən bir bələdçidir. Bəzən valideynlər övladlarının öyrənmə prosesi ilə bağlı nəyi necə etməli olduqlarını bilməyə bilərlər. Bu zaman müəllimin yönləndirici rolu ortaya çıxır. Valideynə sadə, lakin təsirli tövsiyələr verərək evdəki öyrənmə mühitini gücləndirmək mümkündür. Uşaq eyni dili həm evdə, həm məktəbdə eşidirsə, o zaman daha rahat inkişaf edir və özünü daha güvənli hiss edir.

Şagirdin Yeri və Mövqeyi: Uzun illər ərzində təhsil sistemi şagirdi əsasən passiv iştirakçı kimi görüb. Yəni müəllimin dediyini diqqətlə dinləyən, verilən tapşırıqları icra edən və qaydaları pozmadan yerinə yetirən bir fərd kimi yanaşılıb. Bu model uzun müddət dəyişməz olaraq qalsa da, son dövrlərdə artıq bu yanaşmanın öyrənməyə olan təsirləri və çatışmazlıqları daha aydın şəkildə görünməyə başlayıb. Çünki passiv şagird modeli, fərdi düşüncəni, təşəbbüsü və öyrənməyə qarşı daxili motivasiyanı zəif saxlayırdı. Müasir təhsil yanaşmasında isə şagird artıq sadəcə "dinləyici" deyil, öyrənmə prosesinin mərkəzində dayanan aktiv iştirakçıdır. İndi müəllimin əsas məqsədi yalnız bilik ötürmək deyil, həm də şagirdin düşünməsini, sorğu aparmasını və müstəqil şəkildə nəticəyə gəlməsini təşviq etməkdir. Artıq sinif otaqları bir növ dialoq, əməkdaşlıq və qarşılıqlı öyrənmə mühitinə çevrilməlidir. Xüsusilə ibtidai sinif yaşında olan uşaqlar artıq ətraflarında baş verənləri qavramağa, suallar verməyə, fikirlərini ifadə etməyə başlayırlar. Onlar bir tərəfdən öyrənmək istəyirlər, digər tərəfdən isə hiss edirlər ki, bu prosesdə onların da söz haqqı var. Bu mərhələdə uşağın fikirlərinə dəyər verilməsi, onun qərarların formalaşmasında, az da olsa, iştirak etməsi onun özünü daha güvənli hiss etməsinə gətirib çıxarır. Tədqiqatlar da göstərir ki, şagird nə qədər çox öyrənmə prosesinə cəlb olunursa, onun təhsilə olan marağı və məsuliyyət hissi də bir o qədər artır. Uşağın məktəbdə özünü "eşidilən", "dəyərləndirilən" biri kimi hiss etməsi onun həm özünə inamını möhkəmləndirir, həm də sosial münasibətlərini gücləndirir. Şagirdin bu üçtərəfli əməkdaşlıq modelində aktiv iştirak formaları dərslərdə sərbəst fikir bildirmək, öz nailiyyətləri və çətinlikləri barədə danışmaq, öz təhsilinə məsuliyyətlə yanaşmaq, ev tapşırıqlarını vaxtında yerinə yetirmək, dərsə hazır gəlmək, valideyn və müəllim arasında körpü olmaq kimi müxtəlif şəkildə özünü göstərə bilər (Goodall, Janet & Montgomery, Caroline, 2014).

Əgər şagird bu prosesdə yalnız tapşırıqları yerinə yetirən, heç bir sual verməyən və sadəcə başını aşağı salıb çalışan biri kimi qalırsa, bu, onun uzunmüddətli inkişafına mane ola bilər. Passivlik uşağın həm öyrənməyə qarşı marağını azaldır, həm də öz fikrini ifadə etmə qabiliyyətini zəiflədir. Halbuki aktiv və iştirakçı bir yanaşma, uşağın məktəbi sevərək qəbul etməsinə, daha uğurlu nəticələr göstərməsinə və sağlam psixoloji inkişafına zəmin yaradır. Bu baxımdan, müəllim və valideyn birlikdə çalışaraq uşağın fikrini dinləməyi, onu ciddiyə almağı və təhsil prosesinə daha fəal şəkildə qoşmağı qarşılıqlı məqsəd halına gətirməlidirlər. Uşağa "sənin fikrin bizim üçün önəmlidir" mesajı verildikdə, o özünü təkcə müşahidəçi və ya icraçı yox, həm də bu əməkdaşlığın mühüm bir iştirakçısı kimi hiss edir. Bu isə yalnız öyrənməni deyil, bütövlükdə şəxsiyyət inkişafını da dəstəkləyən bir yanaşmadır.

Əlaqə Formaları və Kommunikasiya Mexanizmləri:

Valideyn, müəllim və şagird arasında güclü ünsiyyətin qurulması yalnız bu tərəflərin niyyətindən və istəyindən asılı deyil. Əlaqənin necə və hansı vasitələrlə qurulduğu da bir o qədər önəmlidir. İbtidai sinif mərhələsində bu ünsiyyətin həm rəsmi, həm də qeyri-rəsmi yollarla təşkili və davamlılığı uşağın məktəb həyatında əhəmiyyətli dəyişikliklər yarada bilir. Bu cür ünsiyyət yalnız informasiya ötürmək üçün deyil, həm də qarşılıqlı etimad və əməkdaşlıq mühiti formalaşdırmaq üçün vacibdir.

Rəsmi (formal) ünsiyyət formalarına valideyn iclasları, rəsmi məktublar və bildirişlər, qiymətləndirmə jurnalları və gündəliklər, direktorla görüşlər aiddir. Rəsmi ünsiyyət forması nizamlı və sistemli olsa da, çox vaxt emosional yaxınlıqdan uzaq olur. Bu da tərəflər arasında daha dərin, səmimi əməkdaşlıq qurulmasına maneə törədə bilər.

Qeyri-formal ünsiyyət formalarına telefon zəngləri və mesajlaşma, gündəlik və ya həftəlik şifahi geribildirimlər aiddir. Qeyri-formal ünsiyyət isə müəllimlə valideyn arasında daha səmimi, gündəlik və qarşılıqlı anlaşmaya əsaslanan münasibət qurmağa imkan verir. Bu cür ünsiyyət çox zaman rəsmi qaydalarla tənzimlənmir, lakin onun təsiri çox vaxt daha dərin və davamlı olur. Burada etik çərçivələrə diqqət yetirilməlidir. Müəllimin şəxsi

həyatına müdaxilə etmədən, peşəkar sərhədləri qorumaq həm münasibətlərin keyfiyyətini qoruyur, həm də qarşılıqlı hörməti saxlayır (Hornby, 2011).

Rəqəmsal Texnologiyaların Rolu:

Son illərdə – xüsusilə pandemiya dövründə – təhsildə rəqəmsal texnologiyalar müəllim, valideyn və şagird arasında ünsiyyəti yeni bir mərhələyə daşıdı. Onlayn vasitələrin istifadəsi ünsiyyəti yalnız əlçatan və sürətli etmədi, eyni zamanda daha şəffaf və izlənilə bilən hala gətirdi. Məktəblərdə ən çox istifadə olunan rəqəmsal vasitələrə E-məktəb sistemləri, Zoom, Google Meet, Microsoft Teams, Google Classroom, Moodle və digər LMS sistemləri aiddir. Bütün bu texnoloji imkanlar valideynin təhsil prosesində daha aktiv iştirakçı olmasına şərait yaradır. Lakin bu imkanlardan hər kəs eyni şəkildə yararlana bilmir. Bəzi ailələrdə texniki biliklərin məhdudluğu, internetə çıxış problemi, texnologiyadan istifadəyə qarşı tərəddüdlər bu prosesə əngəl ola bilir. Ona görə də bu yanaşmalar tətbiq olunarkən ailələrin fərqli imkan və şəraitləri nəzərə alınmalı, ehtiyacı olan valideynlərə dəstək mexanizmləri yaradılmalıdır (Borup, Jered; West, Richard E., 2014).

Effektiv Əməkdaşlıq Modelləri:

İbtidai təhsildə uğurlu nəticə əldə etmək üçün valideyn, müəllim və şagird arasında əlaqənin təkcə mövcud olması kifayət deyil – bu əlaqənin sistemli, davamlı və qarşılıqlı hörmətə əsaslanan şəkildə qurulması əsas şərtdir. Belə bir əlaqə modeli uşağın həm akademik uğuruna, həm də psixososial inkişafına birbaşa təsir göstərir. Son illərdə bir çox ölkələrdə bu istiqamətdə müxtəlif əməkdaşlıq modelləri hazırlanaraq tətbiq edilib və bu modellər müxtəlif cəmiyyətlərin ehtiyaclarına uyğun olaraq adaptasiya olunub. Bu modellərdə ümumi cəhət isə uğurlu əməkdaşlıq, qarşılıqlı etimad, birgə məsuliyyət və daimi ünsiyyət üzərində qurulmalıdır (Epstein, 2001; Hornby, 2011).

Epsteinin Ailə–Məktəb Əməkdaşlığı Modeli:

Amerikalı tədqiqatçı Joyce Epstein valideyn-məktəb münasibətlərinə yanaşmada önəmli bir çərçivə təqdim edir. Bu struktur, valideyni sadəcə nəzarətçi və ya müşahidəçi deyil, bərabərhüquqlu tərəfdaş kimi nəzərdən keçirir. Bu model sadə, lakin çevik yanaşması ilə fərqli təhsil mühitlərində uğurla tətbiq olunur. Əsas fikir ondan ibarətdir ki, məktəb və ailə bir-birini tamamlayan iki sütundur – biri olmadan digərinin funksiyası yarımçıq qalır.

Finlandiya Təcrübəsi:

Finlandiya təhsil sistemi son illər bütün dünyada nümunə kimi göstərilir. Burada məktəb-valideyn münasibətləri “partnyorluq” prinsipinə əsaslanır. Yəni valideyn və müəllim uşaq üçün ortaq məsuliyyət daşıyır və qərarları da birgə qəbul edirlər. Finlandiya məktəblərində müəllim valideynlə yalnız akademik məsələləri deyil, eyni zamanda uşağın emosional vəziyyətini də açıq şəkildə müzakirə edir. Bu yanaşma uşağın özünü həm məktəbdə, həm də evdə təhlükəsiz və dəyərli hiss etməsinə kömək edir.

Yerli Kontekstdə Tətbiq İmkanları:

Azərbaycanda son illərdə məktəblərdə bir sıra pozitiv təşəbbüslər həyata keçirilməyə başlayıb. Açıq dərslər, valideyn seminarları, elektron jurnallar, məktəb tədbirlərində valideyn iştirakının təşviqi və s. kimi fəaliyyətlər təhsil mühitində müsbət dəyişikliklərə zəmin yaradır. Ancaq bu fəaliyyətlər çox vaxt sistemli yanaşmadan uzaq, fərdi müəllimlərin təşəbbüsünə bağlı şəkildə həyata keçirilir və məktəbdən məktəbə əhəmiyyətli dərəcədə fərqlənir. Araşdırmalar göstərir ki, məktəbdə belə əməkdaşlıq mədəniyyəti formalaşdıqda, şagirdlər özlərini daha təhlükəsiz, motivasiyalı və məktəbə bağlı hiss edirlər. Bu isə nəticə etibarilə daha yüksək akademik nəticələrə və müsbət davranış formalaşmasına səbəb olur.

İbtidai Təhsildə Əməkdaşlığın Qarşısında Duran Çətinliklər və Onların Həlli Yolları

Valideyn–müəllim–şagird əməkdaşlığı nəzəri cəhətdən nə qədər ideal və vacib görünsə də, real məktəb mühitində bu münasibətləri qurmaq və qorumaq bəzən asan olmur. Praktikada müxtəlif sosial, psixoloji və təşkilati problemlər ortaya çıxır. Amma bu

çətinliklər qətiyyən həllolunmaz deyil. Əsas məsələ onları doğru tanımaq və çevik yanaşmalarla aradan qaldırmaqdır.

Ən çox rast gəlinən çətinliklərdən biri valideynlərin məktəb həyatına az qoşulmasıdır. Bir çox valideyn övladının təhsilini tam şəkildə məktəbin öhdəsinə buraxır. İş həyatının gərginliyi, evdəki məsuliyyətlər, bəzən isə sadəcə psixoloji uzaqlıq onların prosesdən geri qalmasına səbəb olur. Bu da uşağın məktəbə münasibətinə dolayısı ilə təsir göstərir. Digər tərəfdən, bəzi valideynlər sadəcə özlərinin məktəb təcrübələrinə əsaslanaraq təhsilin müasir tələblərindən xəbərsiz olurlar. Bəziləri isə özlərini müəllim və ya məktəb həyatında rol sahibi hesab etmədikləri üçün bir növ "kənardan izləyici" mövqeyində dayanırlar. Əməkdaşlıq adətən qarşılıqlı inam və hörmət üzərində qurulmalıdır. Əməkdaşlığın təməlində anlayış və məlumatlılıq dayanır. Bu səbəbdən valideynlər üçün qısa, anlaşıqlı, sadə dildə təqdim olunan təlimlər və seminarlar hazırlanmalıdır. Bu materiallarda valideynin təhsildəki rolu, uşağın öyrənməsinə necə dəstək ola biləcəyi, müəllimlə düzgün ünsiyyətin yolları göstərilməlidir. Bu işdə psixoloq, sinif rəhbəri və məktəb rəhbərliyi birlikdə iştirak etməlidir.

Araşdırmalar da göstərir ki, əməkdaşlığın gücləndirilməsi təkcə fərdi təşəbbüslərlə deyil, məktəb səviyyəsində strateji yanaşma ilə mümkündür. “School–Family Collaboration: A Case Study in Azerbaijan” adlı tədqiqatın nəticələri də bu fikri dəstəkləyir. Bu araşdırma Bakı məktəblərində müəllim-valideyn münasibətlərində bəzən yalnız hesabat və formal iclasların ön planda olduğunu, lakin səmimi və məqsədyönlü ünsiyyətin çox zaman çatışmadığını göstərir. Müəlliflər bu problemi şəxsi münasibətlərin yoxluğu və maarifləndirici dəstəyin azlığı ilə izah edirlər və daha sistemli yanaşmaların tətbiqini təklif edirlər. İbtidai təhsil mərhələsində qurulan bu əməkdaşlıq modeli təkcə bir tədris ili üçün deyil, uşağın gələcək məktəb və cəmiyyət həyatına qoyulan əsaslı bir təməldir. Bu təməli möhkəm qurmaq üçün isə tərəflər – valideyn, müəllim və şagird – hər biri öz üzərinə düşəni bilməli və məsuliyyətlə yerinə yetirməlidir (Alizadə, G., və Bilgin-Aksu, M., 2021).

## ƏDƏBİYYAT

1. Alizadə, G., və Bilgin-Aksu, M. (2021). Məktəb–ailə əməkdaşlığı: Azərbaycan nümunəsi üzrə tədqiqat. Electronic Turkish Studies, 16(3), 31–45.
2. Hornby, Garry — Parental Involvement in Childhood Education: Building Effective School-Family Partnerships (Springer, 2011).
3. Goodall, Janet & Montgomery, Caroline — “Parental involvement to parental engagement: a continuum.” Educational Review, Vol. 66, No. 4 (2014).
4. Borup, Jered; West, Richard E.; Graham, Charles R.; Davies, Randall S. — “The adolescent community of engagement framework: A lens for research on K-12 online learning.” Journal of Technology and Teacher Education, 22(1): 107-129, 2014.
5. Epstein, J. L. (2001). School, family, and community partnerships: Preparing educators and improving schools.

# VALİDEYN-MÜƏLLİM-ŞAGİRD ÜÇBUCAĞINDA KOMMUNİKASİYA: İBTİDAİ TƏHSİLDƏ EFFEKTİV ƏMƏKDAŞLIQ MODELLƏRİ

***Muradova Zəhra***

## XÜLASƏ

Bu məqalədə ibtidai təhsildə valideyn, müəllim və şagird arasında formalaşan qarşılıqlı əlaqənin təhsilin keyfiyyətinə təsiri araşdırılır. Əsas məqsəd bu üç tərəf arasında səmərəli kommunikasiya və əməkdaşlığın uşağın inkişafına necə təsir etdiyini müəyyənləşdirməkdir. Araşdırma göstərir ki, ailə və məktəb arasında qurulan güclü əməkdaşlıq uşağın motivasiyasını və öyrənmə nəticələrini artırır. Müəllimin açıq ünsiyyət tərzi və valideynin təhsildə fəal iştirakı şagirdin psixoloji və sosial inkişafını dəstəkləyir. Məqalədə həmçinin kommunikasiya problemləri və onların həlli yolları müzakirə edilir.

# КОММУНИКАЦИЯ В ТРЕУГОЛЬНИКЕ РОДИТЕЛЬ-УЧИТЕЛЬ-УЧЕНИК: ЭФФЕКТИВНЫЕ МОДЕЛИ СОТРУДНИЧЕСТВА В НАЧАЛЬНОМ ОБРАЗОВАНИИ

***Мурадова Захра***

## АННОТАЦИЯ

В данной статье рассматривается влияние взаимодействия родителей, учителей и учащихся на качество образования в начальной школе. Основная цель — определить влияние эффективного общения и сотрудничества между этими тремя сторонами на развитие ребёнка. Исследования показывают, что тесное сотрудничество семьи и школы повышает мотивацию детей и улучшает их успеваемость. Открытый стиль общения учителей и активное участие родителей в образовательном процессе способствуют психологическому и социальному развитию учащихся. В статье также рассматриваются проблемы общения и пути их решения.

# COMMUNİCATİON İN THE PARENT-TEACHER-STUDENT TRİANGLE: EFFECTİVE COLLABORATION MODELS İN PRİMARY EDUCATİON

***Muradova Zahra***

## SUMMARY

This article examines the impact of interactions between parents, teachers, and students on the quality of education in primary schools. The main objective is to determine the impact of effective communication and cooperation between these three parties on child development. Studies show that close cooperation between families and schools increases children's motivation and improves academic performance. Teachers' open communication style and active participation of parents in the educational process contribute to the psychological and social development of students. The article also discusses communication problems and ways to solve them.

# MİLLİ QİYMƏTLƏNDİRMƏ TƏHSİLİ ÖYRƏNMƏK ÜÇÜN APARILAN TƏDQİQATDIR

***p.ü.f.d. Hüseynova Cəmilə Sabir qızı***
***BDU-nun Pedaqogika kafedrasının müəllimi***
***axundovacmil@gmail.com***

***Açar sözlər:*** milli qiymətləndirmə, şagird nailiyyətləri, təhsil sistemi, kurikulum
***Ключевые слова:*** Национальная оценка, Учебные достижения, Система образования, Учебные программы (куррикулум)
***Keywords:*** National assessment, Student achievement, Education system, Curriculum.

Şagird nailiyyətlərinin yoxlanması üçün milli qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsi təhsil siyasətində önəmli yer tutur. Milli qiymətləndirmə təhsili öyrənmək üçün aparılan tədqiqatdır və bu tədqiqatın məqsədi ayrı-ayrı şagirdlərin imtahan nəticələrini öyrənmək deyil, ümumilikdə təhsilə qiymət verməkdir. Milli qiymətləndirmədə təhsillə bağlı bütün amillər tədqiqata cəlb edilir, şagird ana dili və riyaziyyat fənləri üzrə verilən suallarla yanaşı, onun təhsilə münasibətini, yaşadığı mühitin təhsilə təsirini öyrənən sorğulara da cavab verir. Geniş və ətraflı təhlil aparmaq məqsədilə tərtib olunan sorğu kitabçaları həmin şagirdlərin valideynləri, fənn müəllimləri və təhsil aldıqları məktəb direktorları üçün də hazırlanır. Nəticədə təhsilə təsir edən bütün amillər ən xırda təfərrüatına qədər təhlil edilmək imkanı qazanır.

Bu təcrübədən ilk dəfə Amerika federal hökuməti 1969-cu ildə ölkədə şagirdlərin nailiyyətlərinin təhsil standartlarına uyğunluğunu öyrənmək üçün istifadə etmiş və sonrakı illərdə fənn üzrə təlim standartlarının hazırlanmasında, təkmilləşdirilməsində milli qiymətləndirmənin göstəriciləri nəzərə alınmışdır. Bu təcrübənin səmərəliliyi onun daha geniş yayılmasına və digər ölkələrdə də müvəffəqiyyətlə tətbiq olunmasına gətirib çıxardı. Hazırda dünyanın əksər ölkələrində milli qiymətləndirmə tədqiqatları həyata keçirilir.

Məlumdur ki, təhsil standartlarının hazırlanmasında təhsilalanların fənlərin məzmununa dair bilik və bacarıqlarını nə dərəcədə reallaşdıra bilməsini müəyyənləşdirmək çox mühüm əhəmiyyətə malikdir. Təhsil standartlarına qoyulan tələb təhsilalanların potensial imkanlarını aşmamalıdır, eyni zamanda bu imkanlardan da aşağı olmamalıdır. Bu baxımdan, təhsilə qoyulan tələblə şagirdlərin potensial imkanlarının uyğunluğunu yoxlamaq üçün ən optimal yol milli qiymətləndirmənin aparılmasıdır.

Təhsilin bir səviyyəsindən digərinə keçid zamanı, yəni 4 və 9-cu siniflərdə aparılan milli qiymətləndirmədə ölkədə təhsil alan bütün şagirdlərin iştirakı mütləq deyil. Çünki bu qiymətləndirmədə şagirdlərin seçimi kəmiyyətə görə deyil, digər parametrlərə əsasən aparılır. Seçilən məktəblər yerləşdiyi əraziyə, tipinə, statusuna görə müəyyənləşdirilir. Milli qiymətləndirməyə cəlb edilən məktəblər həm ölkə paytaxtını, paytaxtın mərkəzini və şəhər ətrafını, bütün bölgələri və ucqar dağ kəndlərini təmsil etməklə tipinə görə ibtidai, əsas və orta məktəblərini, lisey, gimnaziya və internatları əhatə edir. İndiyə qədər Azərbaycanda aparılan milli qiymətləndirmə seçmə üsuluna əsaslanıb.

Eyni zamanda dünyada seçim etmədən ölkənin bütün məktəblərini əhatə edən milli qiymətləndirmə aparmaq təcrübəsi də var. Ölkənin bütün məktəblərinin 9-cu siniflərində ana dili və riyaziyyat fənləri üzrə mərkəzləşdirilmiş qaydada yoxlama və buraxılış imtahanlarının keçirilməsi belə bir təcrübənin Azərbaycanda yalnız 4-cü siniflərdə reallaşdırılmasını tələb edir. Qeyd edək ki, 2013-cü ildə ibtidai təhsil səviyyəsinin sonunda (4-cü sinifdə) bütün ölkədə milli qiymətləndirmənin aparılması nəzərdə tutulur.

Həmin ildə fənn kurikulumlarının tətbiq olunduğu siniflərin ibtidai təhsil səviyyəsini başa vurması milli qiymətləndirmənin aparılmasının əhəmiyyətini daha da artırır.

Təhsil Sektorunun İnkişafı üzrə II layihə çərçivəsində milli qiymətləndirmə 2009-cu il 12-28 may tarixlərində respublikanın seçilmiş 216 məktəbində həyata keçirildi. Məktəblərin və şagirdlərin seçimi üçün istifadə olunan məlumatlar Təhsil Nazirliyinin məlumat bazasından götürülərək xüsusi kompüter proqramına yerləşdirildi. Həmin məlumatlar aşağıda göstərilən prinsiplər əsasında yığıldı:

- İqtisadi regionlar;
- İqtisadi regionlara daxil olan rayonlar;
- Hər rayondakı orta, əsas və ibtidai məktəblərin sayı;
- Məktəbdəki 4-cü və 9-cu siniflərin sayı;
- Məktəblərin Azərbaycan bölməsinin 4 və 9-cu siniflərində təhsil alan şagirdlərin sayı;
- 4-cü və 9-cu siniflərdə dərs deyən ana dili və riyaziyyat müəllimlərinin sayı.

Tədqiqatda 4-cü və 9-cu siniflər üzrə 11 822 nəfər iştirak etdi.

Seçim edilərkən müəyyən meyarlar əsas götürüldü. Bu prosesdə şagirdlər ilkin olaraq oğlan qız, şəhər və kənd kriteriyaları üzrə bölündülər.

Tədqiqat üçün məqsədli olaraq bəzi meyarlar da müəyyən edildi. Məsələn, Dünya Bankı tərəfindən Təhsilin İnkişafı üzrə İkinci Layihə çərçivəsində respublikanın bir sıra ümumtəhsil məktəblərinin kitabxanalarının zənginləşdirilməsi nəzərdə tutulur. Bu siyahıda olan məktəblərin içərisindən də müəyyən sayda məktəblər hədəf qrupu kimi tədqiqata cəlb edildi və həmin məktəblərin şagirdləri ilə də tədqiqat aparıldı. Məqsəd həmin məktəblərdə mövcud vəziyyəti bilmək və növbəti milli qiymətləndirmələr zamanı kitabxanaların təkmilləşdirilməsinin şagirdlərin nailiyyətlərinə necə təsir etdiyini öyrənməkdir.

Milli qiymətləndirmə tədqiqatlarının uğurla həyata keçirilməsi üçün ən vacib şərtlərdən biri həqiqiliyin və etibarlılığın tələblərini ödəyən qiymətləndirmə vasitələrinin hazırlanmasıdır. Qiymətləndirmənin həqiqiliyi onun məqsədinin birbaşa hədəfə yönəlməsi, yəni ölçmək istədiyimizi ölçməyimizdir.

Etibarlılıq isə qiymətləndirmə vasitələrinin tam bu məqsədə yönəldiyini müəyyən edir. Məsələn, biz şagirdin riyazi bilik və bacarığını ölçmək istədiyimiz halda, tapşırığın şərtini şagirdin başa düşə bilməyəcəyi tərzdə yazsaq, məqsədə nail ola bilmərik.

Bu şərtləri əsas tutaraq tədqiqat keçirmək üçün qiymətləndirmə vasitələri hazırlandı və bir neçə məktəbdə ilkin sınaqdan keçirildi. Bu sınağı keçirməkdə məqsəd testlərin ağırlıq səviyyəsini düzgün müəyyənləşdirmək idi. İlkin sınağın nəticələri göstərdi ki, qiymətləndirmə vasitələri tədqiqatın əsas tələblərinə cavab verir.

4-cü siniflər üzrə isə 6041 nəfər şagirdin 64,9%-i ana dilindən, 75%-1 riyaziyyatdan sualların 20%-indən çoxuna düzgün cavab verib.

9-cu siniflər üzrə 5781 nəfər şagirdin 54%-i ana dilindən, 46.6%-i riyaziyyatdan sualların 20%-indən çoxuna düzgün cavab verib.

4-cü və 9-cu siniflərin şagirdləri, həmin siniflərdə dərs deyən ana dili və riyaziyyat müəllimləri, məktəb direktorları və valideynlər üçün hazırlanmış anket sorğularının təhlili milli qiymətləndirmənin ən maraqlı mərhələsidir.

Şagird üçün sorğu anketində onun ailə şəraiti, məktəbdənkənar fəaliyyəti, təhsilə, ana dili və riyaziyyat fənlərinə, müəllimlərə, dərslərə, dostlarına, məktəbin şəraitinə münasibəti, məktəbin onun üçün əhəmiyyəti haqqında suallar verilmişdir.

Müəllimlər üçün sorğuya onların yaşı, pedaqoji stajı, tahsili və iş təcrübəsi, istifadə etdiyi təlim və qiymətləndirmə metodları barədə suallar daxil edilmişdir.

Məktəb direktoru ilə sorğunun aparılmasında məqsəd tədris şəraitinin, məktəbin daxili qaydalarının şagirdlərin nailiyyətlərinə təsirini öyrənməkdir.

Valideynlərlə sorğu keçirməkdə məqsəd şagirdlərin valideynlərinin müəyyən hissəsinin cavablarını övladlarının nəticələri ilə qarşılaşdıraraq təhlil aparmaq və ailə mühitinin şagirdin nailiyyətinə təsirini öyrənməkdir.

Testlərdə iştirak edən 11822 nəfər şagird, 216 məktəb direktoru, həmin məktəblərdə işləyən 600 nəfərdən çox ibtidai sinif, ana dili və riyaziyyat müəllimi, 2000 nəfərdən çox valideyn sorğu anketinə cavab vermişdir.

Şagird sorğusunun nəticələrinə görə, şəhər və kənd məktəblərinin hər iki sinif üzrə şagirdlərinin nailiyyət səviyyəsi arasında fərqlər var və yüksək nəticə şəhər məktəblərinə məxsusdur. Şəhər məktəblərində şagirdlərin yüksək nəticələri məktəblərin texniki təchizatının daha yaxşı səviyyədə olması, yüksək səviyyəli müəllim kadrlarının şəhər məktəblərində toplanması ilə izah oluna bilər. Valideynləri tərəfindən qayğı ilə əhatə olunan və təhsili üçün normal şərait yaradılan şagirdlərin nəticələri müxtəlifdir. Belə şagirdlərin 76%-i hər iki fənnə ciddi yanaşdığını və gələcək həyatlarında bu fənlərin əhəmiyyətini başa düşdüklərini göstərirlər. IX sinif şagirdlərinin 60%-i ev təsərrüfatının idarə olunmasında valideynlərinə kömək etdiklərini göstərib ki, bunlar da əsasən kənd məktəbliləridir. Bu şagirdlərin əksəriyyəti vaxt azlığından dərslərə diqqət yetirə bilmədiklərini bildirib. Buna baxmayaraq, həmin şagirdlərin 30%-i suallara yaxşı cavab verib. Şagirdlərin riyaziyyatı sevməsi onların nəticələrinə müsbət təsir göstərir. Riyaziyyatı çox sevən şagirdlərin 50,4%-i, riyaziyyatı heç sevməyən şagirdlərin isə 39,1%-i yaxşı nəticə göstərib. Şagirdlərin ana dili fənninə münasibəti onların nəticələrində hiss olunmur. Belə ki, şagirdlərin 71,7%-i ana dilini sevmədiyini göstərsə də, onların 65 %-i sualların 20%-nə düzgün cavab verib. Dərs oxumaq üçün sakit guşəsi, kompüteri, kalkulyatoru və digər ləvazimatları olan 4-cü sinif şagirdlərinin nəticələri digərlərinə nisbətən yüksək olub. Suallara yaxşı cavab verən 9-cu sinif şagirdlərinin 72,8%-nin dərs oxumaq üçün sakit guşəsi, kompüteri, kalkulyatoru və digər vəsaitləri var.

Müəllimlərin sorğusundan aydın olmuşdur ki, ibtidai siniflərdə dərs deyən müəllimlərin çoxu gənc və orta yaşlı mütəxəssislərdir. 4-cü sinif müəllimlərinin

62%-i, 9-cu sinif müəllimlərinin 56% -i 20-50 yaş arasındadır. Müvafiq olaraq yaşı 70-dən çox olan müəllimlər 9% və 10% təşkil edir. Hər iki sinifdə orta yaşlı müəllimlərin şagirdlərinin nailiyyətləri digərlərindən yüksəkdir. 9-cu sinif müəllimlərinin 70%-i şagirdlərinin dərslərdə onların köməyi olmadan, sərbəst işlədiyini bildirir. Müəllimlər əsasən şagirdlərin fərdi şəkildə işləməsinə üstünlük verir. Qeyd edək ki, kiçik qruplarla tez-tez iş aparan müəllimlərin şagirdləri sorğulara daha aydın və əhatəli cavab verib. Bu, şagirdlərin məsələyə yaradıcı yanaşmasından irəli gəlir.

Məktəb direktorlarının cavablarından belə qənaətə gəlmək olar ki, tədrisin vəziyyətinin yaxşılaşmasına mane olan əsas amil bacarıqlı müəllimlərin çatışmazlığı və texniki təlim vasitələrinin tələblərə uyğun olmamasıdır. Məktəb direktorlarının 97%-i dərsləri mütəmadi olaraq müşahidə etdiyini göstərir və müəllimlərin öz üzərində çalışması üçün onlara tövsiyələr verdiyini göstərir. Lakin təəssüf ki, bu deyilənlərin şagirdlərin nəticələrinə təsiri hiss olunmur.

Eyni zamanda valideynlərin təhsil səviyyəsinin də şagirdlərin nəticələrinə təsiri olmadığı görünür. Belə ki, 4-cü sinif şagirdlərinin valideynlərinin təxminən 40%-i orta, 29%-i orta-ixtisas və təxminən 28%-i ali təhsillidir. 9-cu sinif şagirdlərinin valideynlərinin təxminən 37%-i orta, 29%-i orta-ixtisas və təxminən 32%-i ali təhsillidir. Lakin bu göstəricilər şagirdlərin nəticələrinə əhəmiyyətli təsir etməmişdir.

2009-cu ildə seçmə yolu ilə aparılan Milli qiymətləndirmənin nəticələri aşağıdakı məsələləri aktuallaşdırır.

1. Bu nəticələrdən ümumi orta və tam orta təhsil səviyyəsi üçün fənn kurikulumlarının hazırlanması prosesində istifadə edilməli, biliyin bacarığa çevrilməsini təmin etmək

məqsədilə dərsliklərdə verilən oxu və anlama bacarıqlarını inkişaf etdirən mətnlərin və bu yönümlü qiymətləndirmə vasitələrinin sayı artırılmalıdır.

2. Ana dili fənni üzrə dərsliklərdə oxu bacarıqlarının inkişafına kömək edən, riyaziyyat fənni üzrə dərsliklərdə məntiqi təfəkkür tələb edən tapşırıqlara geniş yer verilməlidir.

3. Həndəsə fənninin tədrisi vəziyyəti yaxşılaşdırılmalıdır.

4. Təcrübəli müəllimlərin şagirdlərinin testlərdə daha yaxşı nəticələr göstərdiyini nəzərə alaraq, 5 ilə qədər pedaqoji iş stajına malik olan müəllimlərin ixtisasartırma kurslarına cəlb edilməsinə xüsusi diqqət yetirilməlidir.

5. Yeni qiymətləndirmə qaydaları ilə işləmək bacarıqlarını inkişaf etdirmək üçün fənn müəllimləri təlim kurslarına cəlb edilməlidir.

6. Ailədə uşaqların təhsilinə mane olan amilləri aradan qaldırmaq məqsədilə məktəb-valideyn əlaqələri gücləndirilməli və RTŞ-lar tərəfindən bu məsələdə kənd məktəblərinə xüsusi diqqət yetirilməli, məktəb direktorlarının müəllimlərə metodiki kömək göstərmək sahəsində və şagirdlərin fəallığının artırılmasına yönəlmiş fəaliyyəti gücləndirilməlidir.

## ƏDƏBİYYAT

1. L.Qasımova, V.Mahmudov, X.Seyidov. Monitorinq və qiymətləndirmənin ölçülər nəzəriyyəsi.
2. L.Qasımova, R.Mahmudova. Pedaqogika
3. M.İsmixanov, R.Bəxtiyarova. Məktəbin idarə edilməsi
4. M.İsmixanov, S.Vəliyeva, E.Mollayeva. Təhsilin əsasları

## MİLLİ QİYMƏTLƏNDİRMƏ TƏHSİLİ ÖYRƏNMƏK ÜÇÜN APARILAN TƏDQİQATDIR

***Cəmilə Hüseynova***

## XÜLASƏ

Milli qiymətləndirmə təhsil sisteminin vəziyyətini və şagird nailiyyətlərinə təsir edən amilləri müəyyənləşdirmək üçün aparılan tədqiqatdır. 2009-cu ildə Azərbaycanda keçirilən tədqiqat göstərmişdir ki, şəhər şagirdləri daha yüksək nəticə göstərir, dərs şəraiti və müəllim təcrübəsi nailiyyətlərə təsir edir. Nəticələr kurikulumun, dərsliklərin və müəllim hazırlığının təkmilləşdirilməsinin vacibliyini ortaya qoyur.

## НАЦИОНАЛЬНАЯ ОЦЕНКА — ЭТО ИССЛЕДОВАНИЕ, ПРОВОДИМОЕ ДЛЯ ИЗУЧЕНИЯ ОБРАЗОВАНИЯ

***Джамиля Гусейнова***

## АННОТАЦИЯ

Национальная оценка — это исследование, проводимое с целью изучения системы образования и факторов, влияющих на учебные достижения школьников. Исследование, проведённое в Азербайджане в 2009 году, показало, что учащиеся городских школ демонстрируют более высокие результаты, а условия обучения и опыт учителей существенно влияют на успеваемость. Полученные данные подчёркивают важность совершенствования учебных программ, учебников и повышения квалификации педагогов.

# NATIONAL ASSESSMENT IS A STUDY CONDUCTED TO EXAMINE EDUCATION

***Camila Huseynova***

## SUMMARY

National assessment is a study conducted to examine the state of the education system and the factors influencing student achievement. The study carried out in Azerbaijan in 2009 showed that urban students perform better, and learning conditions as well as teacher experience significantly affect outcomes. The results highlight the importance of improving curricula, textbooks, and teacher training.

# ВОСПИТАНИЕ ПАТРИОТИЗМА КАК ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

***Тагиева Гамар Гусейнали кызы***
***доцент кафедры Педагогики***
***gamartagiyeva@gmail.com***

***Ключевые слова:*** патриотизм, национально-нравственные ценности, образование, педагогическая проблема
***Açar sözlər:*** vətənpərvərlik, milli-mənəvi dəyər, tərbiyə, pedaqoji problem
***Keywords:*** patriotism, national-moral value, education, pedagogical problem

Термин "патриот" впервые появился во время Французской революции 1789-1793 годов. Патриоты в то время утверждали, что являются солдатами гражданского дела, защитниками республики, а не предателями и предателями родины в лагере монархистов.

В толковом словаре В. И. Даля значенье этого слова объясняется следующим образом: патриот- любящий родину, фанатичный за страну, за отчизны. Моральное содержание этого понятия более ясно определено в философском словаре: Патриотизм (греч. РаШз - родина) - это своего рода психологически-политичсский принцип, своего рода социокультурное чувство, а его содержанием является влюблённость к Родине, преданность родине и горделивость за Родину. Сквозь века пронеслось стремление оградить интересы родины.

Что такое "патриотизм” и какого человека нельзя назвать патриотом? Патриотизм - это влюблённость к Родине, преданность Родине, устремление к интересам Родины и готовность оберегать родину любой ценой самопожертвования. Патриотизм - одна из устойчивых характеристик индивидуума, которая проявляется в его мировоззрении, нравственных эталонах и нормах поведения.Кроме того, она представляет собой значимую часть обще ствснного сознания, которая отразивасгся в коллективных эмоциях, чувствах и характеристиках, связанных с людьми, образом жизни, историей, цивилизацией, страной и основной системой ценностей. Патриотизм воплощается в поступках и поведениях человека. Он всегда конкретен и направлен на действительные цели. Он проистекает из любви к маленькой Родине и перерос в национально-патриотическую самоидентификацию. Патриотизм - это моральная основа самосохранения страны, и это важная внутренняя консолидация ресурсов для социального развития, активной! военной позиции и подготовки к служению Отчизне.

Быть патриотом и полнокровным гражданином - это прежде всего быть созидателем своего особняка, своей земли и интеллектуально грудиться на благополучие Родины.

Приняться патриотом - значит делить духовные и моральные ценности нашего народца, быть верным эталонам наших отцов и дедушек, понимать и обожать историю и цивилизацию этой страны.

Приняться патриотом - следовательно стать любящим племянником или дочерью, приняться хорошим отчимом или матерью, растить детей и правнуков, укреплять семьи.

Патриотизм распространяется на все сферы общественной жизни: идеологию, геополитику, право, цивилизацию, экономику, воспитание, экологию и т.д. Прежде всего, это выявляется в мыслях и эталонах.

Национальная концепция духовно интегрирует общество и создаёт предпосылки для его цельности.

Чувство патриотизма человека - это трудное целостное воспитание, которое сочетает в себе систему знаний о своих генных корнях, осознание окружающих социокультурных реалий, закономерностей и перспектив становления, подготовку к поэтической деятельности и самозащиту Родины как основой мотивации жизни в дискурсе собственных будущностей.

В структуре патриотического сознания нельзя выделить обилие взаимосвязанных подуровней: логическое постижение, эмоциональная саморегуляция и ценностная семантика.

Логический когнитивный элемент сознания охватывает сфера человеческого мышления. С подмогой мышления человек выбегает за пределы данных плотского опыта и входит в значительные характеристики объектов. Основой целью формирования этого подуровня патриотического сознания является развитие мышления и обслуживание мировоззренческого слоя в структуре личности. На этом уровне впечатан фундамент общей патриотической личности, что отражено на четвертом уровне. Особенностью патриотического сознания первого подуровня является то, что оно фокусируется на настоящем и ищет духовные и мировоззренческие корни азербайджанских этнографических традиций и героических фактов. На основе общих определений и операций логического мировосприятия человек приобретает миропонимание и общекультурные знания о своей Отчизне, прошлом и настоящем и сознает свое положение в обществе в этом дискурсе.

Второй уровень патриотического сознания связан с психоэмоциональной составляющей. Он представляет сфере личных и субъективных психофизиологических переживаний, мыслей и предчувствий. Формирование психоэмоционального ноля патриотического сознанья включает в себя эмоциональное состоянье индивида (стресс, предчуствис, опасность, бессмысленный навык) и эмоции (положительные и положительные).

Третий уровень структуры патриотического сознания обеспечен со смысловыми составляющими ценностями. Там воплощаются высшие мотивировки, духовные и нравственные эталоны, культурные и исторические ценности деятельности, поведения и взаимоотношений окружающего социального пространства. Этот подуровень развивается на основе вторых двух: приобретенные познания закрепляются на ценностях через чуства как мотивирующую силу.

Азербайджанский патриотизм характеризуется гуманистической целенаправленностью белорусской патриотической мыслишки, религиозной терпимостью, несоблюдением законов, стремлением щества к стабильности и потребностями индивидуальной жизни, а также особой любовью к тамошней природе.

Воспитание взрослеющего поколения в сознательных согражданах и настоящих патриотах - это многообразный процесс, который охватывает рядок задач: воспитание влюблённости и привязанности к семьям, гимназиям, улицам и городам; становление чувства гордости за отчизну, уважение к природе, почтение к трудящимся и уважение к защитникам Отчизны; и интерес к явлениям общественной жизни, традициям и обычаям людей.

Решение этих проблем содействует правильному выбору учителями способов, приемов и форм националистического воспитания учащихся первоначальных классов.

Работа в гимназиях дает хорошую способность привить школьникам националистические качества и развить у них базовые опыты гражданского поведения. Преподавателя должны обеспечивать дискретность патриотического воспитания, соотноситься возрастным особенностям обучающихся младших классов и трудиться

вместе между школой и семьей. Школьный возраст наиболее подбегает для воспитания интереса к социокультурным явлениям и общим делам.

Патриотическое воспитание является неотъемлемой частью процесса воспитания всего народа, воображает собой систематическую и целенаправленную рг-деятельность государственных органов и социокультурных групп по воспитанию сограждан с высоким чувством интернационализма, верности Родине, боеготовности выполнять гражданские функции и конституционные обязательства. Оберегать интересы Родины.

Националистическое воспитание должно быть плановопредупредительным, систематическим и постоянным и является одним из приоритетных правлений национальной политики в сфере образовательной деятельности.

Задачей патриотического воспитания является развитие высокой уровни социальной активности, военной ответственности, а также воспитание граждан с отрицательными ценностями и качествами, которые может быть отражены в процессе самосовершенствования на благо Родины, упрочения страны, обеспечения ее жизненных интересов и устойчивого становления.

Руководствуясь принципами националистического воспитания, учителей умоляют помочь укрепить чувства азербайджанского патриотизма, приязни народов и религиозной толерантности.

Принципы патриотического воспитанья представляют собой взаимосвязанную и непротиворечивую систему, которой руководствуются преподавателя для обеспечения эффективной актуализации образовательных целей и сверхзадач, отражают содержание воспитания и воспитания в образовательной методике и подчиняются обязательным условьям, регулируемым обществом. Деятельность по патриотическому воспитанью образовательных и культурных госучреждений, общественных организаций, стимулирований массовой информации. В соответствии с принципом патриотического воспитания мы относим конструирование образования к

- Укреплять единение и целостность Республики Азербайджан
- Учитывать особенности разных групп населения (школьники, учащиеся младших классов средней школы, подростки, школьники, студенты, государственные служащие, солдаты, городские и сельские обитатели) в сфере образования
- Оказание мирному урегулированию антагонизмов и конфликтов
- Обеспечить равноправие прав человека и военных прав и свобод, безотносительно от расы, национальности, диалекта и религиозных убеждений
- Народность, гражданственность - сочетание интернационализма и общечеловеческого воспитания

Каждое поколение формирует общенациональную идентичность и открытость к ценностям других этнических подгрупп

- Защищать национальную цивилизацию, язык и традиции
- Обслуживание культурного взаимодействия между странами

Обеспечивать патриотическое воспитание

Нормативно-правовое обслуживание: совершенствование нормативно юридической базы, определение социокультурного и правового статуса националистического воспитания, а также ролей, местечек, задач и функций каждого государственного учреждения, ведомства и корпорации; создание базы националистического воспитания в системе воспитания.

Учебно-методическое обслуживание: формулировать учебные и дополнительные планы, организовывать и реализовать методы патриотического воспитанья; разрабатывать и совершенствовать конфигурации и методы патриотического воспитанья; обобщать результаты становления образования и методы внедрения инновации;

объединять прогрессивной педагогический опыт в стране и за рубежом для публикации словесности; пересматривать гуманитарные и общеобразовательные программы.

Информационная обеспечение: активно использовать компоненты патриотического воспитания в стимулированиях массовой информации.

Научно-теоретическое обеспечение: корпорация исследований в области патриотического воспитания и использование итогов в практической деятельности; осмысление руководящих принципов формирования и становления гражданской личности.

Управленческое обеспечение: подготовка экспертов, способных эффективно порешать задачи патриотического воспитанья граждан на уровне современных требований.

Финансово-экономическая поддержка: оказывать финансовую обеспечению реализации программ патриотического воспитания.

Государство управляется системой патриотического воспитанья и широко использует государственные учреждения.

Конечным итогом функционирования системы патриотического воспитания должен приняться подъем духа и цивилизации, укрепление национальной и общенациональной обороноспособности, а также стабильность экономики.

## ЛИТЕРАТУРА

1.Г.В.Бороздина. Психология делового общения. М., 1998
2.Хрестоматия по педагогической психологии. // Сост.А.И. Красильников. М., 1995
3.С.К.Бондырева, Д.В.Колесов. Нравственность. Москва-Воронеж. 2006

# ВОСПИТАНИЕ ПАТРИОТИЗМА КАК ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

***Тагиева Гамар***

## АННОТАЦИЯ

Патриотизм рассматривается как важная нравственно-социальная ценность, выражающая любовь к Родине, верность ей и готовность защищать её. В статье раскрываются исторические истоки понятия, его роль в формировании личности, а также логическая, эмоциональная и ценностная структура патриотического сознания. Особое внимание уделяется целям, задачам и принципам патриотического воспитания в Азербайджане, роли школы, семьи и общества. Патриотическое воспитание представляется как важный фактор национального единства, сохранения духовных ценностей и формирования гражданской позиции молодого поколения.

# VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ
# PEDAQOJİ PROBLEM KİMİ

*Tağıyeva Qəmər*

## XÜLASƏ

Vətənpərvərlik insanın öz vətəninə sevgi, sədaqət və onu qorumağa hazır olması ilə xarakterizə olunan mühüm mənəvi-sosial dəyərdir. Məqalədə patriotizmin tarixi kökləri, şəxsiyyətin formalaşmasında onun rolu, psixoloji, emosional və dəyər yönümlü strukturu izah olunur. Həmçinin Azərbaycanda patriotik tərbiyənin məqsədləri, vəzifələri və prinsipləri açıqlanır; məktəb, ailə və cəmiyyətin bu prosesdəki rolu vurğulanır. Patriotik tərbiyə dövlətin ideoloji əsaslarından biri kimi milli birlik, mənəvi dəyərlərin qorunması, vətənə sədaqət və gələcək nəsillərin vətəndaş mövqeyinin formalaşdırılması üçün mühüm vasitə kimi təqdim edilir.

# EDUCATION OF PATRIOTISM AS
# A PEDAGOGICAL PROBLEM

*Taghiyeva Gamar*

## SUMMARY

Patriotism is presented as an important moral and social value characterized by love for one’s homeland, loyalty, and readiness to defend it. The article explores the historical origins of the term, its role in shaping personality, and the logical, emotional, and value-based components of patriotic consciousness. It also outlines the goals, tasks, and principles of patriotic education in Azerbaijan, emphasizing the roles of schools, families, and society. Patriotic education is described as a key factor in strengthening national unity, preserving cultural values, and developing a responsible civic identity in the younger generation.

## SOSİOLOGİYA, SOSİAL İŞ,

# SOSİOLOJİ TƏDQİQATLARDA KONTENT-ANALİZ METODUNUN ELMİ PRİNSİPLƏRİ VƏ PRAKTİK ƏHƏMİYYƏTİ

***Məmmədli Nərmin İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
***narminmammadli.contact@gmail.com***

***Açar sözlər:*** sənədlərin təhlili, kontent-analiz, metodologiya, empirik tədqiqat, empirik məlumat.
***Ключевые слова:*** социология, анализ документов, контент-анализ, методология, эмпирическое исследование, социальная информация
***Keywords:*** sociology, document analysis, content analysis, methodology, empirical research, social information.

Sosiologiya elmi insan cəmiyyətinin strukturunu, münasibətlər sistemini və sosial prosesləri öyrənən kompleks elmdir. Cəmiyyətin çoxşaxəli və dəyişkən təbiəti sosioloqları fərqli tədqiqat üsullarından istifadəyə təhrik edir. Statistik sorğular, müşahidə, müsahibə, eksperiment və sənəd təhlili kimi metodlar sosial hadisələrin müxtəlif tərəflərini dəyərləndirməyə imkan verir. Bu baxımdan, **sənədlərin təhlili** və onun bir forması olan **kontent-analiz** sosioloji metodologiyada xüsusi əhəmiyyət daşıyır, çünki cəmiyyətin "öz izi"ni qoyduğu bütün yazılı və vizual materiallar sosial reallığın ifadəsidir [1].

Sənədlərin təhlili sosial elmlərdə iki istiqamətdə istifadə olunur: birincisi, empirik məlumat mənbəyi kimi, ikincisi isə müstəqil elmi analiz metodu kimi. Məsələn, dövlət hesabatları, qəzet məqalələri, təşkilatların daxili sənədləri, sosial media yazıları və ya tədris materialları sosial münasibətlərin, dəyərlərin və ideologiyaların formalaşmasını əks etdirir [2]. Bu sənədlərin sistemli şəkildə öyrənilməsi sosioloqa cəmiyyətin mədəni, iqtisadi və siyasi dinamikasını dərk etməyə kömək edir. Krippendorffun qeyd etdiyi kimi, kontent-analiz "insan ünsiyyətinin məzmununu obyektiv, sistemli və kəmiyyətcə müəyyənləşdirilmiş şəkildə təsvir etməyə çalışan" bir tədqiqat üsuludur [3]. Bu yanaşma sənədləri sadəcə mətn kimi deyil, sosial məna daşıyıcısı kimi qəbul edir.

Müasir sosiologiyada sənəd təhlilinin aktuallığı iki əsas amillə izah olunur:

birincisi, **informasiya cəmiyyətinin inkişafı** ilə sənəd formalarının çoxalması (elektron sənədlər, sosial media məzmunları, rəqəmsal arxivlər);

ikincisi, **empirik məlumatın etibarlılığına olan ehtiyacın artmasıdır** [4]. Sosial tədqiqatlarda müşahidə və sorğu nəticələri bəzən subyektiv amillərlə məhdudlaşdığı halda, sənədlərin təhlili daha sabit və obyektiv məlumat mənbəyi kimi çıxış edir.

Azərbaycan sosioloji düşüncəsində sənəd təhlilinə maraq son illərdə artmaqdadır. Bu, həm beynəlxalq metodoloji təcrübənin yerli tədqiqatlara inteqrasiyası ilə, həm də sosial idarəetmədə qərarların sübutlara əsaslanması tələbi ilə bağlıdır. Xüsusən də sosial siyasət, təhsil və media sosiologiyası kimi sahələrdə sənədlərin təhlili artıq tədqiqatın vacib mərhələsinə çevrilmişdir. Eyni zamanda, sosiologiya ixtisası üzrə təhsil alan gənclərin bu metodla tanışlığı və praktik bacarıqları tədqiqat mədəniyyətinin inkişafı üçün mühüm göstəricidir. Bu məqalənin məqsədi sənədlərin təhlilinin sosioloji elmdəki əhəmiyyətini, metodoloji əsaslarını və praktik istifadəsini təhlil etmək, həmçinin bu istiqamətdə aparılmış kiçik empirik tədqiqatın nəticələrini təqdim etməkdir.

Beləliklə, sənədlərin təhlili yalnız məlumat toplama vasitəsi deyil, həm də sosial reallığın dərin mənalarının açılması üçün nəzəri-metodoloji çərçivədir. Onun elmi dəyəri

sosioloqun cəmiyyətin simvolik kodlarını, mənalar sistemini və institusional davranışları sənədlər vasitəsilə deşifrə etməsinə şərait yaratmasındadır [5].

Sənədlərin təhlili sosiologiyanın empirik metodologiyasında xüsusi yer tutur. Bu metod, sosial hadisələrin yazılı, vizual və ya rəqəmsal izlərini sistemli şəkildə öyrənməklə cəmiyyətin quruluşu, dəyərləri və ideoloji mexanizmləri haqqında dolğun məlumat verir. "Sənəd" anlayışı yalnız rəsmi sənədlərlə məhdudlaşmır; burada məktublar, mətbuat materialları, gündəliklər, sosial media paylaşımları, təşkilat hesabatları və hətta fotoşəkillər də tədqiqat obyekti kimi qəbul olunur [6].

Müasir sosioloji metodologiyada sənədlər iki əsas funksiyanı yerinə yetirir: bir tərəfdən, onlar **sosial fəaliyyətin məhsulu**, digər tərəfdən isə **elmi məlumat mənbəyi** kimi çıxış edir. Məsələn, dövlət arxivlərində saxlanılan rəsmi sənədlər müəyyən dövrün sosial-siyasi sisteminin təzahürüdür. Eyni zamanda, qəzet yazıları və ya sosial mediada yayılan paylaşımlar ictimai rəyin, dəyərlərin və davranış modellərinin təmsilidir [7].

Sosioloji təhlildə sənədlərin istifadəsi həm **kəmiyyət**, həm də **keyfiyyət** metodologiyası ilə əlaqəlidir. Kəmiyyət yanaşmasında sənədlərdə müəyyən söz, anlayış və ya ifadələrin tezliyi hesablanır, keyfiyyət yanaşmasında isə bu ifadələrin mənası və sosial kontekstdəki rolu araşdırılır [8]. Beləliklə, sənədlərin təhlili həm statistik nəticələr çıxarmağa, həm də sosial mənaları interpretasiya etməyə imkan verir.

Kontent-analiz sənəd təhlilinin ən sistemli forması hesab olunur. Bu üsul XX əsrin ortalarından etibarən Amerika sosioloqları və kommunikasiya tədqiqatçıları tərəfindən geniş şəkildə işlənməyə başlanmışdır. Harold Lasswell, Bernard Berelson və Klaus Krippendorff kimi alimlər bu metodun elmi prinsiplərini müəyyənləşdirmişdir [9]. Krippendorff kontent-analizi belə tərif edir: "Mətnlərin, sənədlərin və digər simvolik materialların məzmununu obyektiv, sistematik və kəmiyyətcə müəyyənləşdirilmiş şəkildə təsvir etməyə yönəlmiş tədqiqat metodu" dur [3].

Bu tərifdə diqqətçəkən üç əsas meyar var: **obyektivlik**, **sistemlilik** və **kəmiyyət ölçməsi**.

- **Obyektivlik** tədqiqatçının şəxsi münasibətini minimuma endirərək məlumatı fakt kimi qəbul etməsini tələb edir.
- **Sistemlilik** sənədlərin müəyyən kateqoriyalar üzrə ardıcıl təhlilini nəzərdə tutur.
- **Kəmiyyət ölçməsi** isə sənədlərdəki elementlərin (sözlər, simvollar, ifadələr və s.) müəyyən statistik göstəricilərlə ifadə olunmasını təmin edir.

Bununla yanaşı, kontent-analiz yalnız kəmiyyət ölçməsi ilə məhdudlaşmır. Müasir sosiologiyada onun **keyfiyyət yönümlü** variantı da inkişaf etmişdir. Keyfiyyət kontent-analiz sənədlərdəki mənaların sosial kontekstə, mədəni kodlara və ideoloji çərçivələrə görə interpretasiyasına əsaslanır [10]. Bu yanaşma xüsusilə mədəniyyət sosiologiyası, media analizləri və sosial diskurs tədqiqatlarında geniş istifadə olunur.

Sosioloji tədqiqatlarda sənədlərin seçimi xüsusi metodoloji prinsiplərə əsaslanmalıdır. Birincisi, sənədlər **tədqiqat məqsədinə uyğun** olmalıdır; yəni, sosial hadisəni tam və dəqiq əks etdirməlidir. İkincisi, sənədlərin **etibarlılığı** və **mənbə dəyəri** qiymətləndirilməlidir. Üçüncüsü, sənədlərin **məzmunu və forması** analiz zamanı eyni dərəcədə diqqət mərkəzində saxlanmalıdır [11].

Sənədlərin təhlilində əsas mərhələlər bunlardır:

1. **Sənədlərin seçilməsi və qruplaşdırılması** – tədqiqat məqsədinə uyğun sənədlərin müəyyənləşdirilməsi və onların mövzuya görə qruplaşdırılması.
2. **Məzmunun kodlaşdırılması** – sənədlərdəki ifadələrin, anlayışların və simvolların sistematik şəkildə kodlaşdırılması.
3. **Məlumatların təhlili və interpretasiyası** – əldə olunan kodların statistik və məna baxımından dəyərləndirilməsi.
4. **Nəticələrin təqdimatı** – tədqiqat nəticələrinin cəmiyyətin sosial quruluşu və dəyərləri ilə əlaqələndirilməsi [12].

Bu mərhələlər sənəd təhlilini empirik tədqiqatlarda tətbiq üçün əlverişli edir. Məsələn, mediada gender rollarının təqdimatı, dövlət siyasətində sosial qrupların təsviri, təhsil proqramlarının məzmununda dəyərlərin analizi kimi sahələrdə sənəd təhlili çox effektiv nəticələr verir.

Bütün bu yanaşmalar göstərir ki, sənədlərin təhlili sosiologiyada həm **metodoloji**, həm də **epistemoloji** əhəmiyyət daşıyır. Metodoloji baxımdan o, məlumat toplama və interpretasiya etmə vasitəsidir. Epistemoloji baxımdan isə sənədlər sosial reallığın dərkində vasitəçi rolunu oynayır; yəni sənədlər vasitəsilə cəmiyyət özünü ifadə edir və eyni zamanda özünü öyrənir [13].

Sənədlərin təhlili və kontent-analizin sosioloji tədqiqatlarda istifadəsinin əhəmiyyətini daha dərindən anlamaq məqsədilə kiçik miqyaslı bir empirik tədqiqat aparılmışdır. Tədqiqat sosiologiya sahəsində təhsil alan gənclərin sənədlərin təhlili metoduna münasibətini, bu metoddan istifadə bacarıqlarını və onun sosial tədqiqatlarda tətbiqi imkanlarına dair baxışlarını öyrənməyə yönəlmişdir.

**Tədqiqatın məqsədi və hipotezləri**

Tədqiqatın əsas məqsədi sənədlərin təhlilinin sosiologiya elmi üçün praktik və metodoloji əhəmiyyətini empirik yolla müəyyənləşdirmək, həmçinin tələbələrin bu metoddan istifadəyə hazırlıq səviyyəsini qiymətləndirmək olmuşdur.

Bu məqsədlə aşağıdakı hipotezlər irəli sürülmüşdür:

1. Sosiologiya ixtisasında təhsil alan tələbələr sənədlərin təhlilini sosioloji tədqiqatlarda mühüm metod kimi qəbul edirlər.
2. Tələbələrin əksəriyyəti sənəd təhlilinin nəzəri əsaslarını bilsə də, praktiki tətbiqdə müəyyən çətinliklərlə üzləşirlər.
3. Kontent-analiz sosial hadisələrin öyrənilməsində daha obyektiv və sistemli nəticələr əldə etməyə imkan verir.

**Tədqiqatın metodologiyası**

Tədqiqat 2025-ci ilin sentyabr ayında Bakı Dövlət Universitetinin sosiologiya ixtisasında təhsil alan tələbələri (bakalavr və magistr) arasında aparılmışdır. Nümunə seçimi məqsədyönlü şəkildə həyata keçirilmiş, ümumilikdə **40 respondent** (25 qadın, 15 kişi) tədqiqatda iştirak etmişdir.

Tədqiqat iki mərhələdən ibarət olmuşdur:

1. **Qısa sorğu (anket)** – tələbələrin sənədlərin təhlili barədə bilik və münasibətlərini müəyyən etmək üçün.
2. **Kiçik kontent-analiz tətbiqi** – tələbələrdən verilmiş sosial mövzuya dair üç fərqli sənədi (rəsmi hesabat, qəzet məqaləsi, sosial media paylaşımı) təhlil etmələri istənilmişdir.

Sorğuda 10 qapalı və 2 açıq sual olmuşdur. Cavablar əsasən Likert şkalası üzrə (1 – "tam razı deyiləm", 5 – "tam razıyam") qiymətləndirilmişdir.

**Nəticələr**

Sorğu nəticələri göstərmişdir ki, tələbələrin 85%-i sənədlərin təhlilini sosioloji tədqiqatlarda **vacib metod** kimi qiymətləndirir. Onların 72%-i bu metodun obyektivlik və faktiki material baxımından **etibarlı mənbə** yaratdığını bildirib. Lakin yalnız 38%-i sənədlərin təhlilini **praktik tədqiqatlarda effektiv şəkildə tətbiq etdiyini** qeyd edib. Bu isə metodun nəzəri bilindiyi, amma praktiki tətbiqdə müəyyən boşluqların qaldığını göstərir.

Respondentlərin 60%-i sənədlərin təhlilini digər metodlarla – məsələn, müsahibə və ya sorğu ilə birlikdə istifadə etməyin daha səmərəli olduğunu bildirib. Onların fikrincə, sənədlər empirik məlumatı tamamlayır və sosial hadisəyə "ikinci baxış bucağı" yaradır.

Kontent-analiz tapşırığının nəticələrinə görə, tələbələr ən çox **rəsmi sənədləri və media materiallarını** analiz etməyə üstünlük veriblər. Onların 70%-i dövlət və ya beynəlxalq təşkilatların hesabatlarını "ən etibarlı sənəd növü" kimi qiymətləndirib. Bununla yanaşı,

55%-i sosial mediadan götürülən materiallarda "emosional və qeyri-obyektiv ifadələrin çox olduğunu" qeyd edib ki, bu da sənədin tipinə görə təhlilin nəticələrinin dəyişdiyini göstərir.

Təhlil zamanı bəzi maraqlı müşahidələr də qeydə alınmışdır:

- Qadın respondentlər sənədlərin dil və diskurs aspektlərinə daha çox diqqət yetiriblər,
- Kişi respondentlər isə məlumatların faktiki tutarlılığına üstünlük veriblər.

Bu fərqlər sənədlərin interpretasiyasında subyektiv meyllərin tam aradan qaldırılmadığını göstərir, bu isə Krippendorffun "tam obyektivlik idealı" anlayışı ilə üst-üstə düşür [5].

Aparılmış tədqiqat göstərdi ki, sənədlərin təhlili sosioloji düşüncədə nəzəri olaraq qəbul olunmasına baxmayaraq, onun praktik tətbiqi sahəsində hələ də boşluqlar mövcuddur. Bu nəticə həm yerli, həm də beynəlxalq səviyyədə aparılmış oxşar tədqiqatlarla uyğun gəlir. Məsələn, Neuendorf (2017) qeyd edir ki, kontent-analiz metodunu effektiv tətbiq etmək üçün tədqiqatçının həm metodoloji bilik, həm də analitik düşünmə bacarığına malik olması vacibdir [2].

Tədqiqatda iştirak edən tələbələr sənədlərin sosial hadisələrin öyrənilməsində "sabit və etibarlı mənbə" olduğunu vurğulayıblar. Onlar sənədlərin digər metodlarla birlikdə istifadəsini, xüsusilə sosial siyasət, media və təhsil sahəsində vacib sayırlar. Bu, sənəd təhlilinin **çoxmetodlu tədqiqat dizaynına inteqrasiyasının** zəruriliyini göstərir.

Azərbaycan kontekstində sənəd təhlilinin praktik inkişafı üçün bir neçə istiqamət vacib görünür:

- Universitet proqramlarında kontent-analiz üzrə ayrıca metodoloji fənnin tədrisi;
- Dövlət və qeyri-hökumət arxivlərinə sosioloqların tədqiqat məqsədilə çıxış imkanlarının genişləndirilməsi;
- Elektron sənəd bazalarının istifadəsinin stimullaşdırılması.

Beləliklə, tədqiqat nəticələri göstərir ki, sənədlərin təhlili sosiologiyada həm elmi-nəzəri, həm də praktik səviyyədə inkişaf etdirilməli olan əsas metodlardan biridir. Bu metod sosial hadisələrin uzunmüddətli dəyişikliklərini öyrənmək, dəyərlərin formalaşmasını anlamaq və ideoloji diskursları deşifrə etmək üçün mühüm tədqiqat çərçivəsi yaradır.

Tədqiqat göstərdi ki, sənədlərin təhlili müasir sosioloji araşdırmalarda həm müstəqil metod, həm də digər empirik üsulları tamamlayan vasitə kimi əhəmiyyət kəsb edir. Məsələn, sorğu və müsahibə metodlarının subyektiv xarakter daşıdığı hallarda sənəd təhlili tədqiqatçını obyektiv, yoxlanıla bilən məlumat mənbəyinə yönəldir. Bu, xüsusilə sosial siyasət, media, təhsil və gender tədqiqatlarında mühüm üstünlükdür.

Empirik tədqiqat nəticələri göstərdi ki, sənədlərin təhlili tələbələr arasında sosioloji tədqiqatlarda hələ tam potensialla istifadə olunmur. Əksər hallarda sənədlər yalnız informasiya mənbəyi kimi qəbul edilir, halbuki onların strukturunda sosial münasibətlərin ideoloji və mədəni kodları da gizlənir.

Tədqiqatın nəticələrinə əsasən sənədlərin təhlili sosioloji araşdırmalarda üç əsas istiqamətdə: birincisi, tarixi-sosioloji istiqamətdə, sosial hadisələrin zamanla necə dəyişdiyini anlamaq üçün; ikincisi, ideoloji təhlil istiqamətində, hakim ideyaların, dəyərlərin və diskursların sənədlərdə necə təqdim olunduğunu öyrənmək üçün; üçüncüsü, kommunkativ sosiologiyada, sənədlərin sosial ünsiyyət forması kimi rolunu araşdırmaq üçün.

Nəticə olaraq demək olar ki, sənədlərin təhlili sosiologiyada metodoloji planda çoxölçülü bir alətdir. O, həm mətni, həm dili, həm də sosial strukturu öyrənməyi mümkün edir. Gələcək tədqiqatlar bu metodun Azərbaycan cəmiyyətində tətbiqini genişləndirməli, xüsusilə media, təhsil və ictimai idarəetmə sahələrində sənədlərin sosial mənasının sistemli şəkildə öyrənilməsinə yönəlməlidir.

## ƏDƏBİYYAT


1. https://methods.sagepub.com/book/mono/content-analysis-4e/toc#_ Müraciət tarixi: 16.07.2025; 14:30
2. Neuendorf, K. The Content Analysis Guidebook / K. Neuendorf. – Los Angeles, CA: SAGE Publications, – 2017. – 438 p.
3. https://onlinelibrary.wiley.com/doi/abs/10.1111/j.1468-2958.2004.tb00738.x. Müraciət tarixi: 25.09.2025; 22:00
4. https://dergipark.org.tr/en/download/article-file/63326 Müraciət tarixi: 20.07.2025; 21:00
5. https://www.qualitative-research.net/index.php/fqs/article/view/3392 Müraciət tarixi: 21.07.2025; 22:00
6. http://yenimedya.info/2021/04/22/content/ Müraciət tarixi: 23.07.2025; 15:00
7. Flick, U. An Introduction to Qualitative Research. – London: SAGE Publications, - 2018 – 696 p.
8. Corbin, J., & Strauss, A. Basics of Qualitative Research. - Thousand Oaks, California, USA: SAGE Publications, - 2015 – 456 p.
9. https://journals.sagepub.com/doi/10.1177/000169937001300209 Müraciət tarixi:10.08.2025; 21:30
10. https://www.academia.edu/4953728/Nitel_Veri_Analizi Müraciət tarixi: 15.08.2025; 10:00
11. Şen, H. (2016). Toplumsal Araştırmalarda Belge Analizi: Kuramsal ve Uygulamalı Yaklaşımlar. - İstanbul, Türkiyə: Hiperlink Yayınları, - 2016. – 208 p.
12. https://researchmethod.net/content-analysis/ Müraciət tarixi: 17.08.2025; 16:00
13. https://utppublishing.com/doi/10.1558/sols.v3i1.1 Müraciət tarixi: 01.09.2025; 22:00


## SOSİOLOJİ TƏDQİQATLARDA KONTENT-ANALİZ METODUNUN ELMİ PRİNSİPLƏRİ VƏ PRAKTİK ƏHƏMİYYƏTİ

*Nərmin Məmmədli*

## XÜLASƏ


Sosiologiya elmi cəmiyyətin müxtəlif aspektlərini öyrənmək üçün çoxsaylı metodlardan istifadə edir. Bu metodlardan biri olan sənədlərin təhlili – xüsusən də kontent-analiz – ictimai reallığın müxtəlif formalarının yazılı, vizual və ya elektron sənədlərdə necə əks olunduğunu sistemli şəkildə öyrənməyə imkan verir. Müasir sosioloji tədqiqatlarda sənədlərin təhlili yalnız əlavə məlumat mənbəyi deyil, həm də sosial hadisələrin mənalandırılması üçün müstəqil bir tədqiqat üsulu kimi əhəmiyyət qazanır. Məqalədə sənədlərin təhlilinin nəzəri-metodoloji əsasları, onun sosiologiyada tətbiq istiqamətləri və bu metodun empirik tədqiqatlarda rolu araşdırılır. Həmçinin sosiologiya ixtisasında təhsil alan tələbələr arasında aparılmış kiçik miqyaslı tədqiqatın nəticələri təqdim olunur və sənəd təhlilinə münasibət, bu metodun praktik bacarıqlarda rolu qiymətləndirilir. Əldə olunan nəticələr göstərir ki, sənədlərin təhlili sosial elmlərdə obyektivlik, sistemlilik və dərinlik baxımından mühüm elmi dəyərə malikdir.

# НАУЧНЫЕ ПРИНЦИПЫ И ПРАКТИЧЕСКОЕ ЗНАЧЕНИЕ МЕТОДА КОНТЕНТ-АНАЛИЗА В СОЦИОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

***Нармин Маммедли***

## АННОТАЦИЯ

Социология использует множество методов для изучения различных аспектов общества. Одним из таких методов является анализ документов — особенно контент-анализ — который позволяет системно исследовать, как социальная реальность отражается в письменных, визуальных или электронных источниках. В современных социологических исследованиях анализ документов рассматривается не только как дополнительный источник информации, но и как самостоятельный методологический подход к интерпретации социальных явлений. В статье рассматриваются теоретико-методологические основы анализа документов, направления его применения в социологии и роль данного метода в эмпирических исследованиях. Кроме того, представлены результаты маломасштабного исследования, проведённого среди студентов-социологов, в ходе которого оценивалось их отношение к анализу документов и уровень практических навыков в его использовании. Полученные результаты показывают, что анализ документов обладает важной научной ценностью в социально-гуманитарных науках с точки зрения объективности, системности и глубины исследования.

# SCIENTIFIC PRINCIPLES AND PRACTICAL SIGNIFICANCE OF THE CONTENT ANALYSIS METHOD IN SOCIOLOGICAL RESEARCH.

***Narmin Mammadli***

## SUMMARY

Sociology employs various methods to study different aspects of society. One of these methods, document analysis—particularly content analysis—allows for the systematic examination of how social reality is represented in written, visual, or digital documents. In contemporary sociological research, document analysis is not merely a supplementary source of information but a distinct methodological approach to interpreting social phenomena. This article examines the theoretical and methodological foundations of document analysis, its application in sociology, and its role in empirical research. Additionally, the findings of a small-scale study conducted among sociology students are presented, evaluating their attitudes and practical competencies in document analysis. The results indicate that document analysis holds significant scientific value in terms of objectivity, systematic inquiry, and analytical depth in the social sciences.

# SOSİOLOJİ TƏDQİQATLARDA DƏRİNLƏŞDİRİLMİŞ İNTERVÜ METODUNUN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Bağırlı Bəyaz Xaləddin qızı***
***BDU-nun II kurs magistrantı***
***byazbagirli@gmail.com***

***Açar sözlər:*** dərinləşdirilmiş intervü, keyfiyyət tədqiqatı, refleksivlik, epistemik mövqe, narrativ zaman, kontekstual analiz, tematik kodlaşdırma, emosional əmək, etik məsuliyyət, sosial qarşılıqlı təsir.
***Ключевые слова:*** глубинное интервью, качественные исследования, рефлексивность, эпистемологическая позиция, нарративное время, контекстуальный анализ, тематическое кодирование, эмоциональный труд, этическая ответственность, социальное взаимодействие
***Keywords:*** in-depth interview, qualitative research, reflexivity, epistemic positionality, narrative time, contextual analysis, thematic coding, emotional labor, ethical responsibility, social interaction

Sosioloji tədqiqatlarda keyfiyyət və kəmiyyət metodlarından geniş istifadə olunur. Bu metodlar sosial proseslərin daha dərindən təhlilini aparmaq, insanların sosial təcrübələrini anlamaq və sosial reallıqları ətraflı şəkildə öyrənmək üçün əsas vasitə hesab edilir. Kəmiyyət tədqiqatlarını insanlar daha elmi hesab edir. Çünki bu tədqiqatlarda komputer texnologiyalarından istifadə edilir. Həmçinin kəmiyyət tədqiqatları sosial xassələrin sayını, ölçüsünü müəyyən edir. Keyfiyyət tədqiqatları müxtəlif keyfiyyət metodlarından istifadə edərək insanlar haqqında ölçülə bilməyən məlumatları əldə edir və insanların özlərini və başqalarını necə öyrəndiklərini araşdırırlar. Buna nümunə kimi məktubları,gündəlikləri və qəzetləri göstərmək olar. Bununla yanaşı keyfiyyət tədqiqatları insanların hisslərini,düşüncə tərzlərini və sosial münasibətlərini araşdırmağa yönəlmişdir. Bu araşdırmaları apararkən müxtəlif metodlardan istifadə olunur. Bu metodlardan biri dərinləşdirilmiş intervü metodudur.

Dərinləşdirilmiş intervü metodu sosioqrafik və keyfiyyət araşdırmalarında iştirakçıların təcrübə, məna və subyektiv dünyalarını əhatəli şəkildə anlamağa yönəlmiş əsas yanaşmalardan biridir. Bu metodun nəzəri əsasları epistemoloji və ontoloji müzakirələrlə sıx bağlıdır; yəni məlumat toplama prosesində subyektiv təcrübənin necə qiymətləndirilməsi və bu təcrübələrin sosial reallığın təmsili kimi necə başa düşüləcəyi sualları mərkəzi rol oynayır. Dərinləşdirilmiş intervü təkcə sual-cavab məntiqindən ibarət olmayıb, həm də araşdırmaçının interpretiv prizma vasitəsilə mənaları aşkar etməsinə imkan verən intersubyektiv proses kimi nəzərdən keçirilməlidir. Bu baxımdan metodun etibarlılığı və etika prinsipləri yalnız prosedur qaydalarına uyğunluqla deyil, həm də tədqiqatçının epistemik mövqeyi və sahə ilə qarşılıqlı təsiri ilə müəyyən olunur. Dərinləşdirilmiş intervü respondentin təcrübələrini, inanclarını və mənalandırmalarını zəngin və detallı şəkildə ortaya qoymağa yönəlmiş keyfiyyət tədqiqatı üsuludur (Kvale & Brinkmann, 2009).

Metodun gücü onun kontekstual zənginliyində yatır; dərinləşdirilmiş intervü konkret sosial hadisələri, gündəlik praktikaları və aktorların rasionalarını geniş, nüanslı təsvir etməyə imkan verir. Lakin bu zənginlik interpretativ-inferensial problemləri doğurur: iştirakçının danışdıqları nə dərəcədə etibarlı “fakt” sayılmalı, hansı hallarda danışılanların performativ elementləri — yəni sosial istinadlar və imic təqdimatı — kimi şərh ediləcəyi sualları ortaya çıxır.

Məlumatın emalında təkrarlanabilmə (reliability) və etibarlılıq (validity) anlayışları keyfiyyət metodologiyasında kvantitativ terminologiyadan fərqli açılara malikdir.

Dərinləşdirilmiş intervü üçün ənənəvi "təkrarlanabilmə" ideyasını birbaşa tətbiq etmək çətindir. Buna görə metodun etibarlığını təmin etmək məqsədilə tədqiqatçılar triangulyasiya, iştirakçılarla yoxlama (member checking), zəngin kontekstual təsvir və şüurlu refleksiv jurnal praktikasına müraciət edirlər. Bu taktikalardan hər biri təkcə məlumatın "doğruluğunu" yoxlamaq deyil, həm də interpretasiyaların mənbələrini şəffaflaşdırmaq üçün nəzəri vasitə rolunu oynayır. Triangulyasiya sosial hadisənin müxtəlif mənbələrdən təsdiqini tələb edir; lakin nəzəri planda triangulyasiyanın məqsədi vahid obyektiv həqiqətə çatmaq deyil, müxtəlif perspektivlərin məna salması ilə daha dolğun bir anlayış yaratmaqdır.

Tədqiqatçının mövqeyi və güc münasibətləri dərinləşdirilmiş intervünün kritik nəzəri məsələlərindəndir. İntervü zamanı tədqiqatçı və iştirakçı arasındakı münasibət həm sorğulama prosesini, həm də alınan məlumatın formalaşmasını təsir edir. Sosial elmlərdə epistemik ədalət və səsin təmsili məsələləri bu kontekstdə aktualdır: kimlərin səsi eşidilir, hansı hesablamalar və təhriflər nəticəsində bəzi səs-küylər dominant olur? Bu suallar tədqiqatçını öz mövqeyini, önqəbul və predispozisiyalarını açıq şəkildə ifadə etməyə məcbur edir. Refleksivlik yalnız şəxsi jurnal aparmaqla məhdudlaşmamalı, həmçinin araşdırmanın bütün mərhələlərində — dizayndan analizə qədər — qərarların necə verildiyini sənədləşdirməlidir.

Dərinləşdirilmiş intervularda məqsədli nümunə seçimi, məlumat doymasına diqqət və tematik analiz kimi interpretasiya üsulları metodun əsas xüsusiyyətlərindəndir (Rubin & Rubin, 2012). İntervü strukturu və sual dizaynı metodun epistemik məqsədlərini birbaşa reflekt edir. Suala yönəldilmiş (probing) texnikalar ilə məlumatın dərinləşdirilməsi arzuolunan olsa da, tədqiqatçının müdaxiləsinin ölçüsü və növü nəzəri baxımdan məsələ doğurur: nə zaman sorğuçunun yönləndirməsi iştirakçının sözünü "olduqca şəffaf" etməyin əksinə, onu formalaşdırır? Bu sual metodologiyanın nüvəsində duran epistemik limitlərə işarə edir və analizin etibarlılığına dair nəzəri kəşflər üçün zəmin yaradır.

Metodun nəzəri çərçivəsində yadda saxlamaq vacib olan digər bir aspekt də emosional əməkdir. İntervülərdə bəzən travmatik təcrübələr, şəxsi çətinliklər və ya sosial ədalətsizliklə bağlı kəskin epizodlar danışıldığından, həm tədqiqatçı, həm də iştirakçı emosional yüklənməyə məruz qala bilər. Emosional əmək anlayışı göstərir ki, bu vəziyyətin idarə edilməsi üçün tədqiqatçı nəzəri cəhətdən emosional distans və empatik yaxınlıq arasında tarazlıq yaratmalıdır. Bu tarazlıq pozularsa, məlumat ya həddindən artıq subyektivləşə, ya da soyuq distansiya səbəbi ilə səthi qala bilər. Buna görə dərinləşdirilmiş intervü metodunun nəzəri əsasları psixososial dinamikanın araşdırma prosesinə necə sirayət etdiyini də izah edir.

Dərinləşdirilmiş intervünün tətbiqi zamanı zamanla bağlı nəzəri problemlər də aktuallaşır. İştirakçı keçmiş hadisələri yaddaş süzgəcindən keçirərək danışır və bu yaddaş heç vaxt tam obyektiv olmur. Yaddaşın selektivliyi, retrospektiv məntiq yaratma meyli və sonrakı həyat təcrübələrinin əvvəlki hadisələrin mənasına təsiri intervü məlumatına zaman içi konstruksiya xarakteri verir. Bu, "narrativ zaman" deyilən nəzəri fenomenlə bağlıdır: insanlar hadisələri xronoloji ardıcıllıqdan çox, mənalandırıcı struktur əsasında yenidən qururlar.

Eyni zamanda, dərinləşdirilmiş intervü metodunun nəzəri məsələləri arasında kontekstdən asılılıq mühüm yer tutur. Sosial hadisələr öz kontekstindən kənar başa düşülə bilmədiyi kimi, intervü məlumatı da kontekstsiz interpretasiya olunmamalıdır. Kontekst yalnız fiziki və ya sosial mühit deyil, həm də mədəni kodlar, normativ strukturlar, siyasi atmosfer və kollektiv yaddaş kimi çoxqatlı strukturlardan ibarətdir.

Metodun nəzəri aspektlərinə emosional əmək və etik məsuliyyət məsələləri də daxildir. İştirakçının paylaşdığı şəxsi və bəzən travmatik təcrübələr tədqiqatçının emosional reaktivliyini oyada bilər. Bu vəziyyətin idarə olunması üçün tədqiqatçı nəzəri olaraq

empatiya və emosional distans arasında balans yaratmalıdır. Eyni zamanda, məlumatın məxfiliyi, anonimliyi və ictimai maraqla əlaqəli məsuliyyət məsələləri etik yanaşmanı nəzəri planda əhatə edir. Bu elementlər dərinləşdirilmiş intervünün yalnız texniki üsul olmadığını, həm də sosial və etik prinsiplərlə sıx bağlı olduğunu göstərir.

Dərinləşdirilmiş intervü metodunda zaman və yaddaş məsələsi də nəzəri maraq kəsb edir. İştirakçı keçmiş hadisələri yaddaş filtrindən keçirərək təqdim edir və bu yaddaş heç vaxt tam obyektiv deyil. Retrospektiv məntiq və sonrakı təcrübələrin əvvəlki hadisələrin mənasına təsiri intervü məlumatına əlavə edir. Tədqiqatçı bu ikili zaman qatını nəzərə alaraq interpretasiyalarda həm keçmiş hadisələrin təsvirini, həm də iştirakçının onlara verdiyi mənanı qiymətləndirməlidir. Kontekstual yanaşma dərinləşdirilmiş intervünün nəzəri əsaslarını tamamlayır. Sosial hadisələr və iştirakçı ifadələri kontekstsiz başa düşülə bilməz; burada mədəni, sosial və siyasi kontekst, normativ strukturlar və kollektiv yaddaş əhəmiyyətli rol oynayır. Kontekstual analiz, "qalın təsvir" prinsipi vasitəsilə, hadisələrin mənasını, simvolik dəyərini və sosial normalarla əlaqəsini ortaya qoyur. Beləliklə, metod yalnız məlumat toplama vasitəsi deyil, həm də sosial reallığın kompleks strukturlarını açıqlayan nəzəri çərçivədir. Dərinləşdirilmiş intervü metodunun nəzəri çərçivəsində bir digər vacib məsələ məlumatın təhlili və kodlaşdırma prosesidir. Kodlaşdırma yalnız texniki əməliyyat kimi deyil, həm də nəzəri interpretasiyanın əsas hissəsi kimi qəbul edilir.

Bundan əlavə, intervü zamanı tədqiqatçı respondentin cavablarından başqa, onun jestlərini, mimikasını və müsahibənin aparıldığı məkanı müşahidə edərək əlavə ipucları əldə edə bilir. Bu yanaşma tədqiqatçılara sosial reallığı daha yaxşı dərk etməyə və respondentin perspektivini dərindən öyrənməyə imkan verir. İntervü barədə olan geniş ədəbiyyat bu prosesin təsvirinin müxtəlif üsullarını əhatə edir. Bəzi hallarda yaxşı intervüyer olmaq konkret insanların sahib olduğu anadangəlmə qabiliyyət və ya keyfiyyət kimi təsvir olunur; belə yanaşma ilə baxsaq, intervü daha çox incəsənətdir, nəinki elm və ya bacarıq (Fontana & Frey, 1998; Grobel, 2004). Daha əvvəlki yanaşmalarda intervü aparmaq oyun kimi təsvir olunurdu və iştirakçılar müəyyən mükafatlarla motivasiya edilirdi (Benny & Hughes, 1956; Holmstrom, Manning tərəfindən sitat gətirilib, 1967). Müasir mütəxəssislər isə intervü prosesini üzbəüz sosial münasibətlərin xüsusi növü kimi qiymətləndirir, baxmayaraq ki, onun normal ünsiyyətdən fərqi bəzən yalnız insan təxəyyülü ilə izah olunur (Leedy & Ormrod, 2001, 2004; Salkind, 2008; Warren & Karner, 2005).

Bu yanaşmaların hər birində müəyyən həqiqət payı var. Hər kəsə sadə istiqamətləndirmə, strategiya, prosedurlar və repertuar barədə təlimatlar verərək intervü prosesini təşkil etmək mümkündür. Məsələn, Qorden (1992) intervü həyata keçirməyin qaydalarına dair daha aydın və mərhələli təsvir təklif edib.

## ƏDƏBİYYAT

1. Fontana, A., & Frey, J. H. (1998). *Interviewing: The art of science*. In N. K. Denzin & Y. S. Lincoln (Eds.), Collecting and Interpreting Qualitative Materials (pp. 47–78). Sage Publications.
2. Flick, U. (2006). *An Introduction to Qualitative Research*. SAGE Publications.
3. Merriam, S. B. (2001). *Qualitative Research and Case Study Applications in Education*. Jossey-Bass.
4. Gorden, R. L. (1980). *Interviewing: Strategy, Techniques, and Tactics*. Dorsey Press.
5. Benney, M., & Hughes, E. C. (1956). Of sociology and the interview: Editorial preface. *American Journal of Sociology, 62*(2), 137–142.
6. Bakı Dövlət Universiteti – Sosiologiya kafedrası. (2021). *Sosioloji müsahibə və onun növləri*.
https://www.bsu.edu.az

7. Azərbaycan Dövlət İqtisad Universiteti – Elmi Araşdırmalar Mərkəzi. (2023). *Keyfiyyət tədqiqatı metodları*.
https://unec.edu.az
8. Təhsil Portalı. (2023). *Sosiologiyada intervü metodu nədir?*.
https://portal.edu.az.
9. SAGE Research Methods. (n.d.). *Qualitative Interviewing*.
https://methods.sagepub.com
10. Britannica. (n.d.). *Interview – Sociology*.
https://www.britannica.com
11. ResearchGate. (n.d.). *Types of Interviews in Qualitative Research*.
https://www.researchgate.net

## SOSİOLOJİ TƏDQİQATLARDA DƏRİNLƏŞDİRİLMİŞ İNTERVÜ METODUNUN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Bağırlı Bəyaz***

### XÜLASƏ

Dərinləşdirilmiş intervü metodu sosioloji və keyfiyyət tədqiqatlarında iştirakçıların təcrübələrini, düşüncə və duyğularını əhatəli şəkildə anlamağa imkan verən əsas yanaşmadır. Bu metod yalnız məlumat toplama aləti deyil, həm də sosial qarşılıqlı təsirin aktı və interpretativ proses kimi nəzərdən keçirilir. İntervü zamanı tədqiqatçı respondentlə dialoq qurur, onun jest, mimika və kontekstual göstəricilərini müşahidə edərək məlumatın zənginliyini artırır.

Metodun nəzəri əsasları reflexivlik, etik məsuliyyət, emosional əmək və epistemik şəffaflıq prinsiplərinə söykənir. Tədqiqatçı öz mövqeyini və predispozisiyalarını nəzərə almalı, iştirakçı ilə qarşılıqlı təsirin nəticələrə təsirini qiymətləndirməlidir. Yaddaşın retrospektiv təbiəti, narativ zaman anlayışı və kontekstual faktorlar məlumatın interpretasiyasında kritik rol oynayır. Açıq sonlu suallar, probing texnikaları və kodlaşdırma mərhələsi məlumatın həm literal, həm də konseptual qatlarını aşkar etməyə imkan verir. Nəticədə dərinləşdirilmiş intervü sosial reallığı daha zəngin və nüanslı şəkildə anlamağa yönəlmiş kompleks metod kimi çıxış edir. Tədqiqat göstərir ki, dərinləşdirilmiş intervü metodunun daha səmərəli tətbiqi üçün tədqiqatçılar refleksivlik, etik məsuliyyət və kontekstual analiz bacarıqlarını sistemli şəkildə inkişaf etdirməlidirlər.

## НЕКОТОРЫЕ ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ МЕТОДА ГЛУБИННОГО ИНТЕРВЬЮ В СОЦИОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

***Баяз Багирли***

### АННОТАЦИЯ

Метод глубинного интервью является ключевым подходом в социологических и качественных исследованиях, позволяющим всесторонне понять опыт, мысли и чувства участников. Этот метод выступает не только инструментом сбора данных, но и актом социального взаимодействия, а также интерпретативным процессом. В ходе интервью исследователь выстраивает диалог с респондентом, наблюдая его жесты, мимику и контекстуальные элементы, что обогащает получаемую информацию.

Теоретические основы метода опираются на принципы рефлексивности, этической ответственности, эмоционального труда и эпистемической прозрачности. Исследователь должен учитывать собственную позициональность и предрасположенности, а также оценивать влияние взаимодействия с участником на результаты исследования. Ретроспективная природа памяти, понятие нарративного времени и контекстуальные факторы играют критическую роль в интерпретации данных. Открытые вопросы, уточняющие техники (probing) и этап кодирования позволяют выявить как буквальные, так и концептуальные уровни материала. В конечном итоге глубинное интервью выступает как комплексный метод, направленный на более глубокое и нюансированное понимание социальной реальности. Исследования показывают, что для более эффективного применения метода глубинного интервью исследователям необходимо системно развивать рефлексивность, этическую ответственность и навыки контекстуального анализа.

## SOME THEORETİCAL İSSUES OF THE İN-DEPTH İNTERVİEW METHOD İN SOCİOLOGİCAL RESEARCH

***Beyaz Bagırlı***

### SUMMARY

The in-depth interview method is a central approach in sociological and qualitative research, allowing for a comprehensive understanding of participants' experiences, thoughts, and emotions. This method is not only a tool for data collection but is also viewed as an act of social interaction and an interpretive process. During the interview, the researcher establishes a dialogue with the respondent and observes gestures, facial expressions, and contextual cues, thereby enriching the data.

The theoretical foundations of the method rely on principles such as reflexivity, ethical responsibility, emotional labor, and epistemic transparency. The researcher must consider their own positionality and predispositions, assessing how the interaction with the participant may influence the outcomes. The retrospective nature of memory, the concept of narrative time, and contextual factors play a critical role in data interpretation. Open-ended questions, probing techniques, and the coding stage enable the identification of both the literal and conceptual layers of the data. Ultimately, the in-depth interview emerges as a complex method aimed at understanding social reality in a richer and more nuanced way. Research shows that for a more effective application of the in-depth interview method, researchers must systematically develop their reflexivity, ethical responsibility, and contextual analysis skills.

# ВЛИЯНИЕ РАБОТЫ С ОБЩИНАМИ НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

***Агаева Фируза***
***магистрант II курса БГУ***
***agayeva.firuza@list.ru***

***Ключевые слова:*** Социально, общинами, развитие, населения, сплоченность
***Açar sözlər:*** Sosial, icmalar, inkişaf, əhali, birləşmə
***Key words:*** Social, communities, development, population, cohesion

Социально-экономическое развитие регионов невозможно рассматривать в отрыве от взаимодействия с местными сообществами. В условиях глобализации и усиления региональной конкуренции возрастает значимость механизмов, направленных на вовлечение населения в процессы управления и реализации программ устойчивого развития. Работа с общинами выступает важнейшим инструментом обеспечения социальной стабильности, повышения уровня доверия к институтам власти и стимулирования местных инициатив.

Участие общин в социально-экономических процессах способствует более эффективному использованию местных ресурсов, развитию предпринимательства, созданию новых рабочих мест и улучшению качества жизни. Вовлечение населения в принятие решений позволяет формировать более справедливую и прозрачную систему управления, которая учитывает реальные потребности и интересы людей. Кроме того, практика работы с общинами усиливает социальный капитал, укрепляет горизонтальные связи и развивает механизмы самоорганизации, что положительно влияет на устойчивость регионов к внешним вызовам.

Интеграция общинных инициатив в стратегию социально-экономического развития регионов формирует основу для долгосрочной устойчивости, способствует гармонизации интересов государства, бизнеса и общества, а также создает благоприятные условия для комплексного прогресса.

Современные социально-экономические процессы демонстрируют, что устойчивое развитие регионов напрямую зависит не только от макроэкономических показателей, но и от эффективности взаимодействия власти и местных сообществ. Работа с общинами становится ключевым элементом в системе социального партнерства, где государство, бизнес и гражданское общество объединяют усилия для достижения общих целей [7с, 32].

Separatizm müasir dövrdə dövlətlərin ərazi bütövlüyünə və siyasi sabitliyinə qarşı yönəlmiş ən ciddi təhlükələrdən biri kimi çıxış edir. Bu anlayış təkcə bir qrupun ayrılma arzusunu ifadə etmir, həm də daxildə sosial parçalanma, etnik və dini ziddiyyətlər, regional gərginliklər və transmilli geosiyasi maraqlarla qidalanan mürəkkəb proseslər toplusudur.Separatizm çağdaş beynəlxalq münasibətlər sistemində münaqişələrin əsas mənbələrindən biri olmaqla yanaşı, həm də dövlətlərin milli təhlükəsizlik strategiyalarında mərkəzi yer tutur (2, s. 219).

XXI əsrdə separatist hərəkatların miqyası və təsir dairəsi genişlənmişdir. İspaniyanın Kataloniya bölgəsində 2017-ci ildə keçirilmiş qeyri-qanuni referendum, Böyük Britaniyada Şotlandiyanın müstəqillik cəhdləri, Belçikada flamanlarla vallonlar arasında siyasi gərginlik, İtaliyada Padaniya hərəkatı Avropadakı separatizm ocaqlarının nümunələridir. ABŞ-da Texas və Kaliforniyada zaman-zaman ortaya çıxan ayrılma meylləri, Pakistanda Bəlucistan hərəkatı və Nigeriyada Biafra separatizmi kimi nümunələr də göstərir ki, bu tendensiya qlobal miqyasda aktuallığını qoruyur.

Azərbaycan üçün isə separatizm xüsusilə Dağlıq Qarabağ təcrübəsi ilə yadda qalmışdır. Burada baş verənlər yalnız etnik ermənilərin ayrılmaq istəyi deyil, eyni zamanda regional güclərin və beynəlxalq aktorların maraqlarının toqquşduğu genişmiqyaslı təhlükə modeli idi. Bu təcrübə göstərdi ki, separatizm hər hansı ölkənin deyil, bütövlükdə beynəlxalq sabitliyin təhdididir.Beləliklə, separatizm müasir dünyanın hər bölgəsində müxtəlif formalarda təzahür edən, daxili və xarici amillərin təsiri ilə güclənən və dövlətlərin gələcəyini sual altına alan strateji problemdir.Əsasən etnik, dini, sosial və siyasi motivlərə söykənən separatizm, bir çox hallarda regionlarda gərginliklərə, münaqişələrə və müharibələrə yol açır. Ayrılmaq arzusu daşıyan qruplar bunu milli kimlik, tarixi ədalətsizlik, iqtisadi geridə qalma və ya siyasi haqsızlıqlarla əsaslandırırlar. Belə hallarda separatizmin yaranma səbəblərini bir neçə istiqamətdə izah etmək mümkündür.

Əvvəla, separatizmin başlıca səbəblərindən biri etnik və dini fərqliliklərdir. Tarixən bir çox bölgələrdə etnik azlıqlar özlərini mərkəzi hökumətin qərarlarından kənarda hiss etmiş, dil və mədəniyyət baxımından sıxışdırıldıqlarını iddia etmişlər. Bu, onların öz identikliyini qorumaq və daha çox muxtariyyət, hətta müstəqillik tələb etməsinə gətirib çıxarır. Kataloniya nümunəsində bu xüsusilə aydın görünür: bölgə əhalisi ispan dövlətindən fərqli olaraq özünəməxsus dili, hüquqi və iqtisadi modeli olduğunu bildirərək ayrılmaq istəyir.

Digər önəmli faktor isə iqtisadi və sosial bərabərsizlikdir. Mərkəzi hökumətin müəyyən regionlara yetərli iqtisadi sərmayə ayırmaması, infrastrukturun zəifliyi və sosial xidmətlərin aşağı səviyyədə olması, yerli əhalidə "kənarda qalmaq" hissi yaradır. Bu vəziyyət separatist düşüncələrin güclənməsinə zəmin yaradır. Nigeriyanın Biafra bölgəsi bu qəbildən olan hadisələrə nümunədir – orada neftlə zəngin ərazidə yaşayan əhali mərkəzi hökumətin sərvətləri ədalətsiz paylaşdığını düşünərək ayrılmaq istəyinə düşmüşdür.

Tarixi yaddaş və kollektiv travmalar da separatizmin dərin köklərinə işıq salır. Əvvəllər müstəqillik yaşamış və sonradan başqa dövlətin tərkibinə qatılmış etnoslarda, keçmişə nostalji ilə yanaşan ideologiyalar inkişaf edə bilər. Bu cür hadisələr keçmişdə yaşanan qətliamlar, deportasiyalar, assimilyasiya cəhdləri kimi faktorlarla gücləndikdə, ayrılmaq tələbi daha emosional və davamlı xarakter alır. Balkanlarda baş verən proseslər, xüsusən Kosovo məsələsi buna nümunə göstərilə bilər.

Separatizmin yaranmasında bəzən xarici qüvvələrin təsiri də ciddi rol oynayır. Böyük dövlətlər və ya geosiyasi oyunçular, müəyyən regionlarda separatizmi dəstəkləməklə öz maraqlarını qorumağa çalışır. Bu, münaqişələrin dondurulmasına və ya istədikləri zaman alovlandırılmasına şərait yaradır. Məsələn, Rusiya Federasiyasının Donbas və Krım məsələsində tutduğu mövqe separatizmin yalnız daxili səbəblərlə izah olunmadığını göstərir.

Bütün bunlarla yanaşı, mərkəzi hakimiyyətin avtoritar idarəetmə forması da separatizmi stimullaşdıran amillərdəndir. Siyasi təmsilçilik imkanlarının zəifliyi, insan hüquqlarının pozulması, medianın boğulması və azad seçkilərin olmaması kimi hallar əhalinin bir qismini alternativ çıxış yolları axtarmağa vadar edir. Bu alternativlər arasında separatizm getdikcə daha çox cəlbedici görünə bilər, xüsusilə demokratik mexanizmlər uğursuzluğa düçar olduqda.

Yekun olaraq, separatizmin yaranma səbəbləri çoxşaxəlidir və bu səbəblər bir-biri ilə sıx şəkildə əlaqəlidir. Etnik-dini müxtəlifliklər, sosial-iqtisadi qeyri-bərabərlik, siyasi haqsızlıqlar və xarici müdaxilələr bu problemin əsas mənbələri kimi çıxış edir. Məhz bu səbəbləri dərindən təhlil etmək və aradan qaldırmağa yönəlmiş siyasətlər həyata keçirmək, separatizmin qarşısının alınmasında ən mühüm addımlardan biri ola bilər (6, s. 72).

Separatizm yalnız bir dövlətin ərazi bütövlüyünü təhdid etmir, eyni zamanda onun təhlükəsizlik siyasətlərinin prioritetlərini dəyişməyə məcbur edir. Müstəqil və ya muxtariyyət tələb edən qrupların fəaliyyəti dövlətin hərbi-siyasi planlaşdırmasında, daxili sabitlik mexanizmlərində və hətta diplomatik mövqeyində əsas risk faktoru kimi nəzərə alınır.

Bu baxımdan, separatizm aşağıdakı sahələrə birbaşa təsir edir:

1. Daxili təhlükəsizlik xidmətlərinin yükünün artması: Dövlət daha çox resursunu kəşfiyyat, əks-kəşfiyyat və hüquq-mühafizə orqanlarının gücləndirilməsinə yönəltməyə məcbur olur.
2. Hərbi strategiyanın dəyişməsi: Separatist bölgələrdə potensial toqquşmalar nəzərə alınaraq ordu birləşmələrinin yerləşdirilməsi və müdafiə planları yenidən işlənir.
3. İctimai təhlükəsizlik və informasiya təhlükəsizliyi: Separatizmi təşviq edən təbliğatın qarşısını almaq üçün media və internet üzərində nəzarət tədbirləri sərtləşdirilir.
4. Diplomatik strategiyalara təsir: Xarici güclərin separatist qrupları dəstəkləməsi təhlükəsinə qarşı dövlət öz diplomatik siyasətini yenidən formalaşdırmağa məcbur qalır.

Məsələn, İspaniyanın milli təhlükəsizlik sənədlərində Kataloniya böhranından sonra separatizm milli təhlükəyə çevrilmiş və bu təhdidə qarşı yeni hüquqi və inzibati alətlər müəyyən edilmişdir. Azərbaycan da oxşar yanaşmanı Qarabağda erməni separatizminə qarşı tətbiq etmiş, 2020-ci ildən sonra milli təhlükəsizlik strategiyasına yeni elementlər daxil etmişdir (4, s. 40).

Separatizm təkcə dövlətlərin daxili problemi kimi deyil, eyni zamanda beynəlxalq münasibətlər sistemini dəyişdirə bilən dinamik və təhlükəli faktor kimi çıxış edir. Bir bölgədə baş qaldıran separatist hərəkatlar, digər dövlətlərin maraq dairəsinə daxil olur, bu da beynəlxalq hüququn əsas prinsiplərindən biri olan ərazi bütövlüyü ilə xalqların öz müqəddəratını təyin etmə hüququ arasında ziddiyyətlər doğurur (5, s. 15).

Separatizmin beynəlxalq münasibətlər sisteminə təsiri ilk növbədə geosiyasi balansın pozulması ilə nəticələnə bilər. Kosovo nümunəsində olduğu kimi, bir separatçı bölgənin

müstəqilliyinin tanınması digər dövlətlərdəki separatçı hərəkatlara stimul verir və bu, zəncirvari reaksiya yarada bilər. Bu isə beynəlxalq təşkilatlar arasında fikir ayrılığı, dövlətlərarası münasibətlərin gərginləşməsi və regional münaqişələrin artmasına səbəb olur.

Digər tərəfdən, separatizmlə bağlı beynəlxalq münasibətlərdə ikili standartlar müşahidə olunur. Bəzi hallarda böyük güclər öz geosiyasi maraqlarına uyğun olaraq separatçı qurumları dəstəkləyir və ya əleyhinə çıxır. Məsələn, Qərb ölkələrinin bir hissəsi Kosovanın müstəqilliyini tanıdığı halda, Rusiya Donetsk və Luqansk "xalq respublikaları"nı tanımışdır. Bu, beynəlxalq hüquqda vahid yanaşmanın olmamasını və güc siyasətinin önəmini göstərir.

Separatizm həmçinin beynəlxalq təşkilatların mövqelərinə və funksiyalarına da təsir edir. BMT, ATƏT, AŞPA kimi təşkilatlar ərazi münaqişələrinin həllində vasitəçilik funksiyasını yerinə yetirsələr də, bu hallarda qərarların qəbulunda siyasi təsirlər əsas rol oynayır. Bu isə həmin qurumların obyektivliyinə və effektivliyinə zərbə vurur (5, s. 33).

Beləliklə, separatizm beynəlxalq münasibətlər sistemində qarşılıqlı inamsızlıq, regional qarşıdurmalar, hüquqi qeyri-müəyyənlik və yeni təhlükəsizlik çağırışları formalaşdırır. Bu faktorlar, beynəlxalq siyasətdə sabitliyin və qarşılıqlı hörmətin zəifləməsinə səbəb ola bilər.

Separatizmin yaratdığı təhlükələrin aradan qaldırılması üçün kompleks və çoxşaxəli yanaşmalar tələb olunur. Bu yanaşmalar siyasi, iqtisadi, hüquqi və diplomatik səviyyələrdə həyata keçirilir.

İlk növbədə, milli inteqrasiya və inklüzivlik siyasətləri separatizmin köklərini zəiflətmək üçün vacibdir. Dövlətlərin azlıqların hüquqlarını təmin etməsi, onların siyasi proseslərə cəlb olunması və mədəni müxtəlifliklərə hörmət göstərməsi, ayrılma tələblərinin qarşısını alır. Məsələn, Kanada hökumətinin Kvebek bölgəsində apardığı dil hüquqları və mədəni muxtariyyət siyasəti inklüzivliyi gücləndirərək separatizmin genişlənməsinin qarşısını almışdır.

İkincisi, mədəni muxtariyyət və regional avtonomiya mexanizmlərinin tətbiqi separatçı qrupların tələblərini müəyyən dərəcədə ödəyərək ziddiyyətlərin yumşalmasına kömək edir. Bu siyasət İspaniyanın Kataloniya bölgəsində və İraqın Kürd regionunda müəyyən uğurlar qazanmışdır (5, s. 150).

Üçüncüsü, iqtisadi inkişaf və sosial bərabərliyin təmin olunması separatizmin yaranmasının əsas səbəblərindən biri olan iqtisadi narazılıqları azaldır. Yerli iqtisadiyyatın inkişaf etdirilməsi, sosial xidmətlərin əlçatanlığı və infrastrukturun yaxşılaşdırılması bölgələrdə ayrı-seçkilik hissini zəiflədir və dövlətlə bağlılığı artırır.

Dördüncüsü, diaqnostik dialoq və sülh danışıqları separatizmlə əlaqəli münaqişələrin həllində mühüm vasitədir. Beynəlxalq vasitəçilərin iştirakı ilə aparılan danışıqlar, qarşılıqlı etimadın bərpasına və kompromislərin tapılmasına imkan yaradır. İspaniyada Kataloniya böhranında dialoqun əhəmiyyəti bunun bariz nümunəsidir (2, s. 480).

Nəhayət, beynəlxalq hüququn və beynəlxalq təşkilatların rolu separatizmlə mübarizədə önəmlidir. Dövlətlərin ərazi bütövlüyünün qorunması və münaqişələrin sülh yolu ilə həlli üçün BMT, ATƏT kimi qurumların vasitəçiliyi zəruridir (2, s. 500).

Separatizm müasir dövrdə dövlətlərin ərazi bütövlüyü və siyasi sabitliyi üçün ciddi təhlükədir. Lakin, bu təhlükənin öhdəsindən gəlmək mümkün və zəruridir. Azərbaycanın zəngin tarixi və mədəni müxtəlifliyi milli birliyimizin təməlidir və bu birliyi qorumaq hər bir vətəndaşın və dövlətin əsas vəzifəsidir (1, s. 250).

Milli təhlükəsizliyin təmin olunmasında inklüzivlik, iqtisadi və sosial ədalətin təmin olunması, regionlarda sabitliyin qorunması vacib amillərdir. Azərbaycan dövləti bu istiqamətdə davamlı siyasətlər həyata keçirərək separatizmin mənfi təsirlərini minimuma endirməyə çalışır. Regional təhlükəsizliyin möhkəmləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və münaqişələrin sülh yolu ilə həlli isə strateji prioritetlərdəndir (3, s. 125).

Milli birliyimiz və dövlətimizin gücü, qarşılıqlı hörmət və vətənpərvərliklə möhkəmlənir. Azərbaycanın sabit və firavan gələcəyi buna bağlıdır. Biz bu yolda əlimizdən gələni etməli, gələcək nəsillərə güclü və müstəqil vətən miras qoymalıyıq.

## ƏDƏBİYYAT

1. Cavadov, Anar. Azərbaycanın milli təhlükəsizliyi və beynəlxalq münasibətlər. Bakı: Elm Nəşriyyatı, 2016, 350 s
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Prezident Administrasiyası nəşriyyatı, 2005, 752 s
3. Hüseynova, Günay. Regional təhlükəsizlik və Azərbaycan. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2018, 220 s
4. Məmmədzadə Vüqar, İskəndərov Xəqani. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri,Bakı;UNİCOPY nəşriyyatı, 2020, 126 s
5. Pavković, A., & Radan, P. Creating New States: Theory and Practice of Secession. Ashgate Publishing, 2007, 277 s
6. Smith, Anthony D. Nationalism and Modernism. London: Routledge, 1998, 288 s

## SEPARATİZMİN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Yusifov Elvin***

## XÜLASƏ

Separatizm müasir dünyada milli təhlükəsizlik üçün ciddi təhdidlərdən biri kimi çıxış edir. Dövlətlərin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş separatçı meyillər daxili sabitliyi pozur, vətəndaşlar arasında qarşıdurma yaradır və beynəlxalq münasibətlərdə gərginliyə səbəb olur. Bu proseslər etnik, dini, iqtisadi və ya siyasi səbəblərdən başlaya bilər, lakin nəticə etibarilə cəmiyyətin birliyini zəiflədir. Separatizmin güclənməsində xarici müdaxilələr və qlobal güc maraqları da mühüm rol oynayır. Müasir dünyada bir sıra aktiv separatizm ocaqları mövcuddur:

İspaniyanın Kataloniya bölgəsində müstəqillik tələbləri, Böyük Britaniyada Şotlandiyanın ayrılma istəkləri, Belçikada Flandriya problemi, Ukraynanın şərqində Donbas bölgəsində separatçı fəaliyyətlər, eləcə də Balkanlarda Kosovonun statusu ilə bağlı davam edən gərginlik bu təzahürlərə nümunədir. Bu cür meyillər qlobal təhlükəsizliyi təhdid etməklə yanaşı, regional sabitliyi də pozur. Müasir dövrdə separatizmə qarşı effektiv mübarizə dövlətlərin ideoloji, hərbi, hüquqi və diplomatik alətlərdən düzgün istifadəsini tələb edir. Belə yanaşma yalnız daxili sabitliyin deyil, eyni zamanda regional və qlobal təhlükəsizliyin təmin olunmasına da töhfə verir.

## ФАКТОРЫ, ОБУСЛОВЛИВАЮЩИЕ ВОЗНИКНОВЕНИЕ СЕПАРАТИЗМА

***Юсифов Эльвин***

## АННОТАЦИЯ

Сепаратизм в современном мире представляет собой серьёзную угрозу национальной безопасности. Сепаратистские стремления, направленные против суверенитета и территориальной целостности государств, подрывают внутреннюю стабильность, провоцируют конфликты среди граждан и вызывают напряжённость в

международных отношениях. Эти процессы могут быть вызваны этническими, религиозными, экономическими или политическими причинами, но в конечном итоге ослабляют единство общества. В усилении сепаратизма важную роль играют внешние вмешательства и глобальные интересы крупных держав.

В современном мире существует ряд активных очагов сепаратизма: требования независимости в Каталонии (Испания), стремление к отделению Шотландии от Великобритании, проблема Фландрии в Бельгии, сепаратистские движения в Донбассе (восток Украины), а также продолжающееся напряжение вокруг статуса Косово на Балканах. Эти тенденции представляют угрозу не только глобальной безопасности, но и региональной стабильности.

Борьба с сепаратизмом в современную эпоху требует эффективного использования государствами идеологических, военных, правовых и дипломатических инструментов. Такой подход способствует не только обеспечению внутренней стабильности, но и укреплению региональной и глобальной безопасности.

## FACTORS CONTRIBUTING TO THE EMERGENCE OF SEPARATISM

***Yusifov Elvin***

### SUMMARY

Separatism is one of the major threats to national security in today’s world. Movements aimed at undermining the sovereignty and territorial integrity of states disrupt internal stability, fuel conflicts among citizens, and cause tension in international relations. These tendencies may originate from ethnic, religious, economic, or political rea.sons, but ultimately weaken societal unity. External interference and global power interests also play a significant role in the intensification of separatist tendencies.

There are numerous active separatist hotbeds around the world today: demands for independence in Catalonia (Spain), Scotland’s desire to separate from the United Kingdom, the Flemish issue in Belgium, separatist activities in the Donbas region of eastern Ukraine, as well as ongoing tensions over Kosovo’s status in the Balkans. Such tendencies pose threats not only to global security but also to regional stability.

Combating separatism in the modern era requires states to effectively use ideological, military, legal, and diplomatic tools. This approach contributes not only to maintaining domestic stability but also to strengthening regional and global security.

# TERRORİZM VƏ ONUN BEYNƏLXALQ SİSTEMƏ TƏSİRİ

***Məmmədli Nuran Natiq qızı***
***BDU,Politologiya və sosiologiya kafedrası, baş müəllim, s.e.ü.f.d***
***nuranmammadli@bsu.edu.az***
***İbrahimova Səkinə İbad qızı***
***BDU-nun II kurs magistrantı***
***sakinaibrahimova1992@gmail.com***

***Açar sözlər:*** Beynəlxalq təhlükəsizlik, antiterror siyasəti, separatizm, ekstremizm, beynəlxalq terrorizm
***Ключевые слова:*** Международная безопасность, антитеррор истическая политика, сепаратизм, экстремизм, международный терроризм
***Keywords:*** International security, anti-terrorist policy, separatism, extremism,”freedom struggle”, international terrorism.

Terrorizm müasir dövrün ən təhlükəli və geniş yayılmış qlobal problemlərindən biridir. Bu anlayış əsasən qorxu və zorakılıq vasitəsi ilə siyasi,ideoloji və dini məqsədlərə çatmaq üçün istifadə olunur. Terrorizm zorakılıqdan istifadənin əhalidə ümumi qorxu şəraiti yaratmaq və bununla da müəyyən siyasi məqsəd gətirmək üçün planlaşdırılmış fəaliyyətidir. Qorxu yaratmaq üçün lazım olan kütləni cəlb etmək və əldə saxlamaq üçün terrorçular getdikcə daha zorakı və yüksək səviyyəli hücumlara əl atırlar. Bu siyahıya oğurluq,əsir götürülmə, qulduqluq,intihar bombaları və s daxildir. Ticarət mərkəzlərinin ,məktəblərin ,gecə klublarının, restoranların,hava limanlarının hədəf kimi seçilməsi təsadüf deyil. Terrorçuların ümidi ondan ibarətdir ki, bu fəaliyyətlərin doğurduğu terror hissi əhalini siyasi liderlərə təzyiq göstərməyə təhrik edəcək [2]. Terror aktları nəticəsində təkcə insanların həyatına deyil, həm də dövlətlərin sabitliyinə,iqtisadiyyatına və beynəlxalq münasibətlərə ciddi ziyan dəyir. Adətən bunu qeyri-dövlət subyektləri-hökumətin tərkibində olmayan şəxslər və ya təşkilatlar həyata keçirir. Beynəlxalq hüquq pozuntusuna sarsıdıcı zərbə vuran, beynəlxalq münasibətlərin normal gedişatına əhəmiyyətli təsir göstərən hallardan biri də terrorçuluq hesab olunur. Miqyasından və təşkilatlanma xarakterindən asılı olmayaraq kiçik müharibələrə səbəb ola bilir. Bəzən kiçik terror fəaliyyətləri alovlanaraq əhatə dairəsindən asılı olmayaraq,bütün dövlətlər üçün eyni dərəcədə təhlükəli ola bilər. Bu problem yalnız bir regionu əhatə etmədiyindən bütün bəşər üçün təhlükəyə çevrilmişdir. Terrorizm müxtəlif regionlarda fərqli dərəcədə təsir göstərən qlobal problem hesab olunur və onun əsas motivi siyasi xarakter daşıyır.

Terrorizmin müxtəlif formaları olsa da, fərqli ölkələr və təşkilatlar bu anlayışa müxtəlif yanaşmalar təqdim edir [7]. Bu təsnifat daha çox məqsəd, təşkilatlanma səviyyəsi, motivasiya və fəaliyyət sahəsinə əsaslanır. Əsasən siyasi,dini və ideoloji motivasiyalı terrorizm formaları mövcuddur. Siyasi terrorizmdə məqsəd hökuməti zəiflətmək, devirmək və ya müəyyən siyasi tələbləri irəli sürmək məqsədilə həyata keçirilir. Bu forma əsasən inqilabi və ya müxtəlif ideologiyalara əsaslanır. Məsələn, sol və ya sağ radikal qrupların hakimiyyəti devirmək və ya siyasi islahatlara nail olmaq məqsədilə həyata keçirdiyi hərəkətlər bu qrupa daxildir. Dini motivli terrorizmdə isə ekstremist ideologiyalar əsas rol oynayır. Dini fanatizmin təsiri ilə həyata keçirilən intihar aktları və kütləvi zorakılıq halları xüsusilə Yaxın Şərqdə geniş yayılmışdır. İdeoloji terrorizm isə müəyyən sosial və iqtisadi islahatlar uğrunda aparılır. Etnik kimlik və ya regional müstəqillik uğrunda mübarizə aparan separatçı qruplar həyata keçirilən terror aktları bu qrupa aiddir. Müasir dövrdə texnologiyanın inkişafı ilə kiber terrorizm kimi yeni formalar da meydana çıxmışdır. Onlar

informasiya sistemlərinə və texnoloji infrastruktur obyektlərinə qarşı yönəlmiş elektron hücumlar, rəqəmsal təhdidlər və dezinformasiya vasitəsilə həyata keçirilən terror aktlarıdır.

Terrorizm müasir dünyanın ən təhlükəli qlobal problemlərindən biri hesab olunur. Bu anlayış zorakılıq və hədə-qorxu vasitəsilə siyasi, ideoloji və bəzən dini məqsədlərə nail olmaq üçün planlı şəkildə həyata keçirilən fəaliyyətlər sistemini ifadə edir. Terror qrupları cəmiyyət daxilində qorxu mühiti yaratmaq və geniş kütlələrə təsir göstərmək üçün daha səs-küylü və dağıdıcı hücumlara əl atırlar. Ticarət mərkəzləri, məktəblər, hava limanları və ictimai məkanların hədəf seçilməsi təsadüfi deyil; məqsəd siyasi qərarvericilərə təzyiq göstərməkdir.

Terror aktları təkcə insan itkiləri ilə nəticələnmir, həm də dövlətlərin sabitliyinə, iqtisadiyyatına, ictimai rifaha və beynəlxalq münasibətlərə ciddi zərbə vurur [1]. Bu fəaliyyətlər adətən qeyri-dövlət aktorları tərəfindən həyata keçirilsə də, bəzi hallarda dövlət strukturlarının da qanunsuz zorakılığa əl atdığı müşahidə olunur. Miqyasından asılı olmayaraq terror aktları kiçik münaqişələrin böyüməsinə, regional gərginliyin artmasına və transmilli təhlükələrə yol aça bilir.

Tarix göstərir ki, bir çox mübarizələr ideoloji, etnik və ya dini motivlərlə əsaslandırılır. “Birinin terrorçusu digərinin azadlıq mücahididir” ifadəsi bu kontekstin subyektivliyini nümayiş etdirir. Terrorizm zaman keçdikcə separatizm, radikalizm və ekstremizm kimi digər təhlükəli tendensiyalarla sıx əlaqələnmişdir. Bəzi hallarda dini amildən sui-istifadə olunaraq həyata keçirilən zorakı aksiyalar beynəlxalq təhlükəsizlik üçün böyük təhdid yaradır.

Terrorizmin növlərinə dair vahid təsnifat mövcud olmasa da, əsasən siyasi, dini, ideoloji və etnik motivli terrorizmdən bəhs edilir. Siyasi terrorizm hökumətlərə təzyiq göstərmək və ya onları devirmək məqsədi daşıyır. Dini motivli terrorizm ekstremist ideologiyalar üzərində qurulur və xüsusilə Yaxın Şərq regionunda geniş yayılmışdır. İdeoloji və etnik əsaslı terrorizm isə sosial ədalət, regional muxtariyyət və etnik-identik iddialar çərçivəsində meydana çıxır. Müasir dövrdə texnologiyaların inkişafı kiberterrorizm kimi yeni formaların yaranmasına səbəb olmuşdur.

Terrorizm XXI əsrin beynəlxalq münasibətlər sisteminə ən çox təsir göstərən transmilli təhlükə elementlərindən biri hesab olunur. Ənənəvi müharibələrdən fərqli olaraq, terrorizm dövlət-dövlət qarşıdurmasına deyil, qeyri-dövlət aktorlarının asimmetrik zorakılığına əsaslanır və bu xüsusiyyət ona qlobal sistemdə proqnozlaşdırılması çətin olan, daimi dəyişən təhlükə xarakteri verir [8]. Terror aktları yalnız bir dövlətin milli təhlükəsizliyinə deyil, eyni zamanda beynəlxalq hüququn fundamental prinsiplərinə, regional sabitliyə və qlobal idarəçilik mexanizmlərinə təsir göstərir. Bu təsirlər çoxşaxəlidir və aşağıdakı istiqamətlərdə özünü göstərir:

Terrorizmin artması beynəlxalq hüququn klassik prinsiplərinin yenidən nəzərdən keçirilməsini zəruri etmişdir. “Dövlətlərin suverenliyi” və “qüvvədən istifadənin yolverilməzliyi” kimi prinsiplər qeyri-dövlət terror qruplarının fəaliyyətləri fonunda daha mürəkkəb məzmun kəsb edir. 11 Sentyabr hadisələrindən sonra bəzi dövlətlər preventiv müdaxilə və özünümüdafiə doktrinasını genişləndirərək, terror təhlükəsini əvvəlcədən zərbə endirmək üçün hüquqi əsas kimi göstərmişdir. Nəticədə BMT Nizamnaməsinin 51-ci maddəsinin tətbiq dairəsi ilə bağlı yeni beynəlxalq hüquqi debatlar yaranmışdır. Bununla yanaşı, transmilli terror şəbəkələrinin fəaliyyəti qeyri-dövlət aktorlarının beynəlxalq hüququn müəyyən sahələrində faktiki subyektə çevrilməsinə səbəb olmuş və ənənəvi hüquqi strukturda dəyişikliklərə yol açmışdır.

Terrorizm beynəlxalq və regional geopolitik münasibətləri də dərindən dəyişir. Qafqazdan Orta Şərqə, Afrikadan Cənub Asiyaya qədər müxtəlif regionlarda terror qruplarının aktivliyi dövlətlərin təhlükəsizlik siyasətlərini yenidən formalaşdırmağa vadar edir. NATO, Avropa İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı kimi qurumlar öz təhlükəsizlik

strategiyalarında terrorizmi əsas prioritet kimi qeyd edir. Bəzi regionlarda terror təşkilatları üzərində nəzarət uğrunda aparılan rəqabət böyük güclər arasında geosiyasi qarşıdurmaya səbəb olur ki, bu da beynəlxalq münasibətlər sistemində yeni balansların yaranmasına gətirib çıxarır [6]. Bu proseslər sərhəd idarəçiliyi, qaçqın axını və miqrasiya siyasətinə də birbaşa təsir edir. Terrorizmin geniş yayıldığı regionlardan kütləvi miqrasiya təhlükəsizlik strukturlarını dəyişdirir, Avropa və Yaxın Şərqdə siyasi gərginlikləri artırır və sosial resurslara əlavə yük yaradır.

Terrorizmin beynəlxalq iqtisadi sistemə təsiri də ciddi xarakter daşıyır. Terror aktları qlobal bazarlarda qeyri-sabitlik yaradır, neft və enerji qiymətlərinin dalğalanmasına, valyuta bazarlarında risklərin artmasına səbəb olur. Terror təhlükəsi olan ölkələrə investisiya axını azalır, turizm sektoru zəifləyir və sığorta xərcləri artır. Boru kəmərləri, dəniz və hava limanları, logistika marşrutları kimi strateji obyektlər terror hücumları üçün hədəfə çevrilir və bu, qlobal ticarət yollarının təhlükəsizliyinə ciddi zərbə vurur. Beləliklə, terrorizm yalnız ayrı-ayrı ölkələrin deyil, bütün regionların iqtisadi sabitliyinə təsir edən qlobal risk faktoruna çevrilir.

Beynəlxalq təşkilatların fəaliyyət istiqamətləri də terror təhdidinin artması fonunda dəyişmişdir. Birləşmiş Millətlər Təşkilatı qlobal antiterror strategiyası qəbul etmiş, Təhlükəsizlik Şurasının 1267 və 1373 saylı qətnamələri ilə terrorun maliyyələşməsinə qarşı sanksiya mexanizmlərini gücləndirmişdir. INTERPOL beynəlxalq məlumat mübadiləsini genişləndirərək biometrik identifikasiya sistemlərini tətbiq etmiş, Avropa İttifaqı isə təhlükəsizlik siyasətini "prevent–protect–pursue–respond" modeli üzrə yenidən qurmuşdur. Bu dəyişikliklər beynəlxalq əməkdaşlığın intensivləşməsinə və qlobal təhlükəsizlik mexanizmlərinin güclənməsinə səbəb olmuşdur [3].

Terrorizm informasiya mühitinə də ciddi təsir göstərir. Müasir dövrdə terror qrupları sosial şəbəkələr və rəqəmsal platformalardan təbliğat, radikallaşdırma və üzv cəlb etmə məqsədilə geniş istifadə edir. Kiberterrorizm dövlət infrastrukturuna hücumlar, məlumat oğurluğu və sistemlərin iflic edilməsi kimi yeni təhlükələr yaradır. Bundan əlavə, dezinformasiya kampaniyaları və psixoloji təsir texnikaları cəmiyyətlərdə qorxu və panika yaratmaq üçün istifadə olunur.

Dövlətlərin daxili təhlükəsizlik modelləri də terror təhlükəsi fonunda dəyişmişdir. Bir çox ölkələrdə təhlükəsizlik məqsədilə yeni qanunlar qəbul edilmiş, xüsusi xidmət orqanlarının səlahiyyətləri genişləndirilmiş və bəzi hallarda insan hüquqları ilə bağlı narahatlığa səbəb olan sərt tədbirlər tətbiq olunmuşdur. Fövqəladə vəziyyət rejimlərinin uzadılması, kütləvi izləmə sistemləri və sərt sərhəd nəzarəti tədbirləri təhlükəsizlik-demokratiya balansı ilə bağlı beynəlxalq müzakirələri daha da aktuallaşdırmışdır.

Beləliklə, terrorizmin beynəlxalq sistemə təsiri kompleks və çoxşaxəlidir. O, yalnız təhlükəsizlik məsələsi kimi deyil, siyasi, hüquqi, iqtisadi, sosial və informasiya aspektlərinə malik geniş miqyaslı fenomen kimi qiymətləndirilir. Müasir dünyada terrorizmlə mübarizə qlobal əməkdaşlıq, informasiya mübadiləsi, hüquqi mexanizmlərin harmonizasiyası, sosial-iqtisadi inkişaf və radikallaşmanın qarşısının alınması kimi multidissiplinar yanaşmalar tələb edir.

Terrorizmin sosial təsirləri genişdir. Hücumlar cəmiyyətdə qorxu, qeyri-müəyyənlik, güvənsizlik və psixoloji travma yaradır. Təşkilatlanmış zorakılıq nəticəsində sosial parçalanma dərinləşir, etnik və dini icmalar arasında qarşıdurma artır. Bir çox hallarda terror təhlükəsi genişmiqyaslı miqrasiya və məcburi köçkünlük doğurur ki, bu da sosial resurslara əlavə yük yaradır.

İqtisadi baxımdan terror aktları infrastruktura milyardlarla dəyərində ziyan vurur, investisiya mühitini zəiflədir, turizmi iflic edir və dövlət xərclərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olur. 11 Sentyabr hadisələri bunun ən bariz nümunələrindən biridir.

Siyasi baxımdan terrorizm dövlət legitimliyinə zərbə vurur, hökumətləri fövqəladə səlahiyyətlər tətbiq etməyə məcbur edir, bəzən isə avtoritar tendensiyaların güclənməsinə gətirib çıxarır. Bundan əlavə, terrorla bağlı ittihamlar dövlətlərarası münasibətlərdə gərginlik yarada və beynəlxalq sanksiyalara səbəb ola bilir[9].

Terrorizmlə mübarizədə ən böyük problemlərdən biri beynəlxalq hüquqda termin birliyinin olmamasıdır. Eyni fəaliyyət bir ölkə tərəfindən "azadlıq hərəkatı", digər ölkə tərəfindən "terror aktı" kimi dəyərləndirilə bilər. Bu səbəbdən BMT çərçivəsində vahid tərif və hüquqi əsasların qəbul edilməsi çətinləşir.

Beynəlxalq miqyasda terrorizmlə mübarizəyə BMT, INTERPOL, Avropa İttifaqı, NATO və digər qurumlar koordinasiyalı şəkildə cəlb olunur. BMT-nin 2006-cı il Qlobal Strategiyası terrorizmə qarşı mübarizəni hüquqi, sosial və siyasi aspektlərdə sistemləşdirən mühüm sənəddir. Avropa İttifaqının "prevent–protect–pursue–respond" modeli və FATF-ın maliyyələşməyə qarşı sanksiya mexanizmləri də qlobal əməkdaşlıq üçün nümunədir.

Azərbaycan Respublikası beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə terrorizmlə mübarizəyə qətiyyətlə yanaşır. Dövlət həm normativ-hüquqi bazasını gücləndirmiş, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşdur. Xüsusilə radikalizmin qarşısının alınması, sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi və enerji infrastrukturlarının qorunması üzrə atılan addımlar regional sabitlik üçün əhəmiyyətlidir.

Nəticə etibarilə terrorizm yalnız təhlükəsizlik problemi deyil, həm də siyasi, sosial, iqtisadi və ideoloji aspektləri olan kompleks bir fenomendir. Ona qarşı effektiv mübarizə yalnız hərbi vasitələrlə məhdudlaşmamalı, həm də maarifləndirmə, sosial ədalət, iqtisadi inkişaf və beynəlxalq hüquqi əməkdaşlıqla tamamlanmalıdır.

## ƏDƏBİYYAT

1. Abbasbəyli A.N. Dünya siyasəti (XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri). B.: Nurlar, 2011, 584 s.
2. Akgün B. 11 Eylül Sonrasında Dünya, ABD ve Türkiye. Tablet Kitabevi, Konya, 2006, s. 26-27
3. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 2001-ci il 12 sentyabr tarixli 1368 nömrəli və 2001-ci il 28 sentyabr tarixli 1373 nömrəli qətnamələrinin yerinə yetirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncami. – https://frameworks.e-qanun.az/2/f_2503.html
4. BMT terrorizmə müharibə elan edir. – https://musavat.com/news/bmt-terrorizme-muharibe-elan-edir-icmal_418400.html
5. Çaycı, Sadi, "Terörle Mücadele ve Birleşmiş Milletler", ASAM, 2 Aralık 2004. – http://www. avsam.org/tr/analizler.asp?ID=10
6. Çitlioğlu E. Terörizmin Yeni Konsepti, Stratejik Analiz, Eylül 2007, s.28-33
7. Dedeoğlu B. Terörizm ve Terörizmle Mücadelenin Paradoksal Olguları, Avrasya Dosyası. // ASAM, Cilt:12, Sayı:3, Ankara, 2006, s. 5-21
8. Elnur, Soltan. 11 Eylül Sonrası AB'nin Teröre Yaklaşımı ve Ortak Dış Politika ve Güvenlik Politikasının Başarısızlığı. // Stratejik Analiz Dergisi, Sayı:20, Aralık 2001, s. 28-37
9. Erol S. Mehmet: Terör Örgütleri, Ed. Haydar Çakmak, Uluslararası İlişkiler: Giriş, Kavram ve Teoriler, Ankara, Platin, 2007, s.113–124
10. Qələndərova E.Ş. Terror anlayışı və onun müasir növləri. // "Qanun" jurnalı, 2017, № 1, 9 s.

# TERRORİZM VƏ ONUN BEYNƏLXALQ SİSTEMƏ TƏSİRİ

***Məmmədli Nuran, İbrahimova Səkinə***

## XÜLASƏ

Məqalədə terrorizmin mahiyyəti, onun müxtəlif motivləri və formaları, beynəlxalq sistemə göstərdiyi siyasi, sosial, hüquqi və iqtisadi təsirlər araşdırılır. Həmçinin qlobal antiterror mexanizmləri, beynəlxalq təşkilatların rolu və Azərbaycanın bu sahədə fəaliyyəti təhlil olunur. Tədqiqat terrorizmə qarşı kompleks, hərbi, sosial, iqtisadi və ideoloji müstəviləri birləşdirən yanaşmanın vacibliyini vurğulayır.

## ТЕРРОРИЗМ И ЕГО ВЛИЯНИЕ НА МЕЖДУНАРОДНУЮ СИСТЕМУ

***Мамедли Нуран, Ибрагимова Сакина***

## АННОТПАЦИЯ

В статье исследуется сущность терроризма, его мотивы и формы, а также политические, социальные, правовые и экономические последствия для международной системы. Анализируются глобальные антитеррористические механизмы, роль международных организаций и деятельность Азербайджана в данной сфере. Подчеркивается необходимость комплексного подхода, сочетающего военные, социальные, экономические и идеологические меры.

## TERRORISM AND ITS IMPACT ON THE INTERNATIONAL SYSTEM

***Mammadli Nuran, Ibrahimova Sakina***

## SUMMARY

The article examines the nature of terrorism, its motives and forms, and its political, social, legal, and economic impacts on the international system. It evaluates global anti-terror mechanisms, the role of international organizations, and Azerbaijan’s efforts in combating terrorism. The study emphasizes the need for a comprehensive, multidimensional approach that combines military, social, economic, and ideological measures.

# CƏNUBİ QAFQAZDA KİBERTƏHLÜKƏSİZLİK MÜHİTİ VƏ AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİ

***dos. Əfəndiyeva Xatirə Bəxtiyar qızı***
***BDU-nun Politologiya və sosiologiya kafedrası***
***xatirabdu@hotmail.com***
***Kərimli Günay İbrahim qızı***
***BDU-nun II kurs magistrantı***
***kerimligunay26@gmail.com***

***Açar sözlər:*** kibertəhlükəsizlik, Cənubi Qafqaz, dövlət siyasəti, rəqəmsal təhlükəsizlik, kiberhücum, Azərbaycan
***Keywords:*** cybersecurity, South Caucasus, state policy, digital transformation, cyber attacks, Azerbaijan
***Ключевые слова:*** кибербезопасность, Южный Кавказ, государственная политика, цифровая трансформация, кибератака, Азербайджан

Cənubi Qafqaz strateji mövqeyi və mürəkkəb geopolitik şəraiti ilə seçilir. Region təkcə enerji və nəqliyyat dəhlizləri deyil, həm də informasiya texnologiyaları və kibertəhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. Region böyük güclərin maraqlarının toqquşduğu geosiyasi məkandır [1]. Burada informasiya müharibələri, dövlət səviyyəli kiberhücumlar, kritik infrastrukturun hədəfə alınması və kiberkəşfiyyat əməliyyatları dinamik şəkildə artır. Rəqəmsal texnologiyaların geniş yayılması və dövlət idarəçiliyinin elektronlaşması kibertəhlükəsizliyi region ölkələrinin milli təhlükəsizlik prioritetlərindən birinə çevirib. Bu kontekstdə Azərbaycan da həm daxili təhlükəsizlik, həm enerji infrastrukturu, həm də regional siyasi nüfuz baxımından kibertəhlükəsizlik sahəsində sistemli dövlət siyasəti formalaşdırmalı olmuşdur.

Cənubi Qafqazın ümumi kibertəhlükəsizlik mənzərəsi bir neçə paralel proseslərlə müəyyən edilir. İlk olaraq burada dövlətlərin bir-birilərinə qarşı apardıqları informasiya müharibələri və rəqəmsal təzyiqlər xüsusi rol oynayır. 2008-ci il Gürcüstan–Rusiya kibermüharibəsi dünyada ilk genişmiqyaslı rəqəmsal müharibə nümunəsi hesab olunur. Hücumlar fərdi hakerlər tərəfindən deyil, dövlət dəstəyi ilə idarə olunan botnet şəbəkələri vasitəsilə həyata keçirilmişdi [2]. Bu hücumlar başlamazdan 2 həftə əvvəl Gürcüstanın ən böyük hosting şirkətlərinin DNS qeydləri sanki "təsadüfən" dəyişdirilmişdi. Gürcüstan müdafiə nazirliyinin saytını bərpa etmək üçün hökumət saytlarını ABŞ-ın Kolorado ştatındakı serverlərə köçürmüşdü – müharibə vaxtı ilk "rəqəmsal miqrasiya".

Regiondakı kiberhücumların əksəriyyəti yerli deyil, xarici mənşəlidir. İran mənşəli APT33 və APT34, Rusiya mənşəli Sandworm, Ermənistanla əlaqəli Armageddon və ArmHack, həmçinin Türkiyədə fəaliyyət göstərən müəyyən ideoloji haker qrupları bu hücumlarda əsas aktorlar kimi çıxış edirlər. Region daxilində kifayət qədər haker olsa da, ən zərərli hücumlar adətən peşəkar və dövlət dəstəyi ilə fəaliyyət göstərən qruplar tərəfindən "icarə modeli" əsasında həyata keçirilir.

Diqqətçəkən məqamlardan biri də odur ki, "kibercasus diplomatiyası" praktikası regionda ilk dəfə məhz Cənubi Qafqazda müşahidə olunub. 2020-ci ildə bəzi dövlətlər Azərbaycan və Ermənistanla diplomatik gərginlik yaşamamaq üçün kiberhücumları öz hakerləri vasitəsilə deyil, üçüncü ölkələrdəki qruplarla etdiriblər. Bu praktika beynəlxalq ədəbiyyatda "plausible deniability cyber diplomacy" adlanır [3].

Azərbaycan 2016-cı il Aprel döyüşləri, 2020-ci il Vətən Müharibəsi və sonrakı dövrdə Ermənistan mənşəli qruplar və xaricdən idarə olunan dövlət dəstəkli strukturlar tərəfindən

daha intensiv kiberhücumlara məruz qalıb. Bu hücumlar həm dövlət saytlarını, həm də media platformalarını sıradan çıxarmağa, dezinformasiya yaymağa və kritik informasiya axınını pozmağa yönəlmişdi.

Bununla yanaşı, regionda İran, Rusiya və bəzi Qərb dövlətləri ilə əlaqəli müxtəlif APT qruplarının fəaliyyəti də qeydə alınır. Bu qruplar əsasən enerji infrastrukturu, bank sistemləri və dövlət orqanlarının daxili şəbəkələrinə nüfuz etmək üçün uzunmüddətli kiberkəşfiyyat taktikalarından istifadə edirlər.

Regionun kiberhədələrini daha da gücləndirən digər amil kritik infrastrukturun yüksək dəyərə malik olmasıdır. Cənub Qaz Dəhlizi, TANAP, Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Qars dəmir yolu və digər beynəlxalq logistik layihələr təkcə Azərbaycanın deyil, Avropanın enerji təhlükəsizliyinin də təməl komponentləridir. Bu infrastrukturun zərər görməsi təkcə iqtisadi itkilərlə nəticələnmir, həm də ciddi siyasi və geopolitik təsirlər yaradır. Bu səbəbdən enerji sektoruna, SCADA sistemlərinə və nəqliyyat şəbəkələrinə yönəlmiş kiberhücumlar regionda ən təhlükəli risklərdən sayılır. Son illərdə fərqli mənbələrdə SOCAR, müxtəlif nazirliklərin informasiya sistemləri və yerli bank şəbəkələrinə qarşı edilmiş hücumların izləri aşkarlanmışdır. ENISA (2022), Atlantic Council (2019–2023) və Dragos-un ICS hesabatlarına görə enerji şirkətlərinə edilən bəzi hücumlar enerji tədarükündə gecikmə görüntüsü yaratmaq, qiymətləri manipulyasiya etmək və ticarət məlumatlarına müdaxilə etmək məqsədi daşıyır. Cənubi Qafqaz regionunda SOCAR kimi böyük şirkətlərin də bu tip hücum kampaniyaları hədəfində olması ehtimalı yüksəkdir [4], [5].

Azərbaycanın kibertəhlükəsizlik mühitinə nəzər yetirdikdə, ölkədə həm risklərin, həm də imkanların paralel mövcud olduğu görünür. Bir tərəfdən, Azərbaycan son illərdə rəqəmsal idarəçilik, elektron hökumət xidmətləri və süni intellekt əsaslı texnologiyaların tətbiqi sahəsində mühüm irəliləyişlər əldə edib. ASAN xidmət modeli, rəqəmsal sənəd dövriyyəsi, elektron ödəniş sistemləri və dövlət platformalarının inteqrasiyası ölkəni regionda rəqəmsal transformasiya sahəsində liderlərdən birinə çevirir.

Azərbaycanın kibertəhlükəsizlik siyasəti bir sıra strateji sənədlərə əsaslanır [6]. "Kibertəhlükəsizlik Strategiyası (2023–2027)" ölkənin kibermüdafiə sisteminin inkişafına dair yol xəritəsini müəyyənləşdirir. Bu sənəddə dövlətin informasiya sistemlərinin ümumi təhlükəsizlik səviyyəsinin artırılması, kritik infrastruktur üçün vahid idarəetmə modeli, kibermühafizə mərkəzlərinin genişləndirilməsi, süni intellektin tətbiqi, dövlət-xüsusi sektor əməkdaşlığının gücləndirilməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın inkişaf etdirilməsi kimi prioritetlər açıqlanır. Bununla yanaşı, Azərbaycanın kibertəhlükəsizlik sistemində institusional quruluş mühüm rol oynayır və bu sahədə fəaliyyət göstərən bir neçə əsas qurum mövcuddur. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, CERT.az və digər qurumlar real vaxt rejimində monitorinq aparır, riskləri qiymətləndirir və operativ müdaxilə həyata keçirirlər:

- Milli CERT (Computer Emergency Response Team): Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin tərkibində fəaliyyət göstərir. Mərkəz kiberinsidentlərin aşkarlanması, qarşısının alınması və profilaktik tədbirlərin həyata keçirilməsi üzrə ölkənin əsas texniki koordinasiya qurumudur.
- Dövlət qurumları üçün CERT funksiyası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən həyata keçirilir. Xidmət dövlət strukturlarının kibertəhlükəsizliyini təmin edir və 24/7 rejimində fəaliyyət göstərən Təhlükəsizlik Əməliyyatları Mərkəzi vasitəsilə operativ monitorinq aparır.
- AzScienceCERT: Milli Elmlər Akademiyası çərçivəsində fəaliyyət göstərən və elmi şəbəkələrin kibertəhlükəsizliyinə cavabdeh olan mərkəzdir. Mərkəz elmi resursların qorunması, tədqiqat şəbəkələrinin təhlükəsiz işləməsi və məlumat mübadiləsinin etibarlılığının təmin edilməsinə fokuslanır.

Bu qurumların birgə fəaliyyəti Azərbaycan kibərməkanda baş verən təhdidlərə qarşı çoxsəviyyəli müdafiə modelinin formalaşmasına imkan verir.

Digər tərəfdən, ölkənin kibertəhlükəsizlik sahəsində bəzi zəif tərəfləri də mövcuddur. Azərbaycanın kibertəhlükəsizlik mühitinə dair apardığım təhlil göstərir ki, ölkənin rəqəmsal platformalarına yönəlmiş hücumların intensivliyi son illərdə hiss olunan şəkildə artıb. 2023–2024-cü illərə dair açıq mənbə statistikaları göstərir ki, Azərbaycana qarşı qeydiyyata alınan kiberhücum cəhdləri 38% artaraq 600 minə çatıb.[7] Bu artım xüsusilə dövlət infrastrukturu və enerji sektoru üçün daha ciddi təhdid yaradır. Enerji ilə bağlı sistemlər dünyanın bir çox ölkəsində prioritet hədəfə çevrildiyi kimi, Azərbaycanda da bu sahədə insident sayı il ərzində gözəçarpacaq dərəcədə yüksəlib. Kadr çatışmazlığı da ölkənin kibertəhlükəsizlik sisteminin əsas zəif nöqtələrindən biri olaraq qalır. Qiymətləndirmələr göstərir ki, Azərbaycanda kibertəhlükəsizlik üzrə tələbat mövcud kadr potensialından yüksəkdir. Bu çatışmazlığın miqyası böyük olmasa da, təqribi göstəricilər onun hələ də hiss olunduğunu ortaya qoyur. Mənim fikrimcə, təhsil müəssisələrində praktiki yönümlü təlimlərin artırılması və dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi bu boşluğu daha real şəkildə azalda bilər.

Azərbaycan kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir. NATO-nun Kibermüdafiə Əməkdaşlıq Mərkəzi, Avropa İttifaqının ENISA qurumu, region ölkələri və strateji tərəfdaşlarla həyata keçirilən proqramlar ölkənin kibermüdafiə qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Nəzərə alsaq ki, kiberhücumlar coğrafiya tanımır və sərhədləri asanlıqla aşır, beynəlxalq partnyorluq regional sabitlik üçün qaçılmazdır [8].

Azərbaycanın regional liderlik potensialı kibertəhlükəsizlik sahəsində də özünü göstərir. Enerji, nəqliyyat və kommunikasiya layihələrinin böyük hissəsinin Azərbaycandan keçməsi onu regionun kibermükavimətində açar dövlətə çevirir. Rəqəmsal transformasiya sahəsində əldə olunan uğurlar, dövlət xidmətlərinin şəffaflaşması və texnoloji innovasiyaların sürətli tətbiqi ölkənin təhlükəsizlik modelini daha müasir edir. Dövlət, özəl sektor və akademik mühit arasında əməkdaşlıq gücləndikcə Azərbaycan Cənubi Qafqazda kibermühitin formalaşmasında aparıcı aktorlardan birinə çevrilir.

Yekun olaraq, Cənubi Qafqaz regionunda kibertəhlükəsizlik sahəsi sürətlə dəyişən və mürəkkəb xarakter daşıyan bir mühit kimi formalaşır. Region dövlətləri arasında informasiya müharibələri, kiberhücumlar və strateji rəqabət təhlükəsizlik təhdidlərinin çoxşaxəli olmasını tələb edir. Azərbaycan bu çətin geopolitik mənzərədə dövlət siyasətini qabaqlayıcı və sistemli yanaşmalar əsasında qurur, rəqəmsal infrastrukturun müdafiəsini gücləndirir və beynəlxalq əməkdaşlıqlar vasitəsilə təcrübə mübadiləsini təmin edir. Bununla yanaşı, ölkənin kibertəhlükəsizlik strategiyası yalnız texnoloji aspektlərlə məhdudlaşmır, həm də qanunvericilik, təlim və vətəndaş maarifləndirilməsi kimi komponentləri əhatə edir. Nəticədə, bu strategiya ölkəni yalnız milli maraqlarını qoruyan bir oyunçu yox, regionda sabitliyi təmin edən etibarlı dayağa çevirir. Bu göstərir ki, kibertəhlükəsizlik artıq sadəcə müdafiə deyil, dövlətin strateji gücünün əsas sütunlarından biridir.

## ƏDƏBİYYAT

1. Durojaye, H., & Raji, O. (2022). Impact of State and State-Sponsored Actors on Cyber Environment and Critical Infrastructure. ResearchGate.

2. Derbyshire, R., Selck-Paulsson, D., & Others. (2025). Hacktivism and Cyber Conflicts in the South Caucasus. arxiv.

3. Lindsay, J. R. (2021). Cyber Operations and International Relations in the South Caucasus. Journal of Strategic Studies, 44(6), 812–835.

4. ENISA. (2022). Threat Landscape: Cyber Attacks on Critical Infrastructure. European Union Agency for Cybersecurity.
5. Atlantic Council. (2019–2023). Cybersecurity and Critical Infrastructure in Eurasia.
6. Azərbaycan Respublikasının Kibertəhlükəsizlik Strategiyası (2023–2027). Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti.
7. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (CERT.az) hesabatları, 2023–2024
8. NATO Cooperative Cyber Defence Centre of Excellence (CCDCOE). (2023). Building Cyber Resilience in Partner States. NATO CCDCOE Publications.

## CƏNUBİ QAFQAZDA KİBERTƏHLÜKƏSİZLİK MÜHİTİ VƏ AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİ

*Kərimli Günay*

### XÜLASƏ

Cənubi Qafqazda kibertəhlükəsizlik mürəkkəb və çoxşaxəlidir, dövlətlərarası rəqabət və rəqəmsal təhdidlər burada davamlı təzyiqlər yaradır. Azərbaycan kritik infrastrukturunu qorumaq və rəqəmsal sistemlərini gücləndirmək üçün qabaqlayıcı tədbirlər həyata keçirir. Bu yanaşmalar ölkənin strateji stabilliyini möhkəmləndirir və kibermühitdə dayanıqlığını təmin edir.

## СРЕДА КИБЕРБЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ И ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА

*Керимли Гюнай*

### АННОТАЦИЯ

